

**Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**
Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929 -cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti
29 sentyabr 2023-cü il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

**BDU yeni "Erasmus+" layihəsinin tərəfdaşıdır**
→Səh.4

**Son bir ayda BDU-nun Hirş indeksi 57-dən 58-ə yüksəlib**
→Səh.5

**BDU və Səmərqənd Dövlət Universiteti arasında əməkdaşlıq əlaqələri müzakirə olunub**
→Səh.5

**BDU-da "27 Sentyabr - Anım Günü" adlı kitab sərgisi təşkil olunub**
→Səh.8

**IDEA və BDU-nun birgə təşkilatçılığı ilə Sumqayıt çimərliyinin sahil zolağında təmizlik aksiyası keçirilib**
→Səh.10

**BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin əməkdaşları Ankara Universitetində təlim keçirlər**
→Səh.17

**Tələbə Gənclər Təşkilatının üzvləri Şuşada**
→Səh.19



**Türkiyənin Karamanoğlu Mehmetbey Universitetinin rektoru BDU-da**
→Səh.4



**Türk Dünyası Jurnalistlər Federasiyasının rəhbəri ilə görüş**
→Səh.4




**BDU-da Anım Gününə həsr olunan tədbir**
→Səh.8



**BDU əməkdaşları akademik Rəfiqə Əliyevanın məzarını ziyarət ediblər**
→Səh.12




**BDU-da Milli Musiqi Günü qeyd olunub**
→Səh.18




## 104 yaşlı Bakı Dövlət Universiteti

***1 sentyabr – Azərbaycan xalqının taleyində, milli mədəniyyətimizin və ictimai fikir tariximizin, elm və təhsilimizin inkişafında yeni mərhələnin başlanğıcı sayılan şərəfli bir tarixdir. 104 il əvvəl məhz bu gün Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti uzun və gərgin müzakirələrdən sonra tarixi qərara imza atdı.*** Parlamentdə Bakı Dövlət Universitetinin təsisi haqqında qanun qəbul edildi. Bakı Dövlət Universiteti (BDU) Cümhuriyyət illərində çox qısa zaman ərzindəki fəaliyyəti ilə xalqımızın maariflənməsində mühüm rol oynadı. Sovet hakimiyyəti illərində Universitet rejimin amansız təzyiqlərinə, hətta 30-cu illərdə fəaliyyətinin bir müddət məhdudlaşdırılmasına baxmayaraq elm və təhsil məbədi kimi öz tarixi missiyasını davam etdirməyi bacardı.

BDU-nun inkişafında yeni və mühüm mərhələ, heç şübhəsiz, 1969-cu ildə Ümummilli Liderimiz Heydər Əliyevin ölkəyə rəhbərlik etməsi ilə başladı. Universitetin elm və təhsil flaqmanı kimi şöhrətlənməsi məhz bu tarixdən sonra gerçəkləşdi. Ali təhsil ocağının 50 illik yubiley tədbirlərinə Ulu Öndər Heydər Əliyevin şəxsən rəhbərlik etməsi, dövlət başçısı kimi Universitetə daimi qayğısı BDU-nun nüfuzunu daha da artırdı. Universitetin 50 illik yubiley tədbirində Ulu Öndər Heydər Əliyevin böyük cəsarət nümayiş etdirərək məhz ana dilimizdə çıxış etməsi bu gün də xalqımız tərəfindən ehtiram və minnətdarlıqla yad edilir. Ulu Öndər həmin tarixi hadisəni dəfələrlə yada salmışdı: "Xatirimdədir, Universitetin 50 illik yubileyində çıxış edərkən, şübhəsiz ki, öz ana dilimdə, Azərbaycan dilində danışdım. Bu, böyük bir sensasiya kimi qəbul olundu – nə cür olur ki, respublikanın rəhbəri Azərbaycan dilində çıxış edir... Bəziləri məni bu hadisə münasibətilə təbrik edirdilər, minnətdarlıqlarını bildirirdilər. Dilini sevən, milli ruhla yaşayan insanlar, doğrudan da, bunu böyük bir hadisə kimi qəbul etdilər".

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra BDU Ulu Öndər Heydər Əliyevin diqqət və qayğısı sayəsində inkişafının yeni və daha parlaq mərhələsinə qədəm qoydu. Ulu Öndər ənənələrə sadiqliyini bir daha nümayiş etdirərək Universitetin xeyirxahı və hamisi, eyni zamanda məzunu kimi qayğısını əsirgəmədi. Bu gün isə həmin tarixi missiyanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev davam etdirir. BDU möhtərəm Prezidentimiz və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın hərtərəfli qayğısı ilə tərəqqi və inkişaf yolunda inamla addımlayır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2019-cu ildə Universitetin 100 illik yubileyinin təntənəli şəkildə qeyd olunması, əməkdaşların ali dövlət mükafatları ilə təltif edilməsi BDU ailəsinin hər bir üzvü tərəfindən ehtiramla xatırlanır. Ölkə rəhbərinin yubiley mərasimindəki proqram xarakterli çıxışı Universitetin hər bir əməkdaşı üçün yol xəritəsidir.

BDU kollektivi bu gün doğma təhsil və elm ocağının yaradılmasının növbəti ildönümünü qeyd edir. Doğma universitetimizin 104 yaşı bu ali təhsil müəssisəsinin inkişafına və tərəqqisinə əvəzsiz töhfələr vermiş, BDU-nu Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı adlandıran, hər zaman məzunu olması ilə fəxr etdiyini ifadə edərək ona yüksək dəyər verən Ulu Öndərimiz Heydər Əliyevin 100 illik yubileyinə, ölkə başçısının 2022-ci il 29 sentyabr tarixli Sərəncamı ilə elan olunmuş "Heydər Əliyev İli"nə təsadüf edir.

*(Ardı 2-ci səhifədə)*

## BDU-da yeni tədris ili başlayıb

→Səh.6

# 104 yaşlı Bakı Dövlət Universiteti

(Əvvəli 1-ci səhifədə)

***2023-cü ilin Azərbaycan Respublikasında “Heydər Əliyev İli” elan olunması bütün xalqımız kimi çoxminli BDU kollektivində də xüsusi ovqat yaratmışdır. Azad Qarabağımızın simvolu Şuşaya həsr olunmuş ildən sonra zəfərlərimizin memarı Ulu Öndər Heydər Əliyevə həsr olunmuş ilin qeyd olunmasını hər birimiz sonsuz ehtiram və minnətdarlıq hissləri ilə qarşılayırıq.*** Dövlət başçısının Sərəncamında əksini tapan fikirlər ötən günlərimizə nəzər salmaq, dövlətimizin bugünkü inkişaf səviyyəsinə hansı çətinliklərdən keçərək gəlib çatdığımızı bir daha aydınlaşdırmaq və eyni zamanda Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə gələcək hədəflərimizə nail olmağımız üçün mükəmməl bir proqram, aydın bir yol xəritəsidir. Sərəncamda yer almış fikirlər tariximizin böyük bir epoxasının lakonik, eyni zamanda müdriklik və məntiqlə əksini tapmış inikasıdır: “Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur”.

Hər zaman Ulu Öndərin irsinin təbliğini, bu irsin gənc nəslə aşılanmasını özünün ali məqsədlərindən hesab edən BDU kollektivi “Heydər Əliyev İli”ndə bu istiqamətdə səylərini daha da artırmışdır. Bu məqsədlə BDU-nun Elmi Şurasında Tədbirlər Planı qəbul olunmuşdur. BDU-nun Elmi Şurasında və fakültələrində Ulu Öndərin 100 illik yubileyinin qeyd olunması ilə əlaqədar müzakirələr aparılmış, təkliflər dinlənilmişdir.

Tədbirlər Planında Ümummilli Lider, müstəqil Azərbaycan dövlətinin memarı, BDU-nun dünya şöhrətli məzunu Heydər Əliyevin həyatı və çoxşaxəli fəaliyyəti ilə bağlı elmi-tədqiqat işlərinin aparılması, beynəlxalq konfransların, seminarların keçirilməsi, kitabların hazırlanması, xüsusi mühazirələrin və dərslərin təşkili və s. kimi digər mühüm vəzifələr əksini tapmışdır. BDU ailəsinin hər bir üzvü, professor-müəllim heyəti, o cümlədən tələbələrimiz Tədbirlər Planında əks olunan vəzifələri həvəslə icra edir, bu tarixi ilin, tarixi günlərin, tarixi anların bir hissəsi olmaq üçün səylərini əsirgəmirlər.

BDU Elmi Şurasının Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş genişləndirilmiş xüsusi iclası keçirilmiş, iclasda xalqımızı ağır sınaqlardan siyasi müdriklik və məharətlə, əzm və iradə ilə, dühasının və idrakının yenilməz gücü ilə çıxarmış, dövlət müstəqilliyinə, tərəqqiyə və dayanıqlı inkişafa qovuşdurmuş Ulu Öndər Heydər Əliyev böyük sevgi və ehtiramla yad olunmuşdur. Ulu Öndərin irsinin beynəlxalq aləmdə təbliği istiqamətində ciddi addımlar atan BDU Yeni Azərbaycan Partiyası və Ankara Universiteti ilə birgə “Heydər Əliyev İli”ndə "Müstəqil Azərbaycanın memarı" adlı Beynəlxalq elmi konfrans keçirmişdir. Azərbaycan, Türkiyə və İsraildən olan tanınmış elm adamları, ictimai-siyasi xadimlərin iştirak etdiyi beynəlxalq konfransda Ulu Öndər Heydər Əliyevin zəngin həyat yolu və misilsiz fəaliyyətinin bütün mərhələlərinə həsr olunmuş 100-dən çox məruzə dinlənilmiş, elmi dövriyyəyə yeni fikirlər, maraqlı faktlar təqdim edilmişdir.

Ulu Öndərin irsinin bölgələrdə təbliğinə də xüsusi həssaslıqla yanaşılmış, Tərtər və Masallı rayonlarının icra hakimiyyətləri ilə birgə konfranslar keçirilmişdir. Konfranslar çərçivəsində həmçinin universitet alimləri rayon məktəblilərinə Ümummilli Lider Heydər Əliyevin irsi ilə bağlı mühazirələr oxumuş, şagirdləri müdrik rəhbərin zəngin həyat və fəaliyyətini dərindən öyrənməyə, onun əsasını qoyduğu dəyərləri qorumağa və inkişaf etdirməyə səsləmişlər. Eyni zamanda məktəblərə Ulu Öndərin zəngin irsinə həsr olunmuş kitablar hədiyyə edilmişdir.

“Heydər Əliyev İli” münasibətilə BDU-nun Heydər Əliyev Muzeyi və Heydər Əliyev Lektoriyası əsaslı təmir olunaraq ən müasir standartlarla yenidən qurulmuş, elektron lövhələr, məlumat daşıyıcıları ilə təchiz edilmişdir. Əməkdaş və tələbələr arasında Ulu Öndərin zəngin irsi, Azərbaycançılıq ideyasının təbliği, mühazirələrin, müzakirə və dəyirmi masaların təşkili məqsədi ilə ən son informasiya-kommunikasiya avadanlıqları quraşdırılmış, muzey zənginləşdirilmişdir.

“Heydər Əliyev mühazirələri” layihəsi çərçivəsində ölkənin nüfuzlu elm adamları, ictimai xadimlər tələbələrə mühazirələr oxumuşlar. “Ulu Öndər xatirələrdə” layihəsi çərçivəsində isə davamlı olaraq vaxtilə Ulu Öndərlə birlikdə çalışmış, onunla ünsiyyətdə olmuş insanlarla tələbələrin görüşləri təşkil olunur.




BDU əməkdaşları arasında “Ulu Öndər – müstəqil Azərbaycanın qurucusu” adlı məqalə müsabiqəsi, tələbələr arasında “Heydər Əliyev – BDU-nun dünya şöhrətli məzunu” mövzusunda esse müsabiqəsi, eləcə də əməkdaşlar və tələbələr arasında Ulu Öndərin 100 illik yubileyinə həsr olunmuş yarışlar, müsabiqələr təşkil edilmişdir. “Heydər Əliyev ili” çərçivəsində gerçəkləşdirilən layihələrdən bəhs edərkən Şamaxı rayonunun Göylər kənd 2 saylı tam orta məktəbində Sosial elmlər və Psixologiya fakültəsinin Psixologiya kafedrasının təşəbbüsü ilə BDU-nun Elmi Kitabxanasının filialının açılması da xüsusi qeyd olunmalıdır.

Tədbirlər Planına uyğun olaraq BDU-da “Heydər Əliyev İli”nə həsr olunmuş, ali məktəb tələbələri arasında Fizika, Riyaziyyat və Kimya fənləri üzrə Respublika Olimpiadaları, 8 idman növü üzrə spartakiada, mədəniyyət və incəsənət festivalları, silsilə mədəni-kütləvi tədbirlər, müsabiqələr və yarışlar keçirilmişdir.

Onu da vurğulamaq lazımdır ki, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar BDU-nun Elmi Şurasında qəbul edilmiş Tədbirlər Planında əksini tapan vəzifələrin icrası bu gün də davam edir.

104 il əvvəl 2 fakültə, 44 nəfər professor-müəllim heyəti və 1094 tələbə ilə fəaliyyətə başlayan Universitet hazırda isə 16 fakültə, 120 kafedra, 2 elmi-tədqiqat institutu, Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi, 4 elmi-tədqiqat mərkəzi və 21 elmi-tədqiqat laboratoriyası, 2 milyondan çox kitab fondu olan Elmi Kitabxana, 5 muzey, 5 beynəlxalq institut və mərkəz, 1 filial, 1 kollec və 1 liseylə müqəddəs yola davam edən Universitetin uğurları ötən tədris ilində də davam etmişdir. Bəhs olunan dövrdə Elm və Təhsil Nazirliyinin tabeliyində Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) tərəfindən Universitetin növbəti akkreditasiyası həyata keçirilmişdir. Ali təhsil müəssisəsinə güclü və zəif tərəflərini müəyyənləşdirməyə və strateji inkişaf proqramı əsasında inkişaf etməyə imkanlar yaradan, əsas məqsədi təhsilin müxtəlif pillələrində keyfiyyətin təminatı sisteminin qurulması hesab olunan akkreditasiya prosesi uğurla başa çatmış, Elm və Təhsil Nazirliyinin Akkreditasiya Şurasının 8 iyun 2023-cü il tarixli qərarı ilə BDU-nun 5 il müddətində akkreditasiya olunması ilə bağlı şəhadətnamə Universitetə təqdim edilmişdir.

BDU-nun 2021-2030-cu illər üçün Strateji İnkişaf Planında qarşıya qoyulmuş vəzifələr, prioritet istiqamətlər əsasında Universitetdə təhsilin inkişafı, elmi tədqiqatların keyfiyyətinin artırılması, idarəetmə sisteminin dinamikliyinin təmin edilməsi məqsədilə müntəzəm olaraq struktur islahatları aparılır, gənc kadrlar məsul vəzifələrə irəli çəkilir. Təhsilalanlar və akademik heyət arasında qarşılıqlı əlaqələr dərinləşdirilir, təhsildə keyfiyyət təminatını, müvafiq proseslərin stimullaşdırılmasını ehtiva edən müasir yanaşmalar tətbiq olunur. Yeni nəsil elm-təhsil proqramlarının sayının artırılması (yeni ixtisas və ixtisaslaşmaların yaradılması), təhsil proqramlarının müntəzəm olaraq yenilənməsi, ixtisaslı kadr hazırlığının keyfiyyətinin artırılması, Universitetin təhsil fəaliyyətinin milli və beynəlxalq meyarlara uyğunluğunun təmin edilməsi, əmək bazarında Universitet məzunlarının rəqabətqabiliyyətliliyinin artırılması, təhsilalanlarda yeni iqtisadi və idarəetmə düşüncə tərzinin formalaşdırılması və s. məqsədilə Universitetin keyfiyyət təminatı siyasəti yenilənmiş, Keyfiyyət Təminatı Mərkəzi yaradılmışdır.

Tədris prosesində informasiya sistemi və texnologiyalarının və Universitetin fəaliyyətində elektron idarəetmə sisteminin tətbiqi genişləndirilmişdir. Artıq bir neçə ildir tətbiq olunan “Blackboard” – tədrisin elektron idarə edilməsi sistemindən istifadə e-təhsilin təkmilləşdirilməsinə və təhsil xidmətlərinin keyfiyyətinin artırılmasına şərait yaratmışdır. “Blackboard EdTech” ekosisteminə daxil olan “bulud platforması” vasitəsilə tələbələrin və müəllimlərin elektron məlumat bazası yaradılmış, tədris prosesinin və təhsilin məzmununun elektron idarəedilməsi, elektron qiymətləndirmə və digər tədris proseslərinin elektronlaşdırılmış həllinə nail olunmuşdur. Eləcə də İnsan Resurslarını Vahid İdarəetmə Sistemi, Elektron Sənəd Dövriyyəsi informasiya idarəetmə sistemi uğurla tətbiq olunmuş, BDU Elmi Kitabxanasının fondunun rəqəmsallaşdırılması sürətləndirilmişdir.

Tədris resurslarının təkmilləşdirilməsi və genişləndirilməsi istiqamətində tədbirlər görülmüş, müasir təlim prosesini aparmaq üçün auditoriyalar zəruri avadanlıqlarla (proyektorlar, kompüterlər, ağıllı lövhələr və s.) təchiz olunmuş, elmi-tədqiqat və tədris laboratoriyalarının maddi-texniki bazası gücləndirilmiş, Universitetin ərazisində abadlıq-quruculuq işləri aparılmışdır. Hazırda BDU-nun 2 saylı tədris binasının əsaslı təmiri, Universitetin yeni qazanxanasının tikintisi işləri yekun mərhələsindədir. Əsaslı təmirdən sonra yeni tədris ilində istifadəyə veriləcək tədris binası tamamilə yenidən qurulur, tədris və elmi-tədqiqat fəaliyyətinin təkmilləşdirilməsi üçün müasir avadanlıqlarla geniş imkan yaradılır.

Aparılan islahatlar, müasir dərslik və dərs vəsaitləri ilə təminatın gücləndirilməsi, əmək bazarının tələbləri nəzərə alınaraq təhsilin bakalavriat və magistratura səviyyələrində bir sıra yeni ixtisas və ixtisaslaşmaların açılması, xarici ölkələrin nüfuzlu universitetləri ilə ikili diplom proqramlarının həyata keçirilməsi və s. tədrisin, elmi-tədqiqatların keyfiyyətinin yüksəldilməsinə, tələbələrin ictimai fəallığının artırılmasına, onların Azərbaycançılıq ideyasına, milli-mənəvi dəyərlərə bağlı, əsl vətəndaş kimi formalaşmasına xidmət edir.

Bunun nəticəsisdir ki, BDU tələbələri yüksək ixtisaslı mütəxəssislər kimi yetişməklə yanaşı, ölkə və beynəlxalq miqyaslı elm, təhsil və sosial layihələrdə, mədəni-kütləvi tədbirlərdə, incəsənət, idman müsabiqələrində uğurla çıxış edirlər.

Cari ildə BDU-nun komandaları İstanbulda keçirilən “TEKNOFEST-2023” Aerokosmik və Texnologiya Festivalında uğurlu nəticə göstərmiş, Universitetin 4 komandası 6 layihə ilə "TEKNOFEST-2023"ün finalına vəsiqə qazanmışdır.

*Hazırda Universitetdə ali təhsilin bütün səviyyələrində 25 minə yaxın tələbə təhsil alır. 3 mindən çox əməkdaş, o cümlədən 1500 nəfərə qədər professor-müəllim heyəti və elmi işçi çalışır. Onlardan 250-dən çoxu elmlər doktoru, professor, 1000 nəfərə yaxın əməkdaş isə fəlsəfə doktoru, dosentdir. Bu gün BDU-da 86 ixtisas, 264 ixtisaslaşma üzrə kadr hazırlığı həyata keçirilir*

Onlardan "BSU Creativity Workz" komandası "Driver's Eye (avtomobil qəzalarını əvvəlcədən müəyyənləşdirərək sürücünü xəbərdar edən elektron sistem)" layihəsi ilə festivalda "Ağıllı nəqliyyat" kateqoriyası üzrə 109 finalçı arasında I yerə, "Humantek" komandası isə "Ağıllı damla sulama sistemi (torpağın mineral tərkibi, rütubət səviyyəsi, havanın temperaturu və təzyiqi kimi məlumatların toplanaraq mərkəzi stansiyaya naqilsiz ötürülməsi üçün əkin sahələrinin müxtəlif yerlərində günəş enerjisi ilə qidalanan kiçik stansiyalar)" layihəsi ilə "Aqrar texnologiyalar" kateqoriyasında 73 finalçı arasında III yerə layiq görülüb. "TEKNOFEST-2023"-də yalnız BDU deyil, ümumilikdə ölkəmiz adına qazanılan bu möhtəşəm qələbə gənclərimizi yeni uğurlara və nailiyyətlərə sövq edir, onlarda elmi-tədqiqat fəaliyyəti üçün böyük stimul yaradır. Hal-hazırda "BSU Creativity Workz" komandası Ankara şəhərində təşkil olunan "TEKNOFEST-2023 - Girişim" yarışmasının finalında iştirak edir.

BDU tələbələri, eləcə də Universitetin nəzdindəki "Gənc istedadlar" liseyinin şagirdləri ötən il beynəlxalq arenada bilik və bacarıqlarını qürurla nümayiş etdirmiş, bir sıra olimpiadaların qalibi adını qazanmışlar. 2023-cü il iyulun 31-dən avqustun 6-dək Bolqarıstanda ali məktəb tələbələri arasında keçirilən Beynəlxalq Riyaziyyat Olimpiadasında Mexanika-riyaziyyat fakültəsinin tələbəsi Vüqar Quliyev xüsusi birinci mükafata layiq görülmüşdür. Həmçinin "Gənc istedadlar" liseyinin VII sinif şagirdi Sulduz Hacıyev 6-13 avqust tarixlərində IMEC Riyaziyyat Olimpiadasının (IMEC - International Mathematics Olympiad) qlobal turunda işirak edərək qızıl medal əldə etmişdir. Sinqapurda keçirilən "Singapore International Math Olympiad Challenge" (SIMOC) olimpiadasında isə liseyin V sinif şagirdi Fateh Kərimli məntiq üzrə qızıl, VIII sinif şagirdi Cabir Abbasov gümüş medala layiq görülüblər. Bütün bunlar BDU-nun beynəlxalq elm və təhsil məkanına inteqrasiyasını şərtləndirir və bu prosesi daha da sürətləndirir.

Universitetdə tələbələrin təhsili, elmi tədqiqatlara təşviq olunmaları və onların layihələrinin dəstəklənmələri üçün ən müxtəlif innovativ üsul və metodlar tətbiq olunur. Son dövrlər Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin fəaliyyətə başlaması, "Code Academy", "Dev Education" layihələri çərçivəsində tələbələrin ən müasir kompüterlərlə təchiz olunmuş auditoriyalarda proqramlaşdırma, sistem və şəbəkə inzibatçılığı üzrə bilik və bacarıqlarını artırmaları üçün şəraitin yaradılması onlarda elmə və təhsilə daha böyük maraq yaratmışdır. Eyni zamanda mütəmadi olaraq karyera sərgilərinin təşkili, əmək bazarının tələbləri nəzərə alınmaqla yeni ixtisas və ixtisaslaşmaların açılması da müsbət dinamika kimi izlənilməkdədir.

Hazırda Universitetdə ali təhsilin bütün səviyyələrində 25 minə yaxın tələbə təhsil alır. 3 mindən çox əməkdaş, o cümlədən 1500 nəfərə qədər professor-müəllim heyəti və elmi işçi çalışır. Onlardan 250-dən çoxu elmlər doktoru, professor, 1000 nəfərə yaxın əməkdaş isə fəlsəfə doktoru, dosentdir. Bu gün BDU-da 86 ixtisas, 264 ixtisaslaşma üzrə kadr hazırlığı həyata keçirilir.

BDU ölkəmizdə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq dünya elminin qabaqcıl elmi və təlim-tədris nailiyyətlərindən istifadə etməklə əmək bazarının tələblərinə uyğun mütəxəssislərin hazırlanması istiqamətində ABŞ, Almaniya, İsrail, İsveçrə, Qazaxıstan və s. kimi ölkələrin qabaqcıl universitet və institutları ilə (Yerusəlim İbrani Universiteti (HUJI), Holon Texnologiya İnstitutu (HIT), Lumiere Lyon 2 Universiteti, Biznes və Beynəlxalq Tədqiqatlar Universiteti (UBIS), Linkoln Universiteti, Satbayev adına Qazax Milli Tədqiqat Texniki Universiteti və s.) bakalavriat, magistratura, doktorantura pilləsi üzrə 11 beynəlxalq ikili diplom proqramlarını tətbiq edir. BDU beynəlxalq reytinqlərdə mövqeyini möhkəmləndirir. Ənənəvi olaraq QS, Scimago, WRWU, URAP kimi dünya universitetlərinin beynəlxalq reytinqində təmsil olunan Universitet ölkəmizdən yeganə ali məktəb olaraq nüfuzlu Times Higher Education beynəlxalq reytinqində təmsil olunur.

2023/2024-cü tədris ilində BDU-da bakalavriat və magistratura səviyyəsinə qəbul planı artırılmışdır. Bakalavriat səviyyəsi üzrə 3 yeni ixtisasa –"Statistika", "Meliorasiya mühəndisliyi", "Muzey, arxiv işi və abidələrin qorunması" ixtisaslarına qəbul aparılır. Həmçinin magistratura səviyyəsində "Tərcümə (ərəb dili üzrə)", "Davamlı inkişafda təbii ehtiyatların idarə edilməsi" və "Gömrük ekspertizası" ixtisaslaşmaları üzrə də bu tədris ilindən etibarən qəbul aparılmışdır.

BDU peşəkar kadrlar yetişdirməklə yanaşı, milli ruhlu vətəndaş yetişdirməyi də özünün ali məqsədi hesab edir. Bu məqsədlə davamlı olaraq tələbələr arasında iş aparılır, bir sıra sosial layihələr həyata keçirilir. Universitetdə fəaliyyət göstərən tələbə təşkilatları bu prosesin avanqardı kimi çıxış edir. BDU tələbələri ölkəmizdə uğurla həyata keçirilən gənclər siyasəti və könüllülük hərəkatına öz mühüm töhfələrini verirlər. Bunun ən bariz nümunəsi kimi Laçın-Xankəndi yolunda təşkil olunan ekoloji aksiyada tələbələrimizin fədakarlıqla iştirakı göstərilə bilər.

Son illər BDU məzunları müəllimlərin işə qəbulu (MİQ) imtahanlarında yüksək nəticələr göstərir, eyni zamanda tələbələrimiz beynəlxalq, regional və yerli olimpiadalarda, bilik yarışmalarında ön yerləri tuturlar. BDU-nun onlarca məzunu son illər yüksək nəticələr əldə edərək nüfuzlu xarici universitetlərə daxil olmuşlar. Cari ildə BDU-nun 4 məzunu üçüncü "Yüksəliş" müsabiqəsinin qalibi olmuşdur. 2023-cü il üzrə Gənclər üçün Prezident mükafatçılarından 2-si, "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" çərçivəsində 2023-cü ildə xaricdə təhsil almaq fürsəti qazanmış tələbələrdən 16-sı BDU-nun məzunudur.

Universitetdə elmi fəaliyyətin səmərəli təşkili prioritet hesab olunur. Elmi-tədqiqat işlərinin məzmununun yenilənməsi, alınan nəticələrin bilavasitə tətbiq sahələrinə yönəldilməsi sahəsində müsbət tendensiya formalaşmaqdadır. Son 3 il ərzində BDU-da Sənaye kimyası, Rəqəmsal araşdırmalar, Hüceyrə kulturası və genom redaktəsi, Mikrobiologiya və virusologiya, Biomühəndislik, Kompleks geoloji və geofiziki tədqiqatlar kimi yeni sənaye yönümlü elmi-tədqiqat laboratoriyaları yaradılmış və yenidən qurulmuş, qeyd olunan istiqamətlərdə bir sıra kommersiya əsaslı layihə müqavilələri imzalanmışdır.

Universitet alimləri tərəfindən nüfuzlu elmi nəşrlərdə çap edilən məqalələrin sayı bu il yüksələn dinamika ilə inkişaf etmişdir. "Clarivate Analytics" Beynəlxalq İnformasiya Agentliyinin rəsmi məlumatına əsasən, BDU-nun H-indeksi artaraq hazırda 57-yə yüksəlmişdir. Müqayisə üçün qeyd edək ki, bu göstərici 2018-ci ildə 35-ə, ötən il 52-yə bərabər olmuşdur. Hər bir əsərə edilən istinadların orta sayı isə 2022-ci ildəki 6.06 göstəricisindən 7.06-ya qədər yüksəlmişdir. Agentliyin rəsmi məlumatına əsasən, BDU-nun əməkdaşları, doktorant və tələbələri tərəfindən "Web of Science" bazasına daxil olan dərgilərdə artıq 4123 elmi əsər nəşr edilib. Ötən il isə bu göstərici 3598 elmi əsər təşkil edirdi. Bu əsərlərə ümumilikdə 29000-dən çox istinad edilib ki, bu göstərici də ötən il 22000-nə yaxın idi. 2023-ci ilin ilk səkkiz ayı ərzində "Web of Science" bazasına daxil olan dərgilərdə BDU tərəfindən nəşr edilmiş 143 elmi əsərin 31-i Q1, 45-i Q2, 33-ü Q3 və 34-ü Q4 kvartil kateqoriyalı jurnallarda dərc olunub. Cari ilin ilk səkkiz ayı ərzində bazaya daxil olan jurnallarda dərc olunmuş elmi əsərlərə 3700-dən çox istinad edilib. Dərc olunmuş məqalələrdən 4-ü icmal tipli, 17-si ilkin və 59-u açıq girişə malikdir. Onu da vurğulamaq lazımdır ki, H-indeksi, "Web of Science" bazasına daxil olan dərgilərdəki elmi əsərlərin və istinadların sayına görə BDU Azərbaycan universitetləri arasında liderdir.

BDU-da əməkdaşların elmi fəaliyyətə təşviqi üçün davamlı olaraq məqsədyönlü tədbirlər həyata keçirilir, nüfuzlu elmi jurnallarda dərc edilən məqalələrin müəllifləri mükafatlandırılır. 27 Mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş "İlin alimi" nominasiyası üzrə ənəvi müsabiqələr təşkil olunur, qaliblər mükafatlandırılır.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də ölkəmizin sosial-iqtisadi inkişafına dair milli prioritetlərdən biri də "Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı"nın formalaşdırılmasıdır. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda qeyd olunduğu kimi, 2026-cı ilə qədər Azərbaycanda elmin inkişafı və dünya səviyyəsində mövqeyinin yüksəlməsi üçün "Tədqiqat Universitet"lərinin yaradılması nəzərdə tutulmuşdur. Ölkəmizin ən böyük elm və təhsil müəssisəsi kimi, BDU-da bu məqsədlə yaradılmış yeni təhsil-tədqiqat-sənaye yönümlü akselerasiya və araşdırmalar mərkəzi – Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzində (Centre of Excellence) fəaliyyət göstərən və digər müasir tipli elmi-tədqiqat laboratoriyalarında dünya elminin müasir meyillərinə uyğun rəqabətədavamlı innovativ elmi-tədqiqatların aparılması, müxtəlif elm sahələri arasında multidissiplinarlığın təmin edilməsi, elmi-təhsil-istehsalat inteqrasiyasını genişləndirməklə elmi nəticələrin sənayedə tətbiqi və kommersiyalaşdırılması, magistrant və doktorantların birbaşa olaraq elmi-tədqiqat laboratoriyalarında yetişdirilməsi üçün ən müasir elmi cihaz, avadanlıq və materiallar, müxtəlif tipli proqramlarla təchiz olunmuş kompüter sistemləri və İT avadanlıqları alınır. Onu da qeyd edək ki, Mərkəzdə və Universitetin elmi-tədqiqat laboratoriyalarında yalnız BDU-nun əməkdaşları, tələbələri, magistrantları və doktorantları deyil, həmçinin əməkdaşlıq çərçivəsində ölkəmizin elmi-tədqiqat institutları, ali təhsil müəssisələrinin və digər müvafiq qurumların əməkdaşları da elmi-tədqiqatlarda iştirak və bütün cihaz və avadanlıqlardan istifadə edə biləcəklər. Ən müasir tələblərə uyğun səviyyədə yaradılacaq elmi-tədqiqat mühiti beynəlxalq əməkdaşlığı daha da inkişaf etdirəcək və müxtəlif layihə və proqramlar çərçivəsində birgə rəqabətədavamlı elmi araşdırmaların aparılmasına imkan verəcəkdir.

Ötən tədris ilində Universitetin beynəlxalq əlaqələri də son illərin uğurlu təcrübəsinə və inkişaf dinamikasına uyğun artmışdır. Bəhs olunan dövrdə BDU ilə Türkiyənin Bilkent, Hacettepe, Eskişehir Texniki, Çukurova, Karabük, Üsküdar universitetləri, İsrailin Yerusəlim İbrani Universiteti, Ruminiyanın Alexandru İoan Cuza İasi Universiteti, Özbəkistanın Nizami adına Daşkənd Dövlət Pedaqoji Universiteti, Dövlət İncəsənət və Mədəniyyət İnstitutu, Buxara Mühəndislik-Texnologiya İnstitutu, Qazaxıstanın Avrasiya Milli Universiteti və s. çoxsaylı nüfuzlu universitetlər arasında "Erasmus" mübadilə protokolları, əməkdaşlıq sazişləri, bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə ikili diplom proqramına dair müqavilələr imzalanmışdır. Həmçinin İsrailin Holon Texnologiya İnstitutu (HİT), İsveçrənin Biznes və Beynəlxalq Tədqiqatlar Universiteti (UBIS) və Qazaxıstanın Əl-Fərabi adına Qazax Milli Universiteti ilə ikili diplom proqramının ilk məzunlarının buraxılışı keçirilmişdir.

BDU-nun həmtəşkilatçılığı ilə beynəlxalq elmi tədbirlər, o cümlədən Bakı şəhərində BMT-nin Kosmos Məsələləri üzrə Ofisi (UNOOSA) ilə "Beynəlxalq Kosmik Hava Təşəbbüsü: Günəş, Kosmik Hava və Geosfer" üzrə BMT/Azərbaycan yüksək işçi seminarı ("United Nations/Azerbaijan Workshop on the International Space Weather Initiative: The Sun, Space Weather and Geosphere"), Volkswagen Fondu ilə "Kvant elminin və texnologiyasının müasir meylləri: kvant materiallarından kvant informasiyasına qədər" mövzusunda Beynəlxalq Yay Məktəbi, Türkiyənin İstanbul şəhərində İslam Dünyası, Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) ilə "Peyk Modeli Təlimi və Aerokosmos Simpoziumu" (Model Satellite (CanSat) Training Workshop & Aerospace Symposium), Özbəkistanın Andijan Dövlət Universiteti və Türkiyənin Ege Universitetləri ilə birgə "Avrasiyanın biomüxtəlifliyinin mühafizəsi: müasir problemlər, həllər və perspektivlər" mövzusunda I Beynəlxalq konfrans, akademik Rəfiqə Əliyevanın anadan olmasının 90 illiyinə həsr olunmuş "Nəzəri və təcrübi kimyanın müasir problemləri" mövzusunda və s. beynəlxalq elmi konfranslar, Mir Cəlal Paşayevin 115 illik yubileyinə həsr olunmuş, Bakı, Gəncə və Qazax şəhərlərində təşkil olunan respublika elmi konfransı və digər nüfuzlu beynəlxlaq elmi tədbirlər, müxtəlif elmi seminarlar, ustad dərsləri keçirilmişdir.

*(Ardı 4-cü səhifə)*

*(Əvvəli 3-cü səhifə)*

Bildiyimiz kimi, kosmik sənaye və peyk xidmətləri sahəsində əldə edilmiş təcrübənin, yeni insan kapitalı və etibarlı tərəfdaş imicinin təzahürü olaraq, Azərbaycan 2023-cü ildə Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi etmək hüququ qazanmışdır. 2-6 oktyabr tarixlərində Bakı şəhərində keçiriləcək dünya miqyasında ən mötəbər tədbirlərdən olan 74-cü Beynəlxalq Astronavtika Konqresinin (IAC-2023) ikinci dəfə Azərbaycanda keçirilməsi ölkəmizdə kosmik sənayenin inkişafına, ölkəmizin qlobal kosmos sənayesinə daha yaxından inteqrasiyasına əvəzolunmaz imkanlar yaradacaqdır. Azərbaycanda Astrofizika ixtisası üzrə kadr hazırlığı ilə məşğul olan yeganə kafedranın fəaliyyət göstərdiyi və ali təhsil müəssisəsi olaraq Beynəlxalq Astronavtika Federasiyasının yeganə üzvü olan BDU-nun bu mötəbər tədbirə qatılması, yaradılan imkanlardan faydalanması əməkdaşlıq əlaqələrinin daha da inkişaf etməsinə mühüm töhfə verəcəkdir.

Heydər Əliyev Mərkəzi və Bakı Konqres Mərkəzinin ərazisində inşa ediləcək sərgi pavilyonunda beynəlxalq kosmik şirkət və təşkilatlarla yanaşı BDU-nun da stendinin nümayiş olunması nəzərdə tutulmuşdur. BDU üçün sərgidə iştirak, astrofizika və kosmos elmləri və texnologiyası sahələrində fəaliyyətin təşviqi, beynəlxalq əlaqələrin yaradılması, xüsusən də Beynəlxalq Astronavtika Federasiyası ilə əməkdaşlığın genişləndirilməsi, 75-dən çox ölkədən 6000 yüksək ixtisaslı mütəxəssisin, o cümlədən 2500-dən artıq gəncin BDU ilə bağlı məlumatlılıq səviyyəsinin artırılması baxımından əhəmiyyətlidir. Bundan başqa BDU-nun alim və tələbələri təşkil olunacaq elmi sessiyalarda müvafiq mövzularda məruzələrlə çıxış edəcəklər.

Nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığı özünün proritetlərindən hesab edən BDU 2022-ci ildə Avropa Universitetlər Assosiasiyasının (EUA) və İslam Dünyasının Universitetləri Federasiyasının (FUIW), 2023-cü ildə isə Beynəlxalq Astronavtika Federasiyasının (IAF) üzvü seçilmişdir. Universitetdə ICESCO-nun Biotibbi materiallar kafedrasının fəaliyyətə başlaması bu baxımdan xüsusi qeyd edilməlidir. Onu da vurğulamaq lazımdır ki, kafedra ICESCO-nun Azərbaycanda ilk ixtisaslaşdırılmış kafedrasıdır. ICESCO ilə elm və təhsil sahəsində sıx əməkdaşlıq sayəsində artıq ikinci kafedra – Süni intellekt etikası kafedrası yaradılır.

BDU-da beynəlxalq əlaqələrlə yanaşı, ölkədaxili əməkdaşlığa da xüsusi önəm verilir. Bu əməkdaşlıqlar bilavasitə tədris prosesinin, elmi-tədqiqat fəaliyyətinin səmərəli təşkili, eləcə də məzunların işlə təmin olunmasına xüsusi töhfə verir. Yalnız son ildə BDU Elm və Təhsil Nazirliyinin Fizika, Molekulyar Biologiya və Biotexnologiyalar, Riyaziyyat və Mexanika, akademik M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya və Radiasiya Problemləri institutları, Müdafiə Sənayesi Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti, Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi, "LU-MUN HOLDING", "SARA INVEST HOLDING" və s. təşkilatlarla imzalanan memorandum və müqavilələr qarşılıqlı informasiya mübadiləsini, birgə tədqiqatların aparılmasını, analitik-informasiya materiallarının hazırlanmasını, konfransların, seminarların və təlimlərin təşkili üzrə tədbirlərin birgə həyata keçirilməsini və digər əməkdaşlıq istiqamətlərini əhatə edir.

Ulu Öndərimiz Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qazandığımız tarixi Zəfər, inamlı qələbəmizdən ötən 3 il ərzində diplomatiya cəbhəsində əldə etdiyimiz misilsiz uğurlar bütün xalqımız kimi BDU ailəsinin hər bir üzvünü də yüksək ovqatla çalışmağa sövq edir. Artıq üçüncü ildir ki, doğma universitetimizin yaradılmasının növbəti ildönümünü torpaqlarımızın azadlığı, ərazi bütövlüyümüzün təmin olunması şəraitində qeyd edirik. 2023-cü ilin aprel ayının 22-də tarixi qələbələrimizin davamı kimi Laçın sərhəd-keçid məntəqəsinin qurulması, avqust ayının 26-da möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Laçında təntənəli bayram tədbirlərinin keçirilməsi bütün xalqımız kimi BDU-nun çoxminli kollektivini və tələbələrini daha yüksək zirvələrə və nailiyyətlərə ruhlandırır.

104 yaşlı BDU zəngin ənənələrini inkişaf etdirərək, beynəlxalq təcrübədən, dünya elminin nailiyyətlərindən faydalanaraq, Azərbaycan xalqına və beynəlxalq ictimaiyyətə elmi əsaslara, milli və mədəni dəyərlərə söykənən və müasir dövrün tələblərinə cavab verən kadrlar hazırlamaq missiyasını uğurla davam etdirir.

***Elçin BABAYEV***
*Bakı Dövlət Universitetinin rektoru*

# Türkiyənin Karamanoğlu Mehmetbey Universitetinin rektoru BDU-da



***Sentyabrın 6-da BDU-nun rektoru Elçin Babayev Türkiyə Respublikasının Karamanoğlu Mehmetbey Universiteinin rektoru Mehmet Gavgalı ilə görüşüb.***

Rektor Elçin Babayev qonağa BDU-nun tarixi, strukturu, burada tədris və elm fəaliyyəti ilə bağlı məlumat verib. Qeyd edib ki, 25 minə yaxın tələbəsi olan BDU-nun 16 fakültəsi, bir kolleci, bir liseyi, Qazax filialı fəaliyyət göstərir. Təhsil-elm-tədqiqat-innovasiya mərkəzlərindən biri olan BDU-da elmin bütün sahələri üzrə kadr hazırlığı həyata keçirilir.

Rektor son illər BDU-nun beynəlxalq əlaqələrinin daha da genişləndiyini, dünyanın müxtəlif ölkələri ilə ikili diplom proqramları və əməkdaşlıq müqavilələrinin imzalandığını qeyd edib. Vurğulayıb ki, qardaş Türkiyə universitetləri ilə əməkdaşlığın genişləndirilməsi BDU üçün prioritet təşkil edir.

Karamanoğlu Mehmetbey Universiteinin rektoru Mehmet Gavgalı rəhbərlik etdiyi ali təhsil müəssisəsi barədə məlumat verib. O bildirib ki, 16 ildir fəaliyyət göstərən universitetin 11 fakültəsi, 22 min tələbəsi, 1300 pedaqoji işçisi var. Mehmet Gavgalı BDU ilə müxtəlif sahələrdə əməkdaşlıq imkanlarının olduğunu vurğulayıb.

Görüşdə iki universitet arasında əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

# Türk Dünyası Jurnalistlər Federasiyasının rəhbəri ilə görüş



***Sentyabrın 13-də BDU-nun rektoru Elçin Babayev Türk Dünyası Jurnalistlər Federasiyasının rəhbəri Menderes Dəmirlə görüşüb.***

Rektor Elçin Babayev qonağa son illər BDU-da həyata keçirilən yeniliklər, elm və tədris sahəsində uğurlar, türkdilli dövlətlərlə əlaqələr barədə ətraflı məlumat verib. O qeyd edib ki, BDU digər türkdilli dövlətlərin aparıcı universitetləri ilə yanaşı, qardaş Türkiyənin 20-dən artıq universiteti ilə əməkdaşlıq edir. Rektor qonağı BDU-da jurnalistika təhsili sahəsindəki yeniliklərlə də tanış edib.

Türk Dünyası Jurnalistlər Federasiyasının rəhbəri Menderes Dəmir rəhbərlik etdiyi qurumun indiyədək reallaşdırdığı tədbirlərdən söz açıb. O, bu ilin oktyabrında Türkiyə Cümhuriyyətinin və Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileylərinə həsr olunmuş Türk Dünyası Sənədli Filmlər Festivalının Azərbaycanda təşkilinin planlaşdırıldığını diqqətə çatdırıb. Rəhbərlik etdiyi qurumun Türk Dünyası Ünsiyyət və Sənət Simpoziumu, Türk Dünyası Universitetləri Qısa Film Festivalı kimi tədbirlər keçirəcəyini də qeyd edən Menderes Dəmir BDU-nun Azərbaycanın ən böyük və qədim universiteti kimi bu tədbirlərin reallaşmasında aparıcı rola malik olduğunu bildirib.

Görüşdə BDU ilə Türk Dünyası Jurnalistlər Federasiyası arasında əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

# BDU yeni "Erasmus+" layihəsinin tərəfdaşıdır

***Avropa İttifaqının "Erasmus+KA2" proqramının "Azərbaycanda institusional repozitoriyalar şəbəkəsi vasitəsilə tədqiqat potensialının inkişafı" adlı layihəsi çərçivəsində BDU ilə Xəzər Universiteti arasında tərəfdaşlıq müqaviləsi imzalanıb.***

Xəzər Universitetinin koordinatoru olduğu layihənin məqsədi digər tərəfdaş ölkələrin – Türkiyə, İtaliya və Finlandiyanın təcrübəsi əsasında Azərbaycanın 8 ali təhsil müəssisəsində hamıya əlçatan institusional repozitoriyalar (elektron arxivlər) şəbəkəsinin yaradılması və tədqiqat nəticələrinin idarə edilməsində universitetlərin tədqiqat potensialının artırılmasıdır. Elektron arxivin yaradılması universitet tədqiqatçılarının nəşr etdirdiyi məqalə, kitab və digər elmi nəşrlərin qorunub saxlanmasına, həmçinin bu materialların beynəlxalq aləmə çıxarılmasına zəmin yaradır. DIRNA yalnız keyfiyyətli elmi tədqiqatın üzə çıxması və idarə olunmasını təkmilləşdirmir, həm də tədqiqat nəticələrinə açıq çıxışı dəstəkləyir, ölkə daxilində ali təhsil müəssisələri arasında elmi əlaqə və koordinasiyanı saxlayır və təşviq edir.

Layihənin Avropadan tərəfdaş universitetləri Jyvaskyla Universiteti (Finlandiya), İzmir Yüksək Texnologiya İnstitutu (Türkiyə), Universita degli Studi dell'Aquila (İtaliya), Azərbaycandan olan tərəfdaşları isə Xəzər Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Dövlət Gömrük Komitəsinin Akademiyası, Gəncə Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, Mingəçevir Dövlət Universitetidir.

Layihə BDU-nun Elmi Kitabxanasında 3 il ərzində icra olunacaq.

# Son bir ayda BDU-nun Hirş indeksi 57-dən 58-ə yüksəlib

***İnterdissiplinarlılıq və multidissiplinarlılıq, fundamental və tətbiqi tədqiqatların nəticələrinin əlaqələndirilməsi, elm-təhsil-istehsalat inteqrasiyasının genişləndirilməsi, tədqiqat nəticələrinin tədris prosesinə daxil edilməsi, istehsalatda tətbiq edilməsi, təhsilalanların elmi-tədqiqat və innovasiya fəaliyyətinə intensiv olaraq cəlb edilməsi, ölkədaxili və xarici tərəfdaşlarla effektiv əməkdaşlıq Bakı Dövlət Universitetində (BDU) elmi-tədqiqat fəaliyyətinin təşkilinin əsas prinsipləridir.***

Professor-müəllim heyətinin nəşr fəaliyyətinin göstəricilərinin yüksəldilməsi, xarici dillərdə nəşrlərin sayının və keyfiyyətinin artırılması, gənc tədqiqatçılara dünyanın aparıcı ölkələrinin elmi müəssisələrində elmi araşdırmalar aparmaq üçün imkanların yaradılması, beynəlxalq elmi əlaqələrin genişləndirilməsi, nüfuzlu xarici elmi mərkəzlərlə ortaq elmi-tədqiqat proqramlarının işlənilməsi, birgə tədqiqat laboratoriyalarının təşkili, beynəlxalq elmi layihələrdə BDU alimlərinin iştirakının təmin edilməsi fəaliyyətin əsas istiqamətləridir.

Akademik heyət, habelə tələbə, magistrant və doktorantların inkişafına təkan verən elm-təhsil ekosistemi, beynəlxalq standartlara cavab verən və rəqabətədavamlı tədqiqatlar, Respublikanın və xarici ölkələrin yüksək reytinqli ali məktəb və tədqiqat mərkəzləri, o cümlədən beynəlxalq elmi təşkilatlarla elm və innovasiyalar sahəsində mövcud olan sıx əlaqələr və intensiv təcrübə mübadiləsi BDU-da aparılan elmi tədqiqatların keyfiyyətinin yüksəlməsinə xidmət edir.

Belə ki, "Clarivate Analytics" Beynəlxalq İnformasiya Agentliyinin rəsmi məlumatına əsasən, son bir ayda BDU-nun Hirş indeksi artaraq 58 olub. Hər bir əsərə istinadların orta sayı isə 7.1-ə qədər yüksəlib.

Agentliyin rəsmi məlumatına əsasən, BDU-nun əməkdaşları, doktorant və tələbələri tərəfindən "Web of Science" bazasına daxil olan dərgilərdə artıq 4130 elmi əsər nəşr edilib. Bu əsərlərə 29000-ə yaxın istinad edilib.

2023-ci ilin ilk doqquz ayı ərzində "Web of Science" bazasına daxil olan dərgilərdə BDU tərəfindən nəşr edilmiş 150 elmi əsərin 52%-i (78 elmi əsər) Q1 və Q2, 48%-i (72 elmi əsər) Q3 və Q4 kvartil kateqoriyalı jurnallarda dərc olunub. Cari ilin ilk səkkiz ayı ərzində bazaya daxil olan jurnallarda dərc olunmuş elmi əsərlərə 3900-dən çox istinad edilib.

Onu da qeyd edək ki, Hirş indeksi, "Web of Science" bazasına daxil olan dərgilərdəki elmi əsərlərin və istinadların sayı ilə BDU Azərbaycan universitetləri arasında liderliyini qoruyur.

# 2023/2024-cü tədris ilində Hökumətlərarası Təqaüd Proqramları ilə 8 nəfər BDU-da təhsil alacaq

***2023/2024-cü tədris ili üzrə 29 nəfər Hökumətlərarası Təqaüd Proqramları (HTP) çərçivəsində Azərbaycanın ali təhsil müəssisələrində təhsil hüququ qazanıb. Onlardan 8 nəfəri Bakı Dövlət Universitetində təhsil alacaq.***

Belə ki, 5 nəfər Çin Xalq Respublikası, 2 nəfər Qazaxıstan Respublikası, 1 nəfər Tacikistan Respublikası vətəndaşı BDU-da təhsil imkanı əldə edib.

# BDU rektoru Özbəkistanda beynəlxalq elmi konfransda plenar məruzə ilə çıxış edib



***Sentyabrın 26-da BDU-nun rektoru Elçin Babayev Özbəkistanın Şərəf Rəşidov adına Səmərqənd Dövlət Universitetinin təşkilatçılığı ilə məşhur özbək astronomu Əli Quşçunun anadan olmasının 620 və Özbəkistan Elmlər Akademiyasının 80 illik yubileylərinə həsr olunmuş "Əli Quşçu – Uluqbəy elmi məktəbinin görkəmli səfiri" adlı beynəlxalq elmi konfransda "Nəsirəddin Tusi, Mirzə Uluqbəy və Əli Quşçu: böyük türk astronomları və onların nüfuzlu elmi məktəbləri" mövzusunda plenar məruzə ilə çıxış edib.*** Konfransda ABŞ, Azərbaycan, Türkiyə, Çin, Rusiya, Hindistan, Cənubi Koreyadan 30-dan artıq nüfuzlu alim və mütəxəssis təmsil olunub.

Nəsirəddin Tusi, Mirzə Uluqbəy və Əli Quşçunun dünyada tanınmış elmi məktəblərinin uğurları haqqında müqayisəli təhlil aparan rektor Elçin Babayev qeyd edib ki, eyni soya, ortaq tarixə və mədəniyyətə, milli adət-ənənələrə malik olan Azərbaycan və özbək xalqları arasındakı dostluq və qardaşlığın kökləri tarixin dərin qatlarına gedib çıxır. Müstəqillik illərində iki qardaş ölkə arasında əlaqələrin inkişafında, dövlətlərarası münasibətlərin formalaşmasında Ulu Öndər Heydər Əliyevin və Özbəkistanın sabiq Prezidenti İslam Kərimovun müstəsna xidmətləri olub. Bu gün Azərbaycan-Özbəkistan münasibətləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti cənab Şavkat Mirziyoyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Qürurvericidir ki, həmişə Azərbaycanın haqq savaşını dəstəkləyən Özbəkistan artıq azad Qarabağdakı quruculuq işlərinə qoşulub. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılışı ölkələrimiz arasında həmrəyliyin, dostluğun, qardaşlığın növbəti addımı kimi qiymətləndirilir.

Rektor Elçin Babayev BDU ilə Özbəkistan universitetləri arasında əlaqələrin də son illər daha da inkişaf etdiyini, artıq qardaş ölkənin 8 universiteti ilə ikitərəfli müqavilələrin imzalandığını xatırladıb.

BDU rektoru Səmərqənd Dövlət Universitetinin Mühəndis Fizikası İnstitutunda Səmərqənd Kvant Mərkəzinin açılışına həsr olunmuş "Kvant nano-bio texnologiyaları" elmi simpoziumunda da iştirak edib. Həmçinin konfrans çərçivəsində Çinin Şimal-Qərb Normal Universitetinin yüksək səviyyəli nümayəndə heyəti, Özbəkistan Elmlər Akademiyasının Mirzə Uluqbəy adına Astronomiya İnstitutunun direktoru, akademik Şuxrat Ehqamberdiyev, BDU-nun 1970-ci il məzunu, Səmərqənd Dövlət Universitetinin Nəzəri fizika və kvant elektronikası kafedrasının professoru Rustam İbadovla müzakirələr aparıb.

# BDU və Yaponiyanın Kanaqava Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb

***Sentyabrın 15-də BDU və Yaponiyanın Kanaqava Universiteti (Kanagawa University) arasında əməkdaşlıq memorandumu imzalanıb.***

Memorandumu BDU-nun rektoru Elçin Babayev və Kanaqava Universitetinin prezidenti Makoto Oguma imzalayıb.

Əməkdaşlıq memorandumunun məqsədi birgə tədqiqat və akademik görüşlərin keçirilməsini, bakalavr, magistr, tədqiqatçı və akademik heyətin, elmi məqalə və məlumatların mübadiləsini, gələcəkdə ikitərəfli münasibətlərin genişləndirilməsini təmin etməkdir.

Əsası 1928-ci ildə qoyulan Yokohama Akademiyası 1949-cu ildən Kanaqava Universiteti kimi fəaliyyət göstərir. Universitetin mərkəzi kampusu Yaponiyanın Yokohama şəhərində yerləşir. Kanaqava Universiteti QS Asiya universitetləri reytinq cədvəlində 2023-ci ildə 601-650-ci, "Times Higher Education" dünya universitetləri reytinq cədvəlində isə 1501+ yerdədir. Universitetdə 20 minə yaxın tələbə, o cümlədən 600-dən çox əcnəbi tələbə təhsil alır.

# BDU və Səmərqənd Dövlət Universiteti arasında əməkdaşlıq əlaqələri müzakirə olunub

***Sentyabrın 26-da Özbəkistanda səfərdə olan BDU-nun rektoru Elçin Babayev Səmərqənd Dövlət Universitetinin rektoru, Özbəkistan Respublikası Ali Məclisinin Senatının üzvü, professor Rustam Xalmuradovla görüşüb.***

BDU-nun rektoru Elçin Babayev bildirib ki, türkdilli ölkələr arasında münasibətlərin daha da inkişafında, xalqların yaxınlaşmasında elm-təhsil müəssisələri xüsusi rola malikdir. Elçin Babayev Azərbaycan və Özbəkistan arasında münasibətlərin yüksələn xətlə inkişaf etdiyini qeyd edib. O, BDU və Özbəkistanın ali məktəbləri arasında uğurlu əməkdaşlığın iki ölkə arasında əlaqələrin inkişafına töhfə olduğunu bildirib.

Səmərqənd Dövlət Universitetinin rektoru Rustam Xalmuradov da elm və təhsil sahəsində ortaq layihələrin hər iki universitetin inkişafına fayda verəcəyinə əminliyini bildirib.

Görüşdə iki universitet arasında təhsil və elm sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi müzakirə olunub.

# BDU Azərbaycanda "Times Higher Education" reytinq siyahısında yer alan yeganə ali təhsil müəssisəsidir

***"Times Higher Education" (THE) 2024-cü il üçün dünya universitetlərinin reytinq siyahısını açıqlayıb. 2023-cü ildə də BDU Azərbaycanda "Times Higher Education" reytinq siyahısında yer alan yeganə ali təhsil müəssisəsi oldu.***

Məlumat üçün bildirək ki, BDU həm də Azərbaycanda "Times Higher Education Subject Ranking" siyahısında yer alan yeganə universitetdir.

Belə ki, BDU Fiziki elmlər və Mühəndislik elmləri üzrə 1001+ mövqelərini tutub.

Nüfuzlu "Times Higher Education" təşkilatının əsas fəaliyyət istiqamətlərindən biri dünyanın ali təhsil müəssisələrinin reytinqini tərtib etmək, universitetlərin reytinqinin yüksəlməsi üçün tövsiyələr verməkdir. THE dünya universitetləri reytinqi universitetlərin tədris, elmi-tədqiqat, istinad indeksi, beynəlxalq reputasiyası, sənaye gəlirləri və digər meyarları nəzərə alınmaqla həyata keçirilir.

# BDU-da yeni tədris ili başlayıb

***Bakı Dövlət Universitetində 2023/2024-cü tədris ili başlayıb.***

BDU-da ilk dərslər Azərbaycan xalqının Ümummilli Lideri, Universitetimizin dünya şöhrətli məzunu Heydər Əliyevə həsr olunub.

2023/2024-cü tədris ilində BDU-da 86 ixtisas, 264 ixtisaslaşma üzrə kadr hazırlığı həyata keçirilir.

Hazırda BDU-da bakalavriat səviyyəsi üzrə 21610 tələbə təhsil alır. Onlardan 7281-i kişi, 14329-u qadındır. Tələbələrdən 12100-ü humanitar, 9510-u təbiət elmləri üzrə ixtisaslarda təhsil alır. BDU-nun bakalavriaturasında təhsil alan tələbələrin 15093-ü dövlət sifarişi əsasında, 6516 nəfəri ödənişli əsaslarla oxuyur.

Yeni tədris ilində BDU-nun bakalavriat səviyyəsinə 5409 nəfər qəbul olunub. Onlardan 3843 nəfər dövlət sifarişli, 1566 nəfər ödənişli əsaslarla təhsil alacaq. Qəbul olananların 267 nəfəri 600-dən, 839 nəfəri 500-dən yuxarı bal toplayıb.

2023/2024-cü tədris ilində BDU-nun magistraturasında 2146 tələbə təhsil alır. Onlardan 687-sı kişi, 1459-u qadındır. BDU-nun magistrantlarının 1459 nəfəri dövlət sifarişi əsasında, 687 nəfəri ödənişli əsaslarla təhsil alır.

2023/2024-cü tədris ili üzrə BDU-nun bakalavriat və magistratura səviyyələrində, həmçinin SABAH qruplarında yeni ixtisaslar açılıb.

Bakalavriat səviyyəsi üzrə “Statistika” ixtisası Beynəlxalq münasibətlər və iqtisadiyyat, “Meliorasiya mühəndisliyi” ixtisası Geologiya, “Muzey, arxiv işi və abidələrin qorunması” ixtisası isə İnformasiya və sənəd menecmenti fakültələrində tədris olunacaq.

Magistratura səviyyəsi üzrə “Tərcümə (ərəb dili üzrə)” ixtisaslaşması Şərqşünaslıq, “Davamlı inkişafda təbii ehtiyatların idarə edilməsi” ixtisaslaşması Coğrafiya, “Gömrük ekspertizası” ixtisaslaşması isə Kimya fakültələrində tədris ediləcək.

BDU-nun SABAH qruplarında isə bakalavriat səviyyəsində mövcud 9 ixtisasdan əlavə 3 yeni ixtisas (“Azərbaycan dili və ədəbiyyatı müəllimliyi”, “Biotexnologiya”, “Torpaqşünaslıq və aqrokimya”) əlavə edilib.

SABAH qruplarında magistratura səviyyəsi üzrə 2023/2024-cü tədris ilindən 6 yeni ixtisaslaşmaya (“Ehtimal nəzəriyyəsi və statistika”, “Əməliyyatlar tədqiqi və sistemli təhlil”, “Optimallaşdırma və optimal idarəetmə”, “Nanohissəciklər fizikası”, “Kimyəvi kinetika və kataliz”, “Molekulyar biologiya”) qəbul aparılıb.

BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecdə 1539 tələbə, “Gənc istedadlar” liseyində 654 şagird təhsil alır.

Bütün tələbə və şagirdlərimizi yeni tədris ilinin başlaması münasibətilə təbrik edir, onlara təhsillərində və şəxsi həyatlarında uğurlar arzulayırıq!

# BDU EİFL beynəlxalq konsorsiumunun Baş Assambleyasında təmsil olunub

***BDU-nun Elmi Kitabxanası EİFL (Electronic Information for Libraries) beynəlxalq konsorsiumunun Baş Assambleyasında təmsil olunub. Vilnüs şəhər Adomas Miçkyaviçyus adına Kütləvi Kitabxanasının (Vilnius County Adomas Mickevicius Public Library) ev sahibliyi etdiyi tədbir Litva Elmi Kitabxanalar Konsorsiumu (LMBA) ilə birgə təşkil edilib.***

BDU-nun Elmi Kitabxanasında fəaliyyət göstərən Azərbaycan Kitabxana İnformasiya Konsorsiumu (Az.KİK) 2003-cü ildən EİFL-in üzvüdür. Elmi Kitabxana Baş Assambleyada iştirakla yalnız BDU-nu deyil, eyni zamanda Az.KİK-ə üzv olan akademik kitabxanaları təmsil edib.



Bütün tərəfdaş ölkələri bir araya gətirən Baş Assambleya EİFL-in ildə bir dəfə keçirilən əsas toplantısıdır. Tədbirin əsas məqsədi üzv olan ölkə konsorsiumları və aparıcı nəşriyyatlarının peşəkar mütəxəssisləri ilə bir araya gələrək bilik və bacarıqları paylaşmaq, informasiya çeşidini artırmaq, maarifləndirməni genişləndirmək, inkişaf etməkdə olan və keçid dövrü yaşayan ölkələrdə cəmiyyət üzvlərinin elmi elektron informasiyadan istifadəsini təmin etməkdir.

Baş Assambleyada 32 xarici ölkədən 83 nümayəndə və 11 beynəlxalq nəşriyyatın təmsilçiləri iştirak edib. Tədbirin ilk günündə açıq giriş, müəlliflik hüququ, hüquqi sənədlərlə iş və kitabxanalarda innovativ proqramların tətbiqi haqqında təqdimatlar edilib. Litva Elmi Kitabxana Konsorsiumunun beynəlxalq nəşriyyatlar, yerli universitetlər, tədqiqat institutları ilə əməkdaşlıq fəaliyyəti və qazandığı təcrübə konsorsium rəhbərinin çıxışında paylaşılıb.

Akademik kitabxanalarda tədqiqatlara dəstək üzrə təcrübənin öyrənilməsi, universitet kitabxanalarında konsorsiumlar vasitəsilə bilik mübadiləsi mövzularına həsr olunmuş növbəti gün 32 ölkə üzrə konsorsium rəhbəri və koordinatorların, o cümlədən BDU-nun Elmi Kitabxanasının direktoru Nigar İsmayılova, Metodiki iş və əməkdaşlıq şöbəsinin müdiri, Az.KİK-in rəhbəri Cəmilə Yusifovanın çıxışları dinlənilib. Kitabxana sahəsi üzrə beynəlxalq səviyyədə ixtisaslaşmış məruzəçilər ilə elmi ünsiyyət və tədqiqatların qiymətləndirilməsi, məlumat bazalarının çeşidləri və xidmətləri, elektron resurslardan lisenziyalar əsasında istifadənin təşkili və s. mövzular barədə müzakirələr aparılıb.

Tədbirin son günündə müxtəlif rəqəmsal obyektlərə verilən uzunmüddətli istinad növləri (DOI, ORCID, ROR, CrossRef), davamlı identifikatorlar haqqında son yenilənmələr təqdim edilib. Nüfuzlu beynəlxalq nəşriyyat və aqreqatorların (EBSCO, Sage, Cambridge University Press, Oxford University Press, Brill, İOP) təmsilçiləri ilə görüşlər keçirilib, abunəlik və lisenziyalaşdırma üzrə danışıqlar aparılıb.

BDU-nun nümayəndə heyəti Vilnüs Universitetinin Kitabxanasında olub, bu kitabxana ilə BDU-nun Elmi Kitabxanası arasında gələcək əməkdaşlıq müzakirə edilib.

# BDU-nun Meksikada çalışan tanınmış məzunu Fizika fakültəsinin professor-müəllim heyəti və tələbələrinə seminar keçib

***Dünyada tanınmış fizik, BDU-nun Fizika fakültəsinin məzunu, Meksika Milli Muxtar Universitetinin professoru, Əməkdar elm xadimi Natiq Atakişiyev BDU-nun Fizika fakültəsinin professor-müəllim heyəti və tələbələri üçün seminar keçirib.***

Seminarda iştirak edən BDU rektoru Elçin Babayev Natiq Atakişiyevin həyatı və elmi yaradıcılığı barədə məlumat verib, onun Azərbaycan elminin dünyada təbliğindəki xidmətlərini vurğulayıb.




Tanınmış alim “Cəmiyyətin inkişafında elmin rolu” mövzusunda mühazirə deyib. Keçdiyi həyat yolundan, qarşılaşdığı çətinliklər və onların öhdəsindən necə gəlməyindən, elmin cəmiyyətin inkişafındakı rolundan danışıb. Elmin ənənələr hesabına inkişaf etdiyini bildirən məruzəçi bilik alan şəxsin həmin bilikləri gələcək nəsillərə ötürməli olduğunu vurğulayıb. Natiq Atakişiyev insanın daim həyatda yerini axtarmalı olduğunu, özünün də bu yolla getdiyini bildirib. Tələbələrə ələqələrin intensivləşdiyi müasir dünyada şəxsi inkişafları üçün bir neçə xarici dil bilməyin, Universitetdə təhsil aldıqları müddətdən səmərəli istifadə etməyin, təhsil aldıqları sahəni dərindən mənimsəməyin zəruriliyini diqqətə çatdırıb.

Ən sonda Natiq Atakişiyev tələbələrə Yuval Noah Hararinin ”Bəşəriyyətin qısa tarixi” (“A brief history of Humankind Sapiens”) kitabını oxumağı tövsiyə edib. Bildirib ki, bu kitabda insan psixologiyasının inkişaf mərhələləri, şüurun necə formalaşması öz əksini tapıb.

Seminarın sonunda məruzə üzrə müzakirələr aparılıb, suallar cavablandırılıb.

# Jurnalistika fakültəsində “ARB 24”ün direktoru Radik İsmayılovla görüş



***Sentyabrın 29-da “ARB 24” telekanalının direktoru Radik İsmayılov Jurnalistika fakültəsinin I kurs tələbələri ilə görüşüb.***

Tanınmış jurnalist tələbələrə müasir jurnalistikanın yeni yaradıcılıq trendləri, təməl prinsipləri, televiziya jurnalistikasının özəllikləri, televiziya aparıcısının iş xüsusiyyətləri barədə ətraflı məlumat verib.

Qonaq eyni zamanda BDU və “ARB 24” telekanalı arasında imzalanmış əməkdaşlıq müqaviləsi çərçivəsində növbəti "ARB 24 NewsLab" təlim proqramı barəsində də tələbələri məlumatlandırıb.

Sonra tələbələri maraqlandıran suallar cavablandırılıb.

# Görkəmli alim, yazıçı və pedaqoq Mir Cəlal Paşayevin anım günüdür

*28 Sentyabr XX əsrin ədəbi-elmi fikrinin korifeylərindən sayılan görkəmli alim, yazıçı və pedaqoq Mir Cəlal Paşayevin vəfatından 45 il ötür.*

Mir Cəlal Paşayev 1908-ci il aprelin 26-da Cənubi Azərbaycanda (Ərdəbil ostanı) yoxsul kəndli ailəsində dünyaya göz açıb. Kiçik yaşlarında atası Gəncəyə köçdüyündən uşaqlığı burada keçib. Mir Cəlal 10 yaşında olanda atası vəfat edib və o, böyük qardaşının himayəsində yaşayıb.



Mir Cəlal Paşayev 1918–1919-cu illərdə Xeyriyyə Cəmiyyətinin köməyi ilə ibtidai təhsil alıb və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Gəncə Darülmüəllimliyinə daxil olub. Tələbə təşkilatının, sonra isə şəhər tələbə həmkarlar təşkilatının sədri seçilib. Kazan Şərq Pedaqoji İnstitutunun ədəbiyyat şöbəsində, Azərbaycan SSR Elmlər Akademiyasının aspiranturasında təhsilini davam etdirməklə yanaşı, müəllimlik edib və millətinin övladlarına xalqının ədəbiyyatını, mədəniyyətini, zəngin keçmişini mənimsədib. Bu mənada Mir Cəlal Paşayevin XX əsr Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafındakı xidmətləri misilsizdir.

Yazıçı kimi 1928-ci ildə ədəbiyyata gələn Mir Cəlal elə həmin ildə də ilk tədqiqat əsərini yazıb. Sözün gücünə güvənib, onun böyüklüyünə baş əyən sənətkarın könüllərə yanğı salmış "Bir gəncin manifesti" əsəri, zəmanənin güzgüsü olan hekayələri klassik bədii nümunələr kimi ədəbiyyat tariximizin səhifələrində müəllifinə əbədiyaşarlıq qazandırıb. Onun böyük zəhmətinin bəhrəsi olan "Füzuli sənətkarlığı", "XX əsr Azərbaycan ədəbiyyatı", "Azərbaycanda ədəbi məktəblər (1905-1917)", "Ədəbiyyatşünaslığın əsasları" adlı fundamental əsərləri ədəbiyyatşünaslıq elminin qiymətli mənbələrindəndir.

Bakı Dövlət Universitetinin sevimli müəllimi, nüfuzlu professoru kimi xatirələrdə daim yaşayan Mir Cəlal Paşayev həqiqət, düzlük, səmimiyyət aşiqi, ailəsini, övladlarını, tələbələrini sevən, qoruyan şəxsiyyət olub. Onun bu kəlamı indi də dillər əzbəridir: "Həyatımda yaratdığım ən böyük əsər ailəmdir".

XX əsrin 20-30-cu illərində ədəbi aləmdə əvvəlcə şeir, sonra isə oçerk və hekayələri ilə görünən Mir Cəlal az sonra istedadlı və orijinal yaradıcılıq üslubu olan yazıçı kimi tanınıb. Mir Cəlal öz yazı üslubu ilə həmkarlarından fərqlənərək Azərbaycan ədəbiyyatına yeni nəfəs gətirib. XX əsr Azərbaycan ədəbiyyatının bir sıra nailiyyətləri bilavasitə Mir Cəlal Paşayevin adı ilə bağlıdır. Əlli illik yaradıcılıq fəaliyyəti dövründə o, görkəmli nasir kimi Azərbaycan ədəbiyyatı tarixində öz layiqli və şərəfli yerini tutub. Təkcə "Bir gəncin manifesti" əsərinə görə Mir Cəlal klassik sənətkarlar sırasında dayanmaq haqqını qazanıb. Bu əsər çapdan çıxanda onun heç 30 yaşı yox idi. 1928-ci ildə mətbuatda ilk şeirləri ("Dənizin cinayəti", "Ananın vəsiyyəti", "Müxbir") çap olunub. O dövrün "Şərq qadını", "Gənc işçi", "İnqilab və mədəniyyət", "Ədəbiyyat qəzeti" kimi nüfuzlu nəşrlərində "Doktor Cinayətov", "İfşa", "Mərkəz adamı", "Naxələf", "Bostan oğrusu", "Qüdrət nümayişi", "İstifadə", "Dəzgah qızı", "Heyrət" və digər hekayələrini çap etdirib. 1932-ci ildə "Sağlam yollarda", 1935-ci ildə "Boy" adlı ilk oçerklər və novellalar kitabları işıq üzü görüb.

Mir Cəlalın ilk irihəcmli əsəri – "Dirilən adam" romanı 1935-ci ildə ayrıca kitab kimi nəşr olunub. Hələ yarım əsr bundan əvvəl akademik Məmməd Arif yazırdı: "Mir Cəlal "Dirilən adam"la diqqətli bir realist yazıçı olduğunu göstərib".

"Bir gəncin manifesti" əsəri isə yazıçının həyatında böyük bir dönüş yaradıb, ədəbi zirvəyə aparan yoluna cığır açıb və müəllifə böyük oxucu auditoriyası qazandırıb. 1940-cı ildə "Uşaqgəncnəşr"də kitab halında kütləvi tirajla buraxılan bu əsər oxucu tələbatına görə sonrakı illərdə də təkrar çap edilib. "Bir gəncin manifesti" bu gün də qəlbləri riqqətə gətirir. Doqquz dəfə müxtəlif illərdə ayrıca kitab halında nəşr olunan bu əsər Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda da sevilir.

Mir Cəlalın "Dirilən adam", "Bir gəncin manifesti", "Yolumuz hayanadır" romanlarında keçmiş, "Açıq kitab", "Yaşıdlarım", "Təzə şəhər" romanlarında isə müasir həyat lövhələrinin bədii təsviri ustalıqla qələmə alınıb. Yazıçının "İnsanlıq fəlsəfəsi" (1961) kitabında toplanmış hekayələri də böyük tərbiyəvi-əxlaqi əhəmiyyətə malikdir. "İnsanlıq fəlsəfəsi", "Subaylıq fəlsəfəsi", "Təzə toyun nəzakət qaydaları", "Vicdan mühakiməsi", "Vicdan əzabı", "Hesab dostları", "Təsadüf, ya zərurət", "Qocaların uşaq söhbəti" və digər hekayələrində isə real həyat lövhələri, fəlsəfi düşüncələr əks olunub. İndiyədək yazıçının 70-dən çox kitabı çap edilib.

Mir Cəlal Paşayev çağdaş Azərbaycan tarixində ədəbiyyatşünas-nəzəriyyəçi alim kimi də müstəsna və özünəməxsus yer tutub.

Mir Cəlal Paşayev 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" əsərinə görə filologiya elmləri namizədi, 1947-ci ildə isə "Azərbaycanda ədəbi məktəblər" əsərinə görə filologiya elmləri doktoru alimlik dərəcələrini alıb. Füzuli poeziyasının qüdrətinə heyran olan, ümumiyyətlə, klassik ədəbiyyata qəlbən bağlı Mir Cəlal Paşayev 1958-ci ildə bu mövzuya yenidən müraciət edərək "Füzuli sənətkarlığı" adlı monoqrafiyasını nəşr etdirib.

Mir Cəlal Paşayevin tanınmış tədqiqatçı Firudin Hüseynovla birgə yazdığı "XX əsr Azərbaycan ədəbiyyatı" əsəri uzun illərdir ki, ali məktəblər üçün dərs vəsaitidir. Bu dərslikdə XX əsrin böyük ədəbi şəxsiyyətləri, onların yaradıcılığı, ədəbi mühitə gətirdikləri yeniliklər haqqında əhatəli elmi fikirlər əks olunub.

1978-ci il sentyabrın 28-də əbədiyyətə qovuşmuş gözəl müəllim, görkəmli yazıçı, istedadlı ədəbiyyatşünas Mir Cəlal Paşayevin çoxşaxəli yaradıcılığı nəinki müasirlərinə, özündən sonra gələn nəsillərə də örnəkdir. Təsadüfi deyil ki, bu gün təkcə Azərbaycanda deyil, onun sərhədlərindən kənarda da görkəmli ədibin həyat və yaradıcılığı geniş şəkildə öyrənilir və əsərləri çap olunaraq maraqla oxunur.

"UNESCO-nun 2008-2009-cu illərdə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramına Azərbaycanla bağlı daxil olmuş yubileylərin keçirilməsi haqqında" Azərbaycan Prezidentinin 2008-ci il 31 yanvar tarixli sərəncamına əsasən, yazıçı Mir Cəlal Paşayevin yubiley mərasimi təntənə ilə qeyd edilib. UNESCO-nun Parisdə yerləşən iqamətgahında XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, alim, pedaqoq Mir Cəlal Paşayevin 100 illiyinə həsr olunmuş mərasim keçirilib. Bu, həm də Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına dünya miqyasında verilən dəyərin təzahürüdür.

Mir Cəlal Paşayev insanlıq, xeyirxahlıq, müəllimlik, ədəbiyyatşünaslıq məktəbi yaradıb. Bu məktəbin işığı sonrakı nəsillərin yoluna daim işıq salır. Böyük ziyalımızın əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq!

# Azərbaycanda analitik kimya ixtisası üzrə ilk və yeganə akademik Rəfiqə Əliyevanın anadan olmasından 91 il ötür

*20 sentyabr Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) həqiqi üzvü, kimya elmləri doktoru, professor, əməkdar elm xadimi Rəfiqə xanım Əliyevanın anadan olmasından 91 il keçir.*



Görkəmli alim, akademik Rəfiqə Əlirza qızı Əliyeva onu tanıyanların yaddaşında əsl Azərbaycan qadını, elm fədaisi və humanist qəlbli insan kimi yaşayır, işıqlı xatirəsi daim ehtiramla anılır.

Rəfiqə Əliyeva 1932-ci il sentyabrın 20-də Naxçıvan şəhərində anadan olub. Ali təhsilini 1951–1956-cı illərdə Bakı Dövlət Universitetinin Kimya fakültəsində alıb. Əmək fəaliyyətinə 1956-cı ildə Azərbaycan Politexnik İnstitutunda başlayan Rəfiqə Əliyeva 1957-ci ildən etibarən BDU-da, 1958-1960-cı illərdə isə Azərbaycan Elmlər Akademiyasının Kimya Problemləri İnstitutunda kiçik elmi işçi kimi çalışıb. 1960-1963-cü illərdə BDU-nun Kimya fakültəsinin aspiranturasında təhsil alan Rəfiqə Əliyeva 1964-cü ildən ömrünün sonuna qədər Universitetin Analitik kimya kafedrasında işləyib və burada assistent, baş müəllim, dosent, professor vəzifələrini tutub. O, 2001-ci ildən "Ekoloji kimya və ətraf mühitin mühafizəsi" elmi-tədqiqat laboratoriyasına rəhbərlik edib.

Rəfiqə Əliyeva 1970-ci ildə namizədlik, 1999-cu ildə doktorluq dissertasiyalarını müdafiə edib və həmin ildə professor adına layiq görülüb. 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilib. O, Azərbaycanın elm tarixində analitik kimya ixtisası üzrə ilk və yeganə akademik kimi qalır. Görkəmli akademik 2017-ci il mayın 6-da əbədiyyətə qovuşub.

Ömrünü kimya elminə həsr etmiş Rəfiqə Əliyeva bu sahədə yüksəkixtisaslı kadrların hazırlanmasına bütün bilik və bacarığını sərf edib. Yarım əsrdən artıq pedaqoji fəaliyyətlə məşğul olan alimin araşdırmaları analitik reaksiyaları xarakterizə edən parametrlərlə kompleks birləşmələrin quruluşu arasındakı asılılığın müəyyən edilməsinə həsr olunub. Rəfiqə xanımın ətraf mühitin mühafizəsi ilə bilavasitə bağlı olan bir sıra tədqiqatları, eyni zamanda, üzvi reaktivlərin köməyi ilə metalların təyini və onların ayrılması metodikasının işlənib hazırlanmasına yönəlib. Ekologiyanın aktual problemləri ilə bağlı işləri isə ölkəmizin davamlı inkişafının təmin olunmasına öz töhfəsini verib.

450-dən artıq elmi əsərin, 25 dərslik və dərs vəsaitinin, 20 patentin müəllifi olan Rəfiqə Əliyeva bir sıra elmi şuraların və cəmiyyətlərin üzvü olub. Alimin rəhbərliyi altında 20-dən çox fəlsəfə və elmlər doktoru yetişib.

Akademik Rəfiqə Əliyevanın elmi-pedaqoji fəaliyyəti Azərbaycan dövləti tərəfindən layiqincə qiymətləndirilib. Azərbaycan Prezidentinin sərəncamı ilə o, "Əməkdar elm xadimi" adına layiq görülüb, "Şöhrət" ordeni ilə təltif edilib. Akademik Y.Məmmədəliyev adına mükafatın laureatı olan Rəfiqə Əliyeva Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü, Amerika Biblioqrafiya İnstitutu tərəfindən "2001-ci ilin adamı" və "2001-ci ilin işgüzar qadını" seçilib. 2018-ci ildə "Azərbaycanım" Beynəlxalq Jurnalının redaksiya şurası "Akademik Rəfiqə Əliyeva adına Qızıl Orden" təsis edib.

Onun ekologiyaya və ümumi ekologiyaya aid dərs vəsaitləri isə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Həsən Əliyev adına mükafatı ilə qiymətləndirilib.

Görkəmli alim, həssas qəlbli insan, qayğıkeş ana Rəfiqə xanım Əliyevanın əziz xatirəsi qəlbimizdə həmişə yaşayacaq və gənc nəsil onun yaratdığı elmi istiqaməti davam etdirəcək.

# BDU-da Anım Gününə həsr olunan tədbir

**BDU-da 27 Sentyabr - Anım Gününə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları BDU-nun şəhid məzunlarının xatirəsinə həsr olunmuş sərgiyə baxış keçiriblər.**

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən BDU rektoru Elçin Babayev bildirib ki, şanlı Qələbə tariximizin yazılmağa başladığı gündən - 44 günlük Vətən müharibəsindən 3 il ötür. Məhz 2020-ci ilin 27 sentyabrında düşmənin növbəti təxribatlarına cavab olaraq Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin əmri ilə başlayan ildırımsürətli əks-hücum əməliyyatları Qarabağımızın azadlığı uğrunda müqəddəs Vətən müharibəsinə çevrildi. Xalqımız Ali Baş Komandanımızın ətrafında dəmir yumruq kimi birləşdi: "Dünya hərb tarixinə qızıl hərflərlə yazılan, haqqında əsrlə danışılacaq 44 günlük Vətən müharibəsinin ilk anlarından Müzəffər Ali Baş Komandanımızın verdiyi müdrik və cəsarətli qərarlar sayəsində düşmənin müdafiə xətti yarıldı. Peşəkar, cəsur Azərbaycan Ordusu döyüşlərin başladığı ilk




gündə strateji Murov zirvəsində, Füzulidə, Cəbrayılda, sonrakı günlərdə isə Suqovuşanda, Hadrutda, Xocavənddə, Zəngilanda, Qubadlıda üçrəngli bayrağımızı ucaltdı. Noyabrın 8-də Qarabağın ürəyi Şuşanın azad edilməsi ilə Ali Baş Komandanımızın rəhbərlik etdiyi müzəffər Ordumuz düşməni kapitulyasiya aktı imzalamağa məcbur etdi. Bununla da Azərbaycanın dünya birliyi tərəfindən tanınan ərazi bütövlüyü təmin olundu".

Elçin Babayev vurğulayıb ki, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin də dediyi kimi, artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur. Bu qələbə xalqımızın tarixində qazanılmış ən uca zəfərdir: "Adı dünya hərb tarixinə qızıl hərflərlə yazılan Müzəffər Ali Baş Komandanımız 44 günlük Vətən müharibəsi ilə bütün dünyaya cəsarətli və eyni zamanda ədalətli müharibə aparmağın örnəyini göstərdi, müzəffər ordumuzun yalnız işğalçı qüvvələrlə döyüşdüyünü, hər cür təxribatlara baxmayaq, düşməndən fərqli olaraq, heç bir halda mülki əhalini hədəf seçmədiyini nümayiş etdirdi. Bu gün də azad Qarabağımızda miqyası heç bir ölçüyə gəlməyən nəhəng layihələr gerçəkləşdirilir. 30 il dədə-baba torpaqlarından didərgin düşmüş soydaşlarımız öz evlərinə qayıdır. Cənab Prezidentin birbaşa diqqəti ilə çox qısa zaman ərzində gerçəkləşdirilən bu layihələr dünyada heç bir siyasətçinin, dövlət başçısının edə bilməyəcəyi nəhayətsiz işlərdir. Lakin Vətən müharibəsindəki biabırçı məğlubiyyətindən sonra da düşmən öz məkrli niyyətindən əl çəkmədi. Dəfələrlə edilən xəbərdarlıqlara baxmayaraq, öz havadarlarına arxalanaraq terror aktları həyata keçirdi. Ordumuz düşmənə bu dəfə də layiqli cavabını verdi. Cəmi 23 saat 43 dəqiqə davam edən antiterror əməliyyatı ilə düşmən ağ bayraq qaldırdı. Bununla da Azərbaycan bütün torpaqlarında öz suverenliyini bərpa etdi. Biz bu qələbəni Xalq-Prezident-Ordu birliyi sayəsində qazandıq! Bu gün qalib dövlətimiz regionda əbədi sülhü də qazanmaq üçün səylərini uğurla davam etdirir".

Rektor qeyd edib ki, BDU-nun professor-müəllim heyəti, tələbə və məzunları da savaşın ilk anlarından doğma Vətənimizin çağırışına səs verdilər. Çoxsaylı tələbə və məzunumuz könüllü cəbhəyə yollandı. Kollektiv ön cəbhədə olduğu kimi, arxa cəbhədə informasiya savaşına da töhfələr verdi. Şəhidlərimizin 20 nəfəri BDU-nun məzunlarıdır. Onların unudulmaz xatirəsi hər birimiz üçün müqəddəsdir.

Daha sonra Azərbaycan Silahlı Qüvvələrinin polkovnik-leytenantı, Aprel döyüşlərinin qəhrəman şəhidi Raquf Orucovun həyat yoldaşı, "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Orucova, BDU-nun Tarix fakültəsinin elmi işlər üzrə dekan müavini, şəhid gizir Vasif Hüseynovun bacısı Kəmalə Nəcəfova, Şərqşünaslıq fakültəsinin III kurs tələbəsi, Vətən müharibəsi şəhidi Saməddin Əmrahovun qızı Aysu Əmrahova, İnformasiya və sənəd menecmenti fakültəsinin qazi məzunu Qədir Daşdəmirov çıxışlarında Vətən müharibəsinin ən parlaq və şanlı səhifə kimi xalqımızın tarixində silinməz iz buraxdığını qeyd ediblər. Çıxışlarda xalqımızın Vətən müharibəsi günlərində bir yumruq kimi Müzəffər Ali Baş Komandanın və Ordumuzun ətrafında birləşdiyi bildirilib, müqəddəs şəhidlərimizin xatirəsinin əbədi yaşayacağına əminlik vurğulanıb.

# "27 Sentyabr - Anım Günü" adlı kitab sərgisi təşkil olunub

***Sentyabrın 27-də BDU-nun Elmi Kitabxanası "27 Sentyabr - Anım Günü" adlı kitab sərgisi təşkil edib.***

Sərgidə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasətinə, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş əsgər və zabitlərimizə həsr olunmuş 50-yə yaxın kitab yer alır.

Nümayiş olunan kitablar sırasında 2021-ci ildə BDU tərəfindən nəşr olunmuş "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vətən müharibəsi dövründə xarici kütləvi informasiya vasitələrinə müsahibələri", "Vətən müharibəsi dövründə Bakı Dövlət Universitetinin professor-müəllim heyəti və tələbələrinin ölkə



mediasında çıxışları", "Vətən müharibəsi yerli və xarici mediada", "Bakı Dövlət Universiteti Vətən müharibəsi dövründə", "Tarix yazan məzunlar" adlı nəşrlər oxucular tərəfindən böyük marağa səbəb olub.

Sərgi həftənin sonuna qədər ziyarətçilərin üzünə açıq olacaq.

# Anım Gününə həsr olunmuş xüsusi dərslər keçirilir

***BDU-da 27 Sentyabr - Anım Gününə həsr olunmuş xüsusi dərslər keçirilir.***

Dərslərdə müəllimlər tərəfindən 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun şanlı Zəfəri haqqında məlumat verilib. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun işğalçı Ermənistan üzərində tarixi qələbəsindən və şücaətindən bəhs edilib.

Xüsusi dərslərdə həmçinin bu il sentyabrın 19-da cəmi 24 saat davam edən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz məskunlaşmış Ermənistan ordusunun təslim olduğu, suverenliyimizin tam təmin olunduğu və Azərbaycanın qəhrəman oğullarının bu şanlı tarixi öz qanları ilə yazdıqları vurğulanıb.

# BDU-nun Qazax filialında Anım Günü qeyd olunub

***BDU-nun Qazax filialında 27 Sentyabr - Anım Günü ilə əlaqədar tədbir keçirilib.***

Ərazi bütövlüyümüz uğrunda şəhid olmuş qəhrəmanlarımızın xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayan tədbirdə BDU-nun Qazax filialının direktoru Arif Rüstəmov və Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov 27 sentyabr 2020-ci il tarixdən təcavüzkar Ermənistanın Azərbaycana qarşı növbəti təxribatlarının qarşısının alınması üçün həyata keçirilən əks-hücum əməliyyatları ilə Vətən müharibəsinin başlanıldığını, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda 44 günlük mübarizədə xalqımızın bir yumruq kimi həmrəylik, əzm və iradə nümayiş etdirdiyini, əsgər və zabitlərimizin qəhrəmanlıq salnaməsi yazaraq düşmən üzərində parlaq Qələbə qazandığını bildiriblər.

Filialın İctimai və təbiət fənləri kafedrasının baş müəllimləri Mübariz Süleymanov, Ülviyyə Bayramova, tələbələrdən Könül Butayeva, Mirabbasağa Abbaslı çıxışlarında Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ordumuzun 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi qələbənin Azərbaycan xalqını bütün dünyaya qəhrəman xalq kimi tanıtdığını qeyd ediblər.

Sonda Vətən müharibəsində tarixi zəfərə həsr olunmuş videoçarx nümayiş olunub.

# BDU-da 40-dan çox Vətən müharibəsi iştirakçısı təhsil alır

***BDU-da təhsil alan tələbələrdən 43-ü Vətən müharibəsi iştirakçısıdır.*** Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 27 iyul 2023-cü il tarixli Sərəncamına əsasən, Azərbaycanın ali təhsil müəssisələrində bakalavriat və magistratura (əsas (baza ali) tibb təhsili və rezidentura) təhsil səviyyələrində və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla təhsil alan, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslərin təhsil müddəti ərzində təhsil haqqı 2023/2024-cü tədris ilindən etibarən Nazirlər Kabinetinin təsdiq etdiyi təhsil xərcləri miqdarında dövlət büdcəsi vəsaiti hesabına ödəniləcək.

# BDU kollektivi Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib

***BDU kollektivi 27 Sentyabr – Anım Günü münasibətilə Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib.***

BDU kollektivi Ulu Öndər Heydər Əliyevin, ərazi bütövlüyümüz uğrunda şəhid olmuş qəhrəman Vətən oğullarının xatirəsini ehtiramla anaraq, məzarları üzərinə əklil və gül dəstələri qoyub.

BDU-nun 2 saylı tədris binasının qarşısında şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə də gül dəstələri düzülüb, şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.



Şəhidlik zirvəsinə ucalmış qəhrəmanlarımızın əziz xatirəsi xalqımızın və BDU kollektivinin qəlbində əbədi yaşayacaq!

# Fakültələrdə şəhidlərin xatirəsi anılıb

***Biologiya fakültəsinin Tələbə Gənclər Təşkilatı və Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə 27 Sentyabr - Anım Gününə həsr olunmuş tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Fakültənin dekanı Afət Məmmədova Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun 2020-ci il sentyabrın 27-də əks-hücum əməliyyatına başlayaraq, 44 gün ərzində təcavüzkar Ermənistanı təslim olmağa məcbur etməsinin xalqımızın şanlı tarixində xüsusi yer tutduğunu diqqətə çatdırıb. O bildirib ki, Vətən müharibəsi və ondan sonra baş verən proseslər hərbi-siyasi gücümüzün ortaya qətiyyətlə qoyulduğu, milli ruhumuzun, milli həmrəyliyimizin öz sözünü kəskinliklə dediyi şərəfli bir tarixdir. Bu tarixi yazan şəhidlərimizin əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq.

Daha sonra tələbələr Anım Gününə aid şeirlər səsləndiriblər. Sonda isə Vətən müharibəsində şanlı qələbəmizə həsr olunmuş videoçarx nümayiş olunub.

* * *

***Tarix fakültəsinin tələbələri 27 Sentyabr - Anım Günü ilə əlaqədar I və II Fəxri xiyabanları və Şəhidlər xiyabanını ziyarət ediblər.***

Tələbələr öncə I Fəxri xiyabanda Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, daha sonra Şəhidlər xiyabanı və II Fəxri xiyabanda dövlətimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsini yad ediblər.




* * *

***Hüquq fakültəsində 27 Sentyabr - Anım Gününə həsr edilmiş tədbir keçirilib.***

Tədbirdə Milli Məclisin deputatı Bəhruz Məhərrəmov, Hüquq fakültəsinin məzunu olan Vətən müharibəsi iştirakçıları, professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

Hüquq fakültəsinin dekanı Zaur Əliyev bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən başlanılmış əks-hücum əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü 30 ildən sonra tarixi zəfərimizlə bərpa olunub. Hüquq fakültəsinin 50-dən çox tələbə və məzunu 44 günlük Vətən müharibəsində könüllü iştirak edib, fakültənin məzunu Ceyhun Şalıyev isə şəhidlik zirvəsinə ucalıb. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsinə daim yüksək ehtiram göstərir, qazilərimizin müalicəsini və sağlamlıqlarının bərpasını həmişə diqqət mərkəzində saxlayır.

Milli Məclisin deputatı, Hüquq fakültəsinin Dəniz və enerji hüququ mərkəzinin rəhbəri Bəhruz Məhərrəmov tələbələrə əldə olunmuş nailiyyətin təkcə hərb meydanında deyil, siyasətdə də qazanıldığını bildirib. O, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsi olaraq Azərbaycanın regionda ali hüquq dəyərlərinə, beynəlxalq hüququn prinsip və normalarına riayət edən dövlət kimi tanınmasına imkan yaratdığını xüsusilə vurğulayıb.

Sonra çıxış edən Cinayət prosesi kafedrasının müdiri Firuzə Abbasova, Cinayət hüququ və kriminologiya kafedrasının dosenti Rauf Şəmsizadə, Mülki hüquq kafedrasının müdiri Şükür Yusifov Qarabağ zəfərinin bugünkü reallıqlarından, əhəmiyyətindən danışıblar.

Hüquq fakültəsinin Vətən müharibəsinin iştirakçıları olan məzunları Şamo İsmayılbəyli və Anar Namazov keçdikləri döyüş yolundan bəhs ediblər.

* * *

***Sentyabrın 26-da Kimya, Ekologiya və torpaqşünaslıq fakültələrinin müəllim-tələbə heyəti Anım Günü münasibəti ilə II Fəxri xiyabanı ziyarət edib.***

Respublikamızın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi yad edilib, məzarları önünə gül dəstələri qoyulub.

BDU əməkdaşları və tələbələr ziyarət zamanı şəhid ailələri ilə də görüşüb, onların övladlarının keçdiyi döyüş yolunun hər bir azərbaycanlı gənc üçün örnək olduğunu vurğulayıblar.



# BDU-da bir dəqiqəlik sükut…



***BDU-da 27 Sentyabr – Anım Günü ilə əlaqədar saat 12.00-da bütün ölkə ərazisində olduğu kimi, ərazi bütövlüyümüz uğrunda şəhid olmuş qəhrəman Vətən oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2 dekabr 2020-ci il Sərəncamına əsasən, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq hər il sentyabrın 27-si Azərbaycanda Anım Günü kimi qeyd olunur.

# BDU kollektivi Zəfər parkını ziyarət edib



***BDU kollektivi sentyabrın 27-də Anım Günü münasibətilə Bakıda inşası davam etdirilən Zəfər parkını ziyarət edib.***

Parkın girişində xatirə daşının önünə gül dəstələri qoyulub, ölkəmizin ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

# Tələbələr RİİB-in “Şəhidlərimiz qürurumuzdur!” aksiyasında iştirak ediblər

***İşğal altında olan torpaqlarımızın azad edilməsi, ölkəmizin ərazi bütövlüyü və suverenliyinin təmin olunması uğrunda canlarından keçərək şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən oğullarının əziz xatirəsinə sonsuz hörmət və ehtiram nümayiş etdirmək məqsədilə “Regional İnkişaf” İctimai Birliyi (RİİB) 27 Sentyabr - Anım Gününə həsr edilən “Şəhidlərimiz qürurumuzdur!” aksiyası keçirib.***

Aksiyada BDU-nun tələbələri də iştirak ediblər.

Aksiyada RİİB könüllülərinin, şəhid övladları və gənclərin iştirakı ilə səmaya işıq fənərləri buraxılıb.

# IDEA və BDU-nun birgə təşkilatçılığı ilə Sumqayıt çimərliyinin sahil zolağında təmizlik aksiyası keçirilib

***Sentyabrın 30-da Beynəlxalq Dəniz Günü ilə əlaqədar ölkəmizdə qeyd edilən "Xəzər həftəsi" çərçivəsində IDEA İctimai Birliyi və Bakı Dövlət Universitetinin (BDU) Ekologiya və torpaqşünaslıq fakültəsinin birgə təşkilatçılığı, Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN), "Təmiz Şəhər" ASC-nin dəstəyi ilə Sumqayıt şəhərinin Corat qəsəbəsi daxilində yerləşən çimərlikdə sahilyanı təmizlik aksiyası keçirilib.*** Aksiyada BDU-nun 300-dən çox tələbəsi ilə yanaşı, ETSN nümayəndələri və könüllüləri də aktiv iştirak ediblər.

Aksiya zamanı 3 hektardan artıq sahil zolağı plastik və digər tullantılarından təmizlənib, Balaxanı bərk məişət tullantılarının çeşidlənməsi zavoduna təhvil verilib.

Tədbirin keçirilməsində məqsəd sahilyanı ərazilərin məişət tullantıları ilə çirklənməsinin qarşısını almaq, Xəzər dənizinin və sahil zonasının ekoloji vəziyyətinin yaxşılaşdırılmasında ictimaiyyətin rolunu artırmaqdır.



Xatırladaq ki, Beynəlxalq Dəniz Günü dünya ictimaiyyətinin diqqətini su hövzələrinin və onun bioresurslarının qorunmasına yönəltmək məqsədilə 1978-ci ildə Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi qərarla təsdiqlənib. Həmin ildən etibarən hər il sentyabr ayının sonuncu həftəsi Beynəlxalq Dəniz Günü kimi qeyd olunur.

"Xəzər həftəsi" çərçivəsində baş tutan təmizlik aksiyası dənizin ekoloji cəhətdən saflığının qorunmasına, onun sərvətlərinin mühafizə olunmasına, eyni zamanda ictimaiyyətin maarifləndirilməsinə xidmət edir. Təşkilatçılar hər kəsi Xəzər dənizinin sahillərini çirklənmədən qorumağa və onun sərvətlərinin mühafizə olunmasında birlik göstərməyə çağırırlar.

# BDU-nun Tələbə Gənclər Təşkilatının "Price" Xarici Dillər Klubu təlimlərə başlayıb



***Sentyabrın 29-da BDU-nun Tələbə Gənclər Təşkilatının (TGT) nəzdində fəaliyyət göstərən "Price" Xarici Dillər Klubunun yeni tədris ilində İngilis dili üzrə ilk, ümumilikdə isə 13-cü təlimi başlayıb.***

Təlim zamanı tələbələrə dilin öyrənilməsi texnikası ilə yanaşı, canlı diskussiya şəraiti yaradılıb.

TGT-nin nəzdində fəaliyyət göstərən "Price" Xarici Dillər Klubunun əsas məqsədi tələbələrin fərdi inkişafına dəstək olmaq, asudə vaxtlarının səmərəli təşkilini təmin etməkdir.

# BDU-da elmi seminar: "XVI-XVIII əsrin birinci yarısında Azərbaycanın İrəvan vilayətində demoqrafik durum"

***Sentyabrın 29-da Tarix fakültəsində Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının "XVI-XVIII əsrin birinci yarısında Azərbaycanın İrəvan vilayətində demoqrafik durum" mövzusunda elmi seminarı keçirilib.***

Tarix fakültəsinin elmi işlər üzrə dekan müavini Kəmalə Nəcəfova tədbir iştirakçılarına elmi seminarın mövzusunun aktuallığı, xüsusən də Qərbi Azərbaycanın ərazisi, toponimləri, tarixi abidələri, əhalisi, demoqrafik vəziyyəti və s. kimi məsələlərin öyrənilməsinin əhəmiyyəti haqqında məlumat verib.

Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının müdiri Mehman Abdullayev bildirib ki, Tarix fakültəsi ilə Qərbi Azərbaycan İcması "Yurd yerlərimizə sahib çıxaq" adlı birgə elmi layihə hazırlayıb. Bu layihədə İrəvan bölgəsinin daxil olduğu Qərbi Azərbaycanın tarixinin daha dərindən araşdırılması və tədqiq edilməsi nəzərdə tutulub. Bu baxımdan Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının dosenti Bəymirzə Şabiyevin "XVI-XVIII əsrin birinci yarısında Azərbaycanın İrəvan vilayətində demoqrafik durum" adlı mövzusu çox böyük elmi aktuallıq kəsb edir.

Mövzu ilə bağlı geniş məruzə edən Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının dosenti Bəymirzə Şabiyev bildirib ki, bölgənin demoqrafik durumu dövrün fars, türk, erməni salnamələri, səyyah gündəliklərindəki məlumatlar, xüsusilə də 1590, 1727, 1728-ci illərə aid Osmanlı müfəssəl dəftərləri əsasında nəzərdən keçirilib, araşdırma nəticəsində bölgə əhalisinin mütləq əksəriyyətinin türk-müsəlman, az bir hissəsinin isə xristianlardan ibarət olması müəyyən edilib.

Elmi seminarda 1590 və 1724-cü il Osmanlı siyahıyaalma materialları əsasında Azərbaycanın İrəvan bölgəsində yaşayan əhalinin sayı, etnik tərkibi, ayrı-ayrı mahal və şəhərlər üzrə yerləşməsi vəziyyəti sxem və cədvəllərlə iştirakçılara təqdim edilib.

# BDU-nun professorunun transmilli cinayət hüququnun nəzəri və praktiki problemlərinə dair monoqrafiyası nəşr olunub

***Sentyabrın 29-da Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Şəhla Səmədovanın "Transmilli cinayət hüququnun nəzəri və praktiki problemləri" monoqrafiyası kitab kimi nəşr edilib.***

Monoqrafiyada transmilli cinayətlərin anlayışı və təsnifatı, beynəlxalq cinayətlərə görə məsuliyyət məsələləri tədqiq olunub, həmçinin Azərbaycan Respublikasının cinayət hüququnda beynəlxalq xarakterli cinayətlərlə bağlı mövcud olan nəzəri və praktiki problemlər araşdırılıb. Azərbaycan Respublikasının qüvvədə olan Cinayət Məcəlləsinin transmilli cinayətlərə dair normalarının təkmilləşdirilməsinə yönəlmiş problemli məsələlərin həlli ilə bağlı bir sıra təkliflər irəli sürülüb.

Kitab Hüquqşünaslıq ixtisasında təhsil alan tələbələr, transmilli cinayət hüququ üzrə ixtisaslaşan doktorantlar, magistrantlar, habelə bu sahə ilə maraqlanan oxucu auditoriyası üçün nəzərdə tutulub.

# İnformasiya və sənəd menecmenti fakültəsində qazi məzunla görüş

***Sentyabrın 28-də İnformasiya və sənəd menecmenti fakültəsində fakültənin məzunu, Vətən müharibəsi qazisi, baş leytenant Qədir Daşdəmirovla görüş keçirilib. Professor-müəllim heyətinin və tələbələrin iştirakı ilə keçirilən tədbirdə əvvəlcə Dövlət himni səsləndirilib, şəhidlərimizin unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb.***

Tədbirin moderatoru – BDU-nun Redaksiya-nəşriyyat işi kafedrasının müdiri, Birinci Qarabağ müharibəsinin veteranı Knyaz Aslan görüş iştirakçılarına baş leytenant Qədir Daşdəmirov haqqında ətraflı məlumat verib. Bildirib ki, Qədir Daşdəmirov tələbəlik illərində özünün yüksək intellekti, bilik və bacarıqları ilə müəllimlərinin, fakültə kollektivinin böyük rəğbətini qazanıb, milli ruhu, vətənpərvərliyi ilə



xüsusilə fərqlənib: "27 sentyabr 2020-ci ildə Vətən müharibəsinin başladığı ilk anlardan baş leytenant Qədir Daşdəmirov döyüşə atılıb. 44 günlük Vətən müharibəsində şərəfli döyüş yolu keçib, torpaqlarımızın azadlığı uğrunda böyük fədakarlıq göstərib. Ön xətdə ağır yaralanan Qədir Daşdəmirov YAŞAT Fondunun dəstəyi ilə qardaş Türkiyədə müalicə olunub. Məzunumuzun qəhrəmanlıqları dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə baş leytenant Qədir Daşdəmirov Vətən müharibəsində göstərdiyi şücaətə görə "Qubadlının azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub".

Qazi Qədir Daşdəmirov çıxış edərək 44 günlük Vətən müharibəsində keçdiyi döyüş yolundan danışıb. Müzəffər Azərbaycan ordusunun qalib zabiti olması ilə qürur duyduğunu bildirib, bundan sonra da hər an bir zabit kimi Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin əmrlərini yerinə yetirməyə hazır olduğunu ifadə edib. Qarabağda aparılan son antiterror əməliyyatlarından bəhs edən Qədir Daşdəmirov dövlətimizin suverenliyinin tam bərpa olunmasının xalqımızda yüksək əhval-ruhiyyə, gələcəyə daha böyük inam yaratdığını bildirib.

# HƏYATI ÖRNƏK OLAN ALİM

***İnsanın dünyaya gəlişi və dünyadan gedişi onun özündən asılı olmayan qanunauyğunluqdur. İnsan doğulduğu gündən dünyadan köçənə qədər ömür adlanan vaxtı necə yaşaması onun ailəsindən, boya-başa çatdığı mühitdən, aldığı təlim-tərbiyədən, başlıcası isə özünü dərk etməsindən asılıdır.*** Bu mənada insanın ömrü sevinc, kədər, çətinlik və uğurlarla zəngin olan bir kitaba bənzəyir. Bu kitabı hər kəs özü yazır və yaşadığı illərin sevincini, kədərini, nailiyyətlərini həmin kitabın səhifələrinə köçürür. Belə bir zəngin ömür kitabına adı böyük hərflərlə yazılmağa layiq olan insanlardan biri - dünya şöhrətli alim, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Respublikasının Dövlət mükafatı laureatı, Əməkdar Elm xadimi, "Şöhrət" ordenli, Prezident təqaüdçüsü, Azərbaycanda Bərk cisimlər fizikası sahəsində böyük elmi məktəbin yaradıcısı, uzun illər Bakı Dövlət Universitetinin "Bərk cisimlər fizikası" kafedrasının müdiri olmuş, fizika-riyaziyyat elmləri doktoru, professor Bəhram Əsgərovdur.

Bəhram müəllim yaxın tariximizdə xalqımızın yetişdirdiyi unikal şəxsiyyətlərdən biri idi. Həyatının əlli beş ilini gənc nəslin təlim-tərbiyəsinə, Azərbaycan və dünya elminin inkişafına həsr etmiş görkəmli alim, səmimi dost, gözəl müəllim, nəcib bir insan olan Bəhram müəllim şərəfli və mənalı bir ömür yolu keçmişdir. O, həkarlarının sirr yoldaşı, məsləhətçisi, daxili aləmi də xarici görünüşü qədər gözəl olan, asta yerişli, sakit təbiətli, üzündən təbəssümü əskik olmayan, öz səliqəsi, dəqiqliyi ilə seçilən, ciddi davranışlı, lakin həddindən artıq kövrək ürək sahibi olan bir insan idi. Bəhram müəllim hamı ilə ümumi dil tapmağı bacarar və insanlara tutduğu vəzifədən və yaşından asılı olmayaraq hörmət edərdi. Həyati və ya elmi olmasından asılı olmayaraq həmişə istənilən sualla ona müraciət etmək olardı. Onun yanına müəyyən bir xahişlə gələn məyus olmaz, aldığı cavabdan asılı olmayaraq xoş əhval-ruhiyyə ilə qayıdardı. Bu mənada Bəhram müəllim hamının dostu idi. Onun müdrikliyi, təmkini, zəkası, fizika və digər elm sahəsindəki dünyagörüşü hamını heyrətləndirərdi.

Bəhram Mehralı oğlu Əsgərov 1933-cü il oktyabr ayının 5-də Tovuz rayonunun Əhmədabad kəndində anadan olmuşdur. O, 1952-ci ildə Yanıxlı kənd orta məktəbini müvəffəqiyyətlə bitirərək həmin ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin) fizika-riyaziyyat fakültəsinin fizika şöbəsinə daxil olmuşdur. Universitetdə təhsil aldığı müddətdə adlı təqaüdçü (Stalin təqaüdü) olmuşdur. 1957-ci ildə Universiteti fərqlənmə diplomu ilə bitirərək Azərbaycan Elmlər Akademiyası Fizika İnstitutunun "Yarımkeçiricilər fizikası" ixtisası üzrə əyani aspiranturasına daxil



olmuşdur. Aspirantura təhsilini, məşhur Rentgenin tələbəsi olmuş akademik Abram Fyodoroviç İoffenin direktor olduğu, Leninqrad şəhərindəki (indiki Sankt-Peterburq) SSRİ Elmlər Akademiyası Yarımkeçiricilər İnstitutunda almışdır. Bu İnstitutda o, professor Andrey İvanoviç Anselmin rəhbərliyi altında mükəmməl elmi məktəb keçmiş, bərk cisimlər nəzəriyyəsinin aktual problemləri - metallar və yarımkeçiricilərdə termomaqnit effektlərin kvant nəzəriyyəsi ilə məşğul olmuşdur.

Yerinə yetirdiyi işlərin əsasında 1962-ci ildə Leninqradda namizədlik dissertasiyasını müdafiə etmişdir. Namizədlik dissertasiyasını müdafiə etdikdən sonra Bakıya qayıdaraq Azərbaycan Elmlər Akademiyasının Fizika İnstitutunda elmi işini davam etdirmişdir. Dissertasiya işində qaldırılan problemlərin aktuallığı nəzərə alınaraq Azərbaycan Elmlər Akademiyasının Rəyasət Heyətinin qərarı ilə 1963-cü ildə Bəhram Əsgərovun namizədlik dissertasiyası "Yarımkeçiricilərdə köçürmə hadisələri nəzəriyyəsi" adı altında "Elm" nəşriyyatı tərəfindən ayrıca kitab şəklində nəşr edilmişdir. Bu kitab onun ilk və uğurlu monoqrafiyası idi.

Bəhram Əsgərov 1966-cı ilə qədər Azərbaycan Elmlər Akademiyası Fizika İnstitutunda kiçik elmi işçi, elmi işçi və baş elmi işçi vəzifələrində çalışmışdır. 1966-cı ildə Azərbaycan Dövlət Universitetinin Fizika fakültəsinin "Molekulyar fizika" kafedrasına dosent vəzifəsinə dəvət olunmuşdur. Həmin ildən etibarən onun elmi işi ilə yanaşı pedaqoji fəaliyyəti də başlamışdır. Belə ki, o, "Elektrodinamika", "Bərk cisimlərin kvant nəzəriyyəsi", "Termodinamika və statistik fizika" kimi mühüm ümumnəzəri universitet kurslarından mühazirələr oxuyurdu. Universitetdə təşkilatçılıq fəaliyyətini Bəhram Əsgərov 1971-ci ildə "Bərk cisimlər fizikası" kafedrasını təşkil etməklə başlamış, 1972-ci ildə kafedranın professoru olmuş və 2014-cü ilə qədər həmin kafedraya rəhbərlik etmişdir.

Bəhram Əsgərovun elmi fəaliyyəti 1957-ci ildən, onun SSRİ Elmlər Akademiyası Yarımkeçiricilər İnstitutuna aspirant kimi ezam olunduğu dövrdən başlayır. Həmin illərdə o, professor A.İ.Anselmlə birgə yarımkeçiricilərdə və metallarda termomaqnit hadisələrinin kvant nəzəriyyəsini inkişaf etdirir. Onlar tərəfindən kvantlayıcı maqnit sahəsində, adi kinetik tənlik tətbiq oluna bilmədiyi halda dissipativ termomaqnit cərəyanlarını hesablamaq üçün metod təklif edilir. Elmi ədəbiyyatda Anselm-Əsgərov metodu adı ilə məlum olan bu üsul, sonralar müəllifər tərəfindən dönməyən proseslərin ümumi nəzəriyyəsi vasitəsi ilə əsaslandırılır.

Bəhram Əsgərovun 1960-1961-ci illərdə "Fizika tverdoqo tela" jurnalındakı işlərinə qədər kvantlayıcı maqnit sahəsində termomaqnit hadisələrin nəzəriyyəsi ümumiyyətlə yox idi. Bu işlər termomaqnit hadisələrin kvant nəzəriyyəsinin yaranmasının başlanğıcı olur. Kinetik nəzəriyyənin yeni sahəsinin yaranışı ilə ölkəmizdəki və xaricdəki bir çox nəzəriyyəçilər kvantlayıcı maqnit sahəsində termomaqnit hadisələrin nəzəriyyəsi ilə intensiv məşğul olmağa başlayır. Onun kinetik effektlərin klassik nəzəriyyəsinə həsr edilmiş ilk işlərində güclü cırlaşmış yarımkeçiricilərdə və metallarda ixtiyari maqnit sahəsində köçürmə hadisələri kimi vacib məsələlərə baxılmışdır. Bəhram Əsgərovun bir sıra işlərində uzununa maqnit sahəsində yerləşmiş yarımkeçiricilərdə termoelektrik hərəkət qüvvəsinin və istilikkeçirmənin elektron hissəsi öyrənilmişdir. Bu nəticələrin bir çoxu Bəhram Əsgərovun "Teoriya yavleniy perenosa v poluprovodnikax" adlı birinci monoqrafiyasına daxil edilmişdir.

Bəhram Əsgərovun bir sıra işləri daha mürəkkəb dispersiya qanunlu, yəni real enerji spektrli yarımkeçiricilərdəki kinetik effektlərin klassik nəzəriyyəsinə həsr olunmuşdur. O, sferik, lakin qeyri-parabolik zonalı yarımkeçiricilərdə qalvanomaqnit və termomaqnit effektlərin klassik nəzəriyyəsi ümumiləşdirmişdir.

Təbəqələrdə elektron köçürmə hadisələrinin nəzəriyyəsinə həsr olunmuş işlər əsasında o, əməkdaşları ilə birgə 1984-cü ildə Almaniyada nəşr olunan "Physica Status Solidi" jurnalı üçün geniş icmal məqalə yazmışdır. Bu işlərin bir çox nəticələri onun "Teoriya yavleniy perenosa v poluprovodnikax", "Kineticeskie effekti v poluprovodnikax" və "Elektronnıe yavlenio perenosa v poluprovodnikax" adlı monoqrafiyalarına daxil edilmişdir. "Kineticeskie effekti v poluprovodnikax" monoqrafiyasının müqəddiməsində kitabın məsul redaktoru professor S.S.Şalit yazırdı: "Təqdim olunan monoqrafiyanın müəllifi Bəhram Əsgərov yarımkeçiricilərdə kinetik hadisələrin nəzəriyyəsi üzrə öz işləri ilə məşhur olan mütəxəssisdir, o, təcrübəçilərin tələbləri ilə də yaxşı tanışdır və ümid etmək olar ki, onun bu əsəri onlar arasında təqdirəlayiq qiymətini alacaqdır." Doğrudan da monoqrafiya, redaktorun ümidlərini tam şəkildə doğrultdu, kitab çox uğurlu oldu. Tamlığı və aydınlığı professor Bəhram Əsgərovun monoqrafiyasına qısa müddətdə ölkəmizdə və xaricdə layiqli şöhrət qazandırdı. Buna sübut kimi yarımkeçiricilər fizikası üzrə olan elmi jurnalların və monoqrafiyaların səhifələrində çoxlu sayda istinadları göstərmək olar. Mübaliğəsiz demək olar ki, Bəhram Əsgərovun bu monoqrafiyası yarımkeçiricilərdə köçürmə hadisələrinin tədqiqi ilə məşğul olan fiziklərin stolüstü kitabına çevrilmiş və elm aləminin tam rəğbətini qazanmışdır.

Monoqrafiyanın və elmi işin əhəmiyyəti, dəyəri və gərəkli olması onlardan həmin sahədə çalışan mütəxəssislər, elmi işçilər və doktorantlar tərəfindən istifadə olunması, elmi məqalələrdə onlara istinad edilməsi ilə müəyyən edilir. Bəhram Əsgərovun monoqrafiyaları və bir sıra elmi məqalələri göstərilən meyarları ödəyir. Təkcə onu qeyd etmək kifayətdir ki, bizdə olan məlumata görə onun kitablarına və məqalələrinə elmi ədəbiyyatda 1000-dən çox istinad vardır. Bu isə onu göstərir ki, Bəhram müəllim bərk cisimlər fizikası sahəsində nəinki Respublikamızda, həm də dünyada tanınan alimlərdəndir. Belə ki, o, xarici jurnallarda dərc olunmuş işlərinə görə 1997-ci ildə İngiltərədəki Kembric Beynəlxalq Bioqrafiya Mərkəzi tərəfindən "XX əsrin məşhur alimi" sırasına daxil edilmiş, "Elmdə görkəmli nailiyyətlərinə görə" diplomu və medalı ilə təltif olunmuş və Ümumdünya ensiklopediyasına daxil edilmişdir.

Bəhram Əsgərov Moskva, Sankt-Peterburq, Kiyev, Novosibirsk, Vilnüs, Tartu, Daşkənd, Tbilisi, Bakı, Salford, Bodrum, Varşava, Pekin, Edinburq şəhərlərində keçirilmiş çoxlu sayda Beynəlxalq və Respublika elmi konfranslarda orijinal məruzələrlə çıxış etmişdir. Bəhram müəllim yüksəkixtisaslı fizik-nəzəriyyəçilərin hazırlanmasında fəal iştirak etmişdir. O, 12 namizədlik dissertasiyasına elmi rəhbər və 5 doktorluq işinin elmi məsləhətçisi olmuşdur.

Bəhram Əsgərov Respublikada bir çox elmi-ictimai işləri həyata keçirmişdir. O, 1994-2004-cü illərdə Bakı Dövlət Universitetinin Elmi işlər üzrə prorektoru olmuş və 1998-ci ildə bir ilə yaxın müddətdə Bakı Dövlət Universitetinin rektoru vəzifəsini icra etmişdir. Bir çox illər o, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin üzvü, Respublika Təhsil Nazirliyinin "Fizika" ixtisası üzrə elmi-metodik şurasının sədri, elmlər doktoru elmi dərəcəsi verən Elmi Şuraların sədri və həmsədri, Bakı Dövlət Universitetinin Böyük Elmi Şurasının və Fizika fakültəsinin Elmi Şurasının üzvü olmuşdur. Bundan başqa Bəhram Əsgərov "Bakı Universitetinin Xəbərləri" jurnalının fizika-riyaziyyat elmləri seriyasının redaktoru, AMEA-nın "Xəbərlər" və "Fizika", "Sumqayıt Universitetinin Xəbərləri" və "Qafqaz Universiteti" jurnallarının redaksiya heyətinin üzvü kimi də fəaliyyət göstərmişdir.

Bəhram Əsgərovun elmi-təşkilati, pedaqoji və ictimai fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir: 1974-cü ildə elm-texnika sahəsi üzrə Azərbaycan Dövlət Mükafatını, 2000-ci ildə Əməkdar Elm xadimi fəxri adını almışdır. 2001-ci ildə "Fizika" ixtisası üzrə AMEA-nın müxbir üzvü, 2007-ci ildə isə AMEA-nın həqiqi üzvü seçilmişdir. 2004-cü ildə "Şöhrət" ordeni ilə təltif olunmuş və 2009-cu ildə prezident təqaüdünə layiq görülmüşdür.

Bəhram müəllimin böyük bir ailənin başçısı olmuçdur. Onun üç övladı, yeddi nəvəsi və dörd nəticəsi vardır.

Bəhram Əsgərov 12 mart 2014-cü ildə Bakı şəhərində vəfat etmişdir.

5 oktyabr 2015-ci ildə Bakı Dövlət Universitetində Bəhram Əsgərovun 1971-ci ildə yaratdığı və ömrünün sonuna qədər rəhbərlik etdiyi "Bərk cisimlər fizikası" kafedrasının önündə anadan olmasının 82-ci ildönümü münasibətilə barelyefinin açılışı olmuşdur. Tovuz şəhərində ən böyük küçələrdən biri akademik Bəhram Əsgərovun adını daşıyır.

Görkəmli pedaqoq və gözəl insan olan Bəhram müəllim əməkdaşları və tələbələri üçün nümunə olmuş, öz diqqət və qayğısını onlardan əsirgəməmişdir. O yaddaşlarda həyatsevər, təvazökar, geniş dünyagörüşünə və incə yumor hissinə malik bir insan kimi qalmışdır. Həmkarları və tələbələri hər zaman ona böyük hörmət və rəğbət hissi ilə yanaşmış, həmişə ondan dəyərli məsləhətlər almışlar. Həyatı bir örnək olan Bəhram müəllimi xatırlamaq, onu gələcək nəsillərə tanıtdırmaq, yaddaşlarda, kitablarda yaşatmaq bizim vətəndaşlıq borcumuzdur.

Akademik Bəhram Əsgərovun əziz xatirəsi onun dostlarının, tələbələrinin və müəllim həmkarlarının yaddaşlarında əbədi yaşayacaqdır.

***Bəxtiyar Paşayev***
*Fizika fakültəsinin dekanı*

***Mehdi Mahmudov***
*Bərk cisimlər fizikası kafedrasının müdiri*



# BDU əməkdaşları akademik Rəfiqə Əliyevanın məzarını ziyarət ediblər

***Sentyabrın 20-də Kimya, Ekologiya və torpaqşünaslıq fakültələrinin əməkdaşları Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) həqiqi üzvü, kimya elmləri doktoru, professor, əməkdar elm xadimi Rəfiqə Əliyevanın anadan olmasının 91 illiyi ilə əlaqədar Fəxri xiyabanda onun xatirəsini yad edib, məzarı üzərinə gül dəstələri düzüblər.***

Azərbaycanda analitik kimya ixtisası üzrə ilk və yeganə akademik olan Rəfiqə Əliyeva 1964-cü ildən ömrünün sonuna qədər BDU-nun Analitik kimya kafedrasında işləyib. 450-dən artıq elmi əsərin, 25 dərslik və dərs vəsaitinin, 20 patentin müəllifi olmuş akademik ömrünün böyük hissəsini BDU-da ixtisaslı kadrların hazırlanmasına sərf edib.

Akademik Rəfiqə Əliyevanın əziz və unudulmaz xatirəsi öz taleyini bağladığı və inkişafına böyük töhfələr verdiyi BDU-da həmişə ehtiramla yad edilir. Görkəmli alim, həssas qəlbli insan, qayğıkeş ana Rəfiqə xanım Əliyevanın əziz xatirəsi qəlbimizdə həmişə yaşayacaq və gənc nəsil onun yaratdığı elmi istiqaməti davam etdirəcək.

# Azərbaycan şərqşünaslığının görkəmli siması Aida İmanquliyevanın xatirə günüdür

***19 Sentyabr görkəmli şərqşünas alim, Azərbaycan şərqşünaslığında ilk qadın elmlər doktoru, professor Aida İmanquliyevanın xatirə günüdür.***

Aida İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakıda ziyalı ailəsində anadan olub. 1957-ci ildə Bakı şəhərindəki 132 nömrəli orta məktəbi qızıl medalla bitirib və Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb filologiyası bölməsinə qəbul olunub. 1962-ci ildə universiteti bitirəndən sonra bu təhsil müəssisəsinin Yaxın Şərq xalqları ədəbiyyatı tarixi kafedrasının aspirantı olub, həmçinin keçmiş SSRİ EA Asiya Xalqları İnstitutunun aspiranturasında təhsil alıb. 1966-cı ildə namizədlik dissertasiyasını müdafiə edən Aida İmanquliyeva Azərbaycan EA Şərqşünaslıq İnstitutunda əmək fəaliyyətinə başlayıb. O, istedadı, zəhmətsevərliyi sayəsində kiçik elmi işçidən şöbə müdiri, elmi işlər üzrə direktor müavini və İnstitutun direktoru vəzifəsinədək yüksəlib.

Ömrünü Şərq mədəniyyətini və məhcər ədəbiyyatını öyrənməyə sərf edən Aida xanım İmanquliyeva müasir ərəb ədəbiyyatının tədqiqində yeni səhifə açıb, öz fundamental araşdırmaları ilə təkcə Azərbaycan şərqşünaslığını deyil, dünya şərqşünaslığını da zənginləşdirib və inkişaf etdirib. 1989-



cu ildə Aida İmanquliyeva Tbilisi şəhərində doktorluq dissertasiyası müdafiə edib və çox keçmədən bu ixtisas üzrə professor adı alıb.

Üç fundamental monoqrafiyanın - "Mixail Nüaymə və "Qələmlər birliyi", "Cübran Xəlil Cübran", "Yeni ərəb ədəbiyyatı korifeyləri" və 70-dən çox elmi məqalənin müəllifi Aida İmanquliyeva, həmçinin Şərq filologiyası sahəsində yazılmış bir çox elmi əsərlərin redaktoru idi. Azərbaycan EA Şərqşünaslıq İnstitutunda fəaliyyət göstərən "Asiya və Afrika ölkələri xalqları ədəbiyyatları" ixtisası üzrə müdafiə şurasının sədri olub. Azərbaycan şərqşünaslıq elmini keçmiş SSRİ məkanında və onun hüdudlarından kənarda layiqincə təmsil edib.

Aida İmanquliyeva elmi-təşkilati fəaliyyətində yüksəkixtisaslı ərəbşünas kadrların hazırlanmasına da böyük diqqət yetirirdi.

Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin Rəyasət Heyətinin, Şərq ədəbiyyatlarının tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının üzvü olan Aida İmanquliyeva uzun illər səmərəli pedaqoji fəaliyyət göstərib, Bakı Dövlət Universitetində ərəb filologiyası fənnindən mühazirələr oxuyub.

Professor Aida İmanquliyeva Azərbaycanda Şərq-Qərb ədəbi əlaqə və təsirini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alimdir. Onun çoxsaylı elmi əsərlərində Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii üslubun təşəkkül tapması tədqiq olunur ki, bu da nəinki ərəb ədəbiyyatının, bütövlükdə müasir Şərq ədəbiyyatlarının həmin aspektdə tədqiqi üçün mühüm zəmin yaradır.

Bir alim kimi Aida İmanquliyevanın maraq dairəsi geniş və çoxşaxəli idi. Amma onun elmi araşdırmalarının əsas tədqiqat obyekti ərəb məhcər ədəbiyyatı olub. Aida xanımın ərəb məhcər ədəbiyyatının beynəlxalq miqyasda ən sanballı tədqiqatçısı olduğunu keçmiş sovet ərəbşünasları, hətta Avropa şərqşünasları etiraf edirlər.

Bütün elmi fəaliyyətini Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcılıq üslubunun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapmasının tədqiqinə həsr edən Aida xanım özündən sonra çağdaş ərəb ədəbiyyatının tədqiqində yeni bir səhifə və yol açıb. Onun bu gün də aktuallığını qoruyub saxlayan əsərləri, monoqrafiyaları ərəb ədəbiyyatını araşdıran gənc alimlər üçün əsas istinad qaynağıdır. Aida İmanquliyevanın işıqlı xatirəsi ürəklərdə daim yaşayacaq!

# Məktəbdə sinif, universitetdə qrup yoldaşı... – MÜSAHİBƏ

***Bir ailənin iki sevinci. Gözlərindəki sevincdən tələbəliyin verdiyi ilk həyəcan duyulur... Onlar eyni məktəbin eyni sinfini bitirərək, BDU-nun Hüquq fakültəsinə yüksək balla qəbul olunan Fatimə və Fidan Allahverdiyeva bacılarıdır.***

Müsahiblərim bütün yolları birgə addımlayıblar. Bu, suallarımıza verdikləri cavablardan da hiss olunur...

***- Bu gün tələbə adını birlikdə qazanmaq necə bir hissdir?***

- Fatimə: Biz 11 il bir sinfi oxuyub, universitetə birlikdə hazırlaşmışıq. Bu prosesin özü belə bizim üçün çox maraqlı idi. Çünki hazırlaşdığımız ixtisas qrupu, sahə və məqsədlər eyni olduğu üçün daim birbirimizə dəstək olurduq. İndi isə arzularımızı reallaşdırmışıq. İkimiz də istədiyimiz sahəni ən yaxşı şəkildə tədris etdiyini düşündüyümüz BDU-nun tələbəsiyik. Bu yolda da uğurlar qazanacağımıza şübhəmiz yoxdur.

***- İkinizin eyni yerə hazırlaşması hansısa üstünlüklər verirdimi? Hazırlıq prosesində çətinliklər yaşayırdınızmı?***

- Fidan: Təbii ki, abituriyent olmağın müəyyən çətinlikləri var. Belə ki, biz əsas vaxtımızı dərslərimizə ayırmalıyıq. Amma dərslərə fokuslanmaqla yanaşı, başqa məşğuliyyətlərlə də maraqlanmağın faydalı olduğunu düşünürəm, çünki bəzən day-



anmadan dərslərə hazırlaşmaq öyrəndiyimizin keyfiyyətini aşağı salır. Mən məhz imtahana hazırlıq dönəmində paralel şəkildə 2 dəfə Respublika Fənn Olimpiadasının (RFO) qalibi olmuşam.

- Fatimə: Buna görə də mən daim günümü planlamağa çalışırdım. Məncə, planlı olmaq çox dəyərli olan vaxtımızı düzgün idarə etməkdə effektiv vasitədir. Hazırlıq ərəfəsinin bir hissəsi pandemiya dövrünə düşdükdən sonra bu prosesi onlayn formada davam etdirməyə başladıq. Onlayn dərslərin qazandırdığı vaxt bizim sona qədər dərslərimizi belə davam etdirməyimiz qərarına gəlməyimizə səbəb oldu. Abituriyentlik dövrümüzdə də bu şəkildə vaxt qazanmış olduq.

***- "Dərslərin çoxluğu qazanılacaq digər uğurlara manea deyil"–deyən müsahiblərimiz asudə vaxtlarını necə keçirirdilər?***

- Fidan: Boş vaxtlarımız adətən fənn olimpiadalarına, intellektual oyunlara hazırlaşmaqla keçirdi. İkimiz də RFO-da iştirak edib, təcrübələrimizi bir-birimizlə bölüşürdük. Mən İTV-də yayımlanan "Əlaçı" yarışında bir neçə dəfə iştirak edərək qalib də olmuşam. Bir sözlə, gələcək həyatımızda indi əldə etdiyimiz bəzi naliyyətlərin və sosial aktivliyin payı olacaq.

***-Uşaqlıqdan ikiniz də hüquqşünas olmağı qərarlaşdırmısınız. Niyə məhz hüquqşünaslıq?***

- Fatimə: Kiçik yaşlarımızdan hüquq sahəsini çox sevirdik. Bu fakültə də III qrupda olduğu üçün məhz bu qrupu seçməli olduq. Gələcəkdə bu adı qazanmaq istəyənlərə isə deyə bilərik ki, istədikdən və səy göstərdikdən sonra əldə edə bilməyəcəyiniz heç nə yoxdur.

***- Ali məktəbə daxil olmaq hər gəncin arzusudur. Bəs o xəyalların gerçək olması necə bir hissdir? Sözsüz, burada ən maraqlı məqam bir ailədən iki nəfərin qəbul xəbəridir…***

- Fidan: Bəli, hər bir abituriyentin məqsədi təhsil və gələcəyini sağlam təməl üzərində qurmaqdır. Bacımın tələbə yoldaşım olması hamımızı sevindirdi. Bu sevinc onunla birlikdə təhsil aldığım BDU-da da davam edəcək. Bir ailənin iki üzvünün eyni anda yüksək nəticə ilə istəklərinə nail olması hər kəs tərəfindən xüsusi rəğbətlə qarşılanır.

- Fatimə: Bu ixtisası qərarlaşdırandan BDU bizim üçün ən yaxşı seçim idi. Şükürlər olsun ki, artıq bu universitetin tələbələriyik. İxtisasımızı və universitetimizi sevirik.

***- Abituriyentlərə nə demək istərdiniz?***

- İstədiklərinə nail olmaq uğrunda daim səy göstəsinlər. Maneələr ola bilər, əsas məsələ bunlardan nəticə çıxarmaq və yoluna dayanmadan davam etməkdir. Sonda qazanılan uğur həyatlarının əvəzsiz sevincinə çevriləcək. Bu gün Fatimə ilə mənim yaşadığım da məhz budur.

***Nurlan Cəbrayılzadə***
*BDU-nun Jurnalistika fakültəsinin*
*II kurs tələbəsi*

# "Sosial mediada uğurun sirri" adlı təlim

***Sentyabrın 22-də Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə tələbələr üçün "Sosial mediada uğurun sirri" adlı təlim keçirilib.***



Sosial media məsləhətçisi, təlimçi Ələmdar Manafovun iştirakı ilə keçirilən təlimin əsas məqsədi gənclərin sosial mediada inkişafına dəstək olmaqdır.

Ələmdar Manafov "Sosial mediada necə uğurlu olmaq olar?" , "Şəxsi brendimizin tanıtımında sosial şəbəkələrin nə kimi rolu var?" mövzularında danışıb, sosial şəbəkələrin insanlar üçün yaratdığı imkanlardan doğru şəkildə yararlanmağın zəruriliyini vurğulayıb.

Təlimin sonunda Ələmdar Manafov tələbələrin mövzu ilə əlaqədar suallarını cavablandırıb.

# Türkiyə Milli Kitabxanasının baş direktoru BDU-da ustad dərsi keçib

***Sentyabrın 22-də Türkiyə Cümhuriyyəti Mədəniyyət və Turizm Nazirliyinin Kitabxanalar və Nəşrlər Baş İdarəsinin müdiri, Türkiyə Milli Kitabxanasının baş direktoru Taner Bəyoğlu İnformasiya və sənəd menecmenti fakültəsində "Rəqəmsal dünyada yeni kitabxana xidmətləri" mövzusunda ustad dərsi keçib.***



Taner Bəyoğlu əvvəlcə ölkənin ən nüfuzlu ali təhsil müəssisəsi olan BDU-da olmağından məmnunluğunu ifadə edib. Azərbaycanla Türkiyənin dostluq və qardaşlıq əlaqələrinin ən yüksək səviyyəyə çatdığını bildirib. Qarabağda qazandığımız tarixi Zəfərin bütün türk dünyası üçün mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Taner Bəyoğlu mühazirəsində Türkiyə Milli Kitabxanasının tarixi, inkişaf dövrləri, müasir vəziyyəti, perspektivləri və hədəfləri barədə dinləyicilərə ətraflı məlumat verib. Qardaş ölkələrimizin Milli Kitabxanalarının dövlətlərimiz arasında ədəbi-mədəni və elmi əlaqələrin formalaşmasında, türk xalqlarının milli irsinin mühafizəsində müstəsna rolundan bəhs edib. Bildirib ki, kitab və kitabxana mədəniyyəti sahəsində dünya mədəni irsinə mühüm töhfələr vermiş türk xalqları bu gün də həmin missiyanı uğurla davam etdirirlər.

Rəqəmsal dünyada moden kitabxana xidmətlərinin dövrün tələbi kimi qarşıya çıxdığını vurğulayan natiq Türkiyə Cümhuriyyətində bu sahədə Mədəniyyət və Turizm Nazirliyinin Kitabxanalar və Nəşrlər Baş İdarəsinin həyata keçirdiyi mühüm layihələr barədə geniş məlumat verib. Ustad dərsində kitabxanaların xidmət səviyyəsinin təkmilləşməsində önəmli rol oynayan müasir kommunikasiya sistemlərinin imkanları, üstünlükləri barədə ətraflı məlumatlar diqqətə çatdırılıb, ənənəvi kitabxana xidmətləri ilə rəqəmsal kitabxana xidmətlərinin müqayisəli təhlili aparılıb. Mühazirədə həmçinin Türkiyədə müəlliflik hüquqlarının qorunması məsələlərindən də bəhs edilib. Müəllif hüquqlarının qüvvədə olma müddəti, qorunması və piratçılıqla mübarizə üsulları barədə Türkiyə təcrübəsi izah olunub.

Taner Bəyoğlunun mühazirəsi auditoriya tərəfindən maraqla dinlənilib, məruzəçi dinləyicilərin çoxsaylı suallarını cavablandırıb. Eyni zamanda Türkiyə Milli Kitabxanası ilə BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsi arasında əlaqələrin inkişaf etdirilməsi, gələcəkdə fakültə tələbələrinin Türkiyə Milli Kitabxanasında təcrübə keçməsi imkanları müzakirə olunub.

# Litva Milli Kitabxanasının baş direktoru BDU-da ustad dərsi keçib

***Litva Milli Kitabxanasının baş direktoru, professor Renaldas Gudauskas İnformasiya və sənəd menecmenti fakültəsinin professor-müəllim heyəti, gənc tədqiqatçıları və tələbələri üçün "Cəmiyyətin informasiya təminatında milli kitabxanaların rolu" mövzusunda ustad dərsi keçib.***

Professor Renaldas Gudauskas əvvəlcə ölkənin ilk və ən nüfuzlu ali təhsil müəssisəsi olan BDU-da olmağından məmnunluğunu ifadə edib. Natiq mühazirəsində rəhbərlik etdiyi Litva Milli Kitabxanasının tarixi, inkişaf dövrləri, müasir dövrdəki fəaliyyəti, sənəd dövriyyəsi, kitab fondu və prioritetləri barədə dinləyicilərə ətraflı məlumat verib.

Cəmiyyətin informasiya təminatında milli kitabxanaların rolunu şərh edən məruzəçi bildirib ki, kitabxanalar xalqların milli irsinin mühafizəsində aparıcı rol oynamaqla bərabər, ölkələrarası elmi, ədəbi-mədəni, ictimai əlaqələrin formalaşmasına da mühüm töhfələr verirlər. Milli kitabxanaların kitab mübadiləsinin təşkilində aparıcı mövqeyə malik olduğunu vurğulayan natiq beynəlxalq kitab mübadiləsinin şərtlərini, həyata keçirilməsi üsullarını izah edib. Müasir dövrdə cəmiyyətin informasiya təminatının yüksək səviyyədə ödənilməsində elektron resursların əhəmiyyətini diqqətə çatdıran professor milli kitabxanaların informasiya resurslarına qoyulan tələblər, eyni zamanda yeni idearəetmə formaları barədə məlumat verib. Mühazirədə həmçinin müxtəlif ölkələrin milli kitabxanaları arasında müqayisəli təhlillər aparılıb, təcrübədə təsdiqini tapmış innovativ iş metodları şərh olunub.

Professor Renaldas Gudauskasın mühazirəsi auditoriya tərəfindən maraqla dinlənilib, məruzəçi dinləyicilərin çoxsaylı suallarını cavablandırıb. Eyni zamanda Litva Milli Kitabxanası ilə BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsi arasında əlaqələrin inkişaf etdirilməsi, gələcəkdə birgə elmi konfransların, seminar və ustad dərslərinin keçirilməsi barədə müzakirələr aparılıb.

# BDU əməkdaşları üçün təkmilləşdirmə kursları təşkil olunub

***Sentyabrın 21-də BDU Strateji İnkişaf Planının fəaliyyət istiqamətlərinə uyğun olaraq tədrisdə keyfiyyətin artırılması, akademik heyətin potensialının üzə çıxarılması, yeni nəslin tədris və təlim proseslərinə cəlb olunması, onların qabaqcıl elmi-metodik üsulları mənimsəməsi ilə əlaqədar təkmilləşdirmə kursları təşkil edib.***

Akademik heyətin pedaqoji və texniki bacarıqlarının artırılması üçün təşkil olunan kurslarda BDU-nun 65 əməkdaşı iştirak edib. Təlimlər pedaqogika və milli mənəvi dəyərlərə əsaslanan müasir təlim metodları, pedaqoji və tətbiqi psixologiya, informasiya və kommunikasiya texnologiyaları olmaqla 3 istiqamət üzrə aparılıb.

Təlimlər nəticəsi olaraq təkmilləşmə kurslarında iştirak edən dinləyicilər arasında məmnunluq sorğusu keçirilib və kursu uğurla tamamlayan professor-müəllim heyəti sertifikatlarla təltif olunub.

# BDU-da bitkilər üzərində aparılan mikromorfoloji tədqiqatlar davam edir

***Biologiya fakültəsinin dekanı, professor Afət Məmmədovanın həmmüəllifi olduğu "Zəhərli və zərərli bitkilərin yarpaqlarının epidermis və trixomalarında mikromorfoloji müxtəliflik və onların taksonomik mahiyyəti" (Foliar epidermal and trichome micromorphological diversity among poisonous plants and their taxonomic significance) adlı məqalə "Web of Science" elmmetrik bazasına daxil olan "Folia Horticulturae" jurnalında nəşr edilib.***

Məqalə bitkilərin mikromorfologiyasının skanedici mikroskopla tədqiqinə həsr edilib. Müəyyən olunub ki, mikromorfoloji tədqiqatlar bitki resurslarının zərərli və ya zəhərli olmasının müəyyən edilməsində əlverişli test metodu kimi istifadə edilə bilər.

# Gələcək fizik-mühəndislər Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi ilə tanış olublar



***Sentyabrın 21-də Fizika fakültəsində ötən il açılmış Mühəndis fizikası ixtisası üzrə mütəxəssis hazırlığı davam edir. Mühəndis fizikası ixtisasına bu il qəbul olunmuş tələbələr BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi ilə tanış olublar.***

Tələbələrə Mərkəzin strukturu, fəaliyyəti, yerinə yetirilən layihələr, əldə olunmuş uğurlar barədə məlumat verilib. Bildirilib ki, 24 saat açıq olan Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi elmin müxtəlif sahələri üzrə tədqiqatların aparılması, tədris prosesində əldə edilən biliklərin daha da gücləndirilməsinə xidmət edir. Mərkəzin BDU-nun tələbələri ilə yanaşı, digər ali məktəblərin tələbələrinə də xidmət göstərdiyi vurğulanıb.

# “Başlıbel faciəsi: erməni vandalizminin izi ilə” mövzusunda maarifləndirmə tədbiri

***Tarix fakültəsində “Effektiv Təşəbbüslər Mərkəzi” Demokratik Dəyərlərin Öyrənilməsi və Təbliği İctimai Birliyi tərəfindən ”Başlıbel faciəsi: erməni vandalizminin izi ilə” mövzusunda maarifləndirmə tədbiri keçirilib.***

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyələşdirdiyi ”Başlıbel faciəsi: erməni vandalizminin izi ilə” adlı layihənin əsas məqsədi Başlıbel qətliamı ilə bağlı həqiqətlərin öyrənilməsinə, Azərbaycanın haqq səsinin geniş auditoriyalarda təbliğinə təkan vermək, gənclərin vətənpərvər ruhda tərbiyəsinə ictimai dəstəyi artırmaqdır.

Tarix fakültəsinin dekanı, professor İbrahim Zeynalov əsrlərlə davam edən erməni vandalizmi barədə məlumat verib, xalqımıza qarşı törədilmiş soyqırımların dərindən araşdırılmasının və gənc nəslə çatdırılmasının əhəmiyyətini vurğulayıb. O qeyd edib ki, 1905-1906-cı illərdə 12 mindən, 1918-1920-ci illərdə 50 mindən artıq dinc azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilib. Ermənilərin soyqırım siyasəti ötən əsrin sonlarında da öz dəhşəti ilə davam edib, Xocalı, Başlıbel, Ağdaban, Ballıqaya kimi qətliamlar törədilib.



Layihənin rəhbəri, araşdırmaçı-jurnalist, “Qanlı kaha” kitabının müəllifi Elxan Salahov qeyd edib ki, Ermənistan silahlı qüvvələri I Qarabağ müharibəsi dövründə daha çox mülki əhalini hədəf seçərək çoxlu sayda kütləvi qətliamlar törədib. 1993-cü ilin aprelində Kəlbəcər rayonunun işğalı zamanı 14 dinc sakinin girov götürülməsi, 18 nəfərin qətlə yetirilməsi ilə nəticələnən Başlıbel faciəsi də bu qəbildəndir. Torpaqlarımızın işğaldan azad edilməsindən sonra Başlıbel faciəsinə dair dəlil və sübutların toplanaraq geniş ictimaiyyətə çatdırılması istiqamətində mühüm addımlar atılıb. 2021-ci ilin aprelində Başlıbel kəndində 12 nəfərin basdırıldığı kütləvi məzarlıq aşkarlanıb, Azərbaycan Respublikası Prezident Administrasiyasının dəstəyi ilə jurnalistlərin və hadisə şahidlərinin həmin əraziyə səfərləri təşkil olunub, çoxlu sayda ictimai müzakirələr keçirilib. Eyni zamanda Prezident Administrasiyasının dəstəyi ilə Başlıbel faciəsindən bəhs edən “Qanlı kaha” kitabının motivləri əsasında 4 hissəli sənədli film çəkilib.

Başlıbel soyqırımının şahidləri Arif Süleymanov, İsmət Əzizov, Səlim Mehdiyev çıxışlarında tələbələri erməni vandalizminə dair faktlarla tanış ediblər.

Tədbirin sonunda Başlıbel soyqırımına həsr olunmuş videoçarx izlənilib, mövzu ilə bağlı müzakirələr aparılıb.

# BDU 74-cü Beynəlxalq Astronavtika Konqresinə hazırlaşır

***2023-cü il 2-6 oktyabr tarixlərində Bakı şəhərində dünya miqyasında ən mötəbər tədbirlərdən olan 74-cü Beynəlxalq Astronavtika Konqresi (IAC-2023) keçiriləcək.*** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “74-cü Beynəlxalq Astronavtika Konqresinin 2023-cü ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında” 7 fevral 2022-ci il tarixli Sərəncamında da qeyd edildiyi kimi, Azərbaycan kosmik sənaye və peyk xidmətləri sahəsində əldə edilmiş təcrübənin, formalaşmış yeni insan kapitalı və etibarlı tərəfdaş imicinin təzahürü olaraq 2023-cü ildə Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi etmək hüququ qazanıb. Azərbaycanın kosmos tarixinin formalaşmasında əvəzsiz xidmətlər göstərmiş, milli kosmik sənayenin qurucusu, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə - 1973-cü ildə “Kosmik tədqiqatlar - elm və texnikaya nüfuz” adlı Bakıda keçirilmiş Beynəlxalq Astronavtika Konqresinə 50 il sonra Azərbaycanın yenidən ev sahibliyi etməsi ölkəmizin həm elm-təhsil, həm də ictimai-siyasi həyatında mühüm və möhtəşəm hadisədir.

Beynəlxalq Astronavtika Konqresinin ikinci dəfə Azərbaycanda keçirilməsi ölkəmizin qlobal kosmos sənayesinə sürətli inteqrasiyasının, kosmik sənayemizin inkişafının göstəricisidir. Azərbaycanda Astrofizika ixtisası üzrə kadr hazırlığı ilə məşğul olan yeganə kafedranın fəaliyyət göstərdiyi və ali təhsil müəssisəsi olaraq 2023-cü ildən Beynəlxalq Astronavtika Federasiyasının yeganə üzvü olan Bakı Dövlət Universitetinin (BDU) bu mötəbər tədbirə qatılması, yaradılan imkanlardan faydalanması əməkdaşlıq əlaqələrinin daha da inkişaf etməsinə, beynəlxalq nüfuzunun yüksəlməsinə mühüm töhfə verəcək.

Heydər Əliyev Mərkəzi və Bakı Konqres Mərkəzinin ərazisində inşa ediləcək sərgi pavilyonunda beynəlxalq kosmik şirkətlər və digər müvafiq təşkilatlarla yanaşı, BDU-nun da stendinin nümayiş olunması nəzərdə tutulub. Stenddə BDU-nun son illər təhsil, elm, texnologiya sahələrində əldə etdiyi nailiyyətləri özündə əks etdirən xidmət və layihələr nümayiş olunacaq. Mütərəqqi innovativ texnologiya və süni zəka əsaslı yüksək texnologiyalar sahəsində bir-birindən maraqlı layihələrin interaktiv təqdim edilməsi, fərqli müsabiqələrin, ustad dərslərinin keçirilməsi nəzərdə tutulduğundan BDU-nun stendi müxtəlif ölkələrdən olan ziyarətçilər üçün maraqlı məkan olacaq. Sərgi günlərində işgüzar görüşlərin keçirilməsi, səmərəli əməkdaşlıq imkanlarının müzakirə olunması da planlaşdırılır. Sərgidə iştirak astrofizika, kosmos elmləri və texnologiyası sahələrində fəaliyyətin təşviqi, beynəlxalq əlaqələrin yaradılması, Beynəlxalq Astronavtika Federasiyası ilə əməkdaşlığın genişləndirilməsi, 75-dən çox ölkədən 6000 yüksək ixtisaslı mütəxəssisin, o cümlədən 2500-dən artıq gəncin BDU ilə bağlı məlumatlılıq səviyyəsinin artırılması baxımından əhəmiyyətlidir.

Qeyd edək ki, BDU Azərbaycanın ali təhsil müəssisələri arasında sərgidə təmsil olunan yeganə universitetdir. BDU Kosmos Hüququ üzrə Beynəlxalq İnstitutun İnstitusional üzvüdür və Beynəlxalq Astronavtika Akademiyasında təmsil olunur.

Həmçinin Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) ilə birgə Beynəlxalq Kosmos Hüququ İnstitutunun Direktorlar Şurasının üzvü, Qərbi Sidney Universitetinin fəxri professoru Steven Freeland və Almaniyanın Köln Universitetinin Hava Hüququ, Kiberhüquq və Kosmos Hüququ İnstitutunun direktoru, professor Stephan Hobenin Universitetin BDU-nun professor-müəllim heyəti və tələbələri ilə görüşü nəzərdə tutulur. Azərbaycanda kosmos hüququ elminin inkişafını təşviq etmək məqsədilə yüksək nüfuza malik beynəlxalq universitetlərin professorlarının belə interaktiv görüşünün BDU-da keçirilməsi kosmos sənayesi və peyk texnologiyası sahəsində uğurla inkişaf edən ölkəmizdə kosmos hüququ sahəsində ekspertlərin hazırlanmasına və bu fəaliyyəti tənzimləyən qanunvericilik bazalarının daha da dərindən tədqiq edilməsinə xüsusi töhfə verəcək. Yaxın gələcəkdə Kosmik Agentlik, BDU və Almaniyanın Köln Universitetinin Hava Hüququ, Kiberhüquq və Kosmos Hüququ İnstitutu ilə anlaşma memorandumunun imzalanması nəzərdə tutulur.

Bundan başqa, 74-cü Beynəlxalq Astronavtika Konqresi ilə bağlı ölkəmizə səfər edəcək astronavtlardan ibarət rəsmi heyətin BDU-nun professor-müəllim heyəti və tələbələri ilə görüşlərinin keçirilməsi planlaşdırılır. Görüşlərin məqsədi bir çox kosmik missiyalarda olmuş astronavtların həyat və peşə təcrübəsi haqda tələbələri və gənc alimləri maarifləndirmək, eləcə də təcrübə mübadiləsi zəminli müzakirələr aparmaqdır.

# BDU əməkdaşı Türkiyədə beynəlxalq konfransda triboelektrik nanogeneratorun hazırlanması haqqında məruzə edib

***Sentyabrın 29-da BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının kiçik elmi işçisi, Fizika fakültəsinin lll kurs doktorantı Orxan Güləhmədov Türkiyənin Kayseri şəhərinin Erciyes Universitetində təşkil olunan “Gələcək nəsil üçün material elmləri və nanotexnologiyalar” adlı X Beynəlxalq konfransda (10 th International Conference on the Materials Science and Nanotechnology for Next Generation (MSNG2023)) “Davamlı enerji yığımı üçün Nylon/Fe3O4 nanokompozit təbəqələri əsasında triboelektrik nanogeneratorun hazırlanması və icrası” (“Fabrication and performance of a triboelectric nanogenerator based on Nylon/Fe3O4 nanocomposite films for sustainable energy harvesting”) mövzusunda məruzə ilə çıxış edib.***

Orxan Güləhmədov triboelektrik nanogenerator (TENG) və onun tətbiq sahələri, üstünlükləri, neylon və dəmir oksidi nanohissəcikləri əsaslı nanokompozit təbəqələrin TENG-də istifadəsi, onların elektrik xətlərinin monitorinqində öz-özünü enerji ilə təmin edən sensor kimi tətbiqi haqqında konfrans iştirakçılarına ətraflı məlumat verib.

Qeyd edək ki, 27-29 sentyabr tarixlərində Türkiyənin Kayseri şəhərində keçirilən MSNG2023 konfransı dünyada nanoelmlər və nanostrukturlar sahəsində əldə olunan ən son nailiyyətlərə həsr olunub. Konfrans nanostrukturlu materiallar, nanoqurğular, kimya, fizika, mexanika, kompüter simulyasiyası, stomatoloji materiallar, biotibbi tətbiqlərin müxtəlif aspektlərini əhatə edib.



# Qürur, şərəf, əbədiyyət səhifəsi…

***27 sentyabr qüdrətli Azərbaycanımızın tarixinin ən şanlı, qürurverici səhifəsinin yazılmağa başladığı gündür - Vətən müharibəsinin başlanmasından üç il ötür.***




2020-ci il 27 sentyabr tarixində səhər saatlarında Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutmağa başladı. Buna cavab olaraq, Ermənistan ordusunun döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan ordusu bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatı ilə döyüşə atıldı.

İkinci Qarabağ müharibəsi əhali arasında Vətən müharibəsi və "Dəmir Yumruq əməliyyatı" kimi qəbul edilərək Azərbaycan tarixinə ən parlaq səhifə kimi yazıldı. 44 gün davam edən müharibə zamanı Azərbaycan xalqı dünya tarixində misli görünməmiş, sözün əsl mənasında, qeyri-adi birlik və fədakarlıq göstərərək ölkə başçısının ətrafında sıx birləşdi. Azərbaycan əsgəri yüksək rəşadət nümayiş etdirib dünya hərb tarixində yeni nailiyyətlərə imza atdı. Məhz peşəkarlıq Azərbaycan ordusunun az itki ilə qısa müddətdə parlaq qələbə qazanmasına şərait yaratdı.

30 ildir qisas hissi ilə yaşayan, hər an son döyüş əmrini gözləyən rəşadətli Ordumuz Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə əzmlə döyüşə atıldı. Ölkə rəhbərinin müdrik və qətiyyətli qərarları sayəsində əks-hücum əməliyyatlarına başlayan şanlı ordumuz qısa müddət ərzində ildırım sürətli əks-hücum planı ilə uzun illərdir işğal altında olan tarixi torpaqlarımızı bir-birinin ardınca azad etdi, əzəli yurd yerlərimizdə Azərbaycan bayrağı yenidən və əbədi dalğalanmağa başladı.

Taleyüklü Vətən müharibəsi günlərində qədirbilən xalqımızın hər zaman olduğu kimi Prezident İlham Əliyevin ətrafında yumruq kimi sıx birləşməsi Zəfərə gedən yolumuzun uzaqda olmadığının müjdəsini verirdi. Noyabr ayının 8-də Qarabağın ürəyi Şuşanın azad edilməsi ilə düşmən sarsıdıcı zərbə aldı. Cəmi bircə gün sonra 72 yaşayış məntəqəsi və 8 strateji yüksəkliyin azad olunması isə düşmənin yerlə-yeksan edilməsi ilə nəticələndi. 10 noyabrda xain düşmənin kapitulyasiya aktını imzalamaqdan başqa çarəsi qalmadı. İşğalçı qüvvələr 20 noyabrda Ağdamı, 25 noyabrda Kəlbəcəri, 1 dekabrda isə Laçını tərk etdilər. Beləliklə, qüdrətli Azərbaycan dövləti Ulu Öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xəttə əsaslanaraq Müzəffər Ali Baş Komandanımız, yenilməz sərkərdəmiz İlham Əliyevin rəhbərliyi ilə tarixi zəfər qazandı. Xüsusi vurğulamaq lazımdır ki, 44 günlük müharibə günlərində cənab Prezidentimiz İlham Əliyev diplomatiya və informasiya cəbhəsində də əzmlə mübarizə apardı, Azərbaycanın haqlı mövqeyini məharətlə müdafiə etdi.

Ümummilli Liderimiz Heydər Əliyevin "Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı" adlandırdığı, hər zaman məzunu olması ilə fəxr etdiyini ifadə edərək yüksək dəyər verdiyi Bakı Dövlət Universitetinin professor-müəllim heyəti, tələbələri və məzunları da, hər bir azərbaycanlı kimi, 44 günlük Vətən Müharibəsi günlərində həm ön, həm də arxa cəbhədə fədakarlıq göstərdi. Universitetin çoxsaylı tələbə və məzunu könüllü olaraq cəbhəyə yollandı, onlardan 19 nəfər müqəddəs şəhidlik zirvəsinə ucaldı. Torpaqlarımız uğrunda canlarından keçmiş bütün şəhidlərimizin, eləcə də Bakı Dövlət Universitetinin tələbəsi və məzunu olan şəhidlərimizin əziz və unudulmaz xatirəsi hər zaman qəlbimizdə yaşayacaq.

Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 02 dekabr 2020-ci il tarixli sərəncamı ilə Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq hər il sentyabrın 27-si Anım Günü kimi qeyd edilir.

Azərbaycan dövlətinin qüdrəti, qəhrəman xalqımızın sarsılmaz birliyi, qazilərimizin qanı, şəhidlərimizin canı bahasına əldə edilən tarixi Qələbəmiz sonrakı zəfərlərə yol açdı. Üç il bundan əvvəl Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Ordumuz 30 illik işğala son qoymuşdusa, bu il aprelin 23-də Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qoymaqla ərazi bütövlüyümüzü tam bərpa etdi. Bu il sentyabrın 19-da isə cəmi 24 saat davam edən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz məskunlaşmış Ermənistan ordusu təslim oldu, suverenliyimiz tam təmin olundu. Azərbaycanın qəhrəman oğulları bu tarixi qanları ilə yazdılar!

27 Sentyabr - müqəddəs şəhidlərimizin Anım Günündə torpaqlarımız uğrunda canlarından keçən soydaşlarımızı bir daha ehtiramla anırıq. Bizə Qələbə bəxş edən şəhidlərimizin ruhları qarşısında baş əyirik!

Allah Sizə rəhmət eləsin, yeriniz behişt olsun, əziz şəhidlərimiz! Bu günlərimiz üçün Sizlərə borcluyuq.

Azərbaycanın şanlı bayrağı işğaldan azad edilmiş torpaqlarda əbədi dalğalanacaq!

Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də bəyan etdiyi kimi, "Bizə xor baxanlar, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt, heç vaxt unutmasınlar ki, "dəmir yumruq" yerindədir və hər zaman yerində olacaq!".

## QARABAĞ AZƏRBAYCANDIR!

Zəfər sənin, mənim oldu.
Şəhidlər, son qəmim oldu.
Xalqım daha əmin oldu.
QARABAĞ AZƏRBAYCANDIR!
***
Son anda haqdan keçmədik.
Bir qarış torpaqdan keçmədik.
Bu yolu nahaqdan seçmədik.
QARABAĞ AZƏRBAYCANDIR!
***
Azad yurda, odaya bax.
Gen dünyada sədaya bax.
İLHAM qoyan nidaya bax.
QARABAĞ AZƏRBAYCANDIR!

### SALAM XANKƏNDİ, SALAM!!!

Yumruq olduq. Qalıb çıxdıq.
Səngərləri vurub, yıxdıq.
Söz vermişdik, qəlib çıxdıq.
Salam Xankəndi, SALAM !!!
***
Bayrağim başımız üste
Vurusduq hər qarış üstə.
Qanla yazdiq hər daş üstə
Salam Xankəndi, SALAM !!!
***
Azad şəhər, xoşbəxt yaşa
Yol açdiq obaş-bubaşa..
Əl eləyir Laçın, Susa..
Salam Xankəndi, SALAM !!!

***Vəliyulla Cəfərov***
*Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının dosenti*

## BDU-nun şəhid məzunu Ceyhun Şalıyevin məzarı ziyarət olunub



***Hüquq fakültəsinin kollektivi fakültənin məzunu, Vətən müharibəsi şəhidi Ceyhun Şalıyevin anım günündə ailəsi ilə görüşüb, məzarını ziyarət edib.***

Təhsil aldığı müddətdə nümunəvi tələbə kimi seçilən Ceyhun Şalıyevin əziz xatirəsinin həm müəllimlərinin, həm də tələbə yoldaşlarının qəlbində daim yaşadığı, gənclər üçün örnək olduğu qeyd edilib.

Ceyhun Şalıyev 2011-2015-ci illərdə BDU-nun Hüquq fakültəsində təhsil alıb, 2016-cı ildə Aprel döyüşlərində iştirak edib. 2020-ci ildə Vətən müharibəsində könüllü iştirak edən Ceyhun Şalıyev torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə mərdlik və fədakarlıq nümunəsi göstərib. O, Füzulinin azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub.

Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə Ceyhun Şalıyev "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

## Mədəniyyət-Yaradıcılıq Mərkəzinin hazırladığı "Qarabağ Azərbaycandır!" tamaşası nümayiş olunub

***BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzinin hazırladığı "Qarabağ Azərbaycandır!" tamaşası nümayiş olunub.***

Əvvəlcə Vətənimizin azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tamaşanın quruluşçu rejissoru Vahid Orucoğlu çıxış edərək belə tamaşanın ali məktəblər arasında ilk dəfə BDU-da səhnələşdirildiyini, aktyorların BDU-nun yaradıcı tələbələri olduğunu qeyd edib.

Sonra "Qarabağ Azərbaycandır" tamaşası göstərilib. Tamaşada Vətən müharibəsindən fraqmentlər səhnələşdirilib. Vətənpərvərlik ruhunda yetişmiş gəncliyin müharibə dövründə yaşadığı hadisələr canlandırılıb.

Tamaşa anşlaqla qarşılanıb.



# III Məktəblilərarası Astronomiya Olimpiadasının qaliblərinin mükafatlandırılma mərasimi

***Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş III Məktəblilərarası Astronomiya Olimpiadasının qaliblərinin mükafatlandırılma mərasimi keçirilib.***



Olimpiadanın keçirilməsində məqsəd şagirdlər arasında astronomiya sahəsinə marağın artırılması, təhsil sistemində astronomiyaya daha geniş yer verilməsinin təşviq edilməsi, həmçinin qaliblərin Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasına hazırlığının təmin olunmasıdır. 2016-cı ildən etibarən Elm və Təhsil Nazirliyi Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi və Tusi-Bohm Planetariumun birgə təşəbbüsü ilə məktəblilər üçün astronomiya yönümlü proqramların təşkil edilməsinə start verilib.

Olimpiada Bakı Dövlət Universiteti (BDU), Azərbaycan Respublikasının Təhsil İnstitutu, N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanası, Elm və Təhsil Nazirliyinin Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi, Beynəlxalq Astronomiya İttifaqının Astronomiya Təhsili İdarəsinin təşkilatçılığı ilə keçirilib.

Qeyd edək ki, III Məktəblilərarası Astronomiya Olimpiadası və Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasına hazırlıq dərsləri Cənubi Qafqazda yeganə planetarium olan Tusi-Bohm Planetariumun dəstəyi ilə baş tutub. Yarışda ümumtəhsil müəssisələrinin IX-XI sinif şagirdləri astronomiya üzrə bilik və bacarıqlarını sınayıb. Bu il 592 nəfər şagird qeydiyyatdan keçib.

Mükafatlandırma mərasimində Elm və Təhsil Nazirliyinin Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin direktoru Firuzə Sultanzadə, N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının baş direktoru Namiq Cəlilov, BDU-nun Astrofizika kafedrasının müdiri Kəmalə Alışeva, Azərbaycan Respublikasının Təhsil İnstitutunun İstedadlı uşaqlarla iş şöbəsinin baş mütəxəssisi Qorxmaz Mustafayev, Tusi-Bohm Planetariumunun rəhbəri Famil Mustafa iştirak ediblər.

Sonda qaliblər medal və dəyərli hədiyyələrlə mükafatlandırılıblar.

# Hüquq fakültəsinin 16 tələbəsi "PAŞA Holding"in "Əlaçı" təqaüdünə layiq görülüb

***Hüquq fakültəsinin III-IV kurs tələbələri Səbinə Lətifli, Pəri Rzayeva, Şahin Məmmədov, Tarif Hüseynov, Nigar Quliyeva, Şahin Bayramlı, Könül Məmmədova, Arifə Sadıxova, Əli Mirzəyev, Səfər Əlizadə, Riyad Musayev, Ülviyyə Zeynallı, Elmira Sadıqzadə, Fəzilə Əliyeva, Gülüstan İsayeva, Vüsal Yavərli "PAŞA Holding" tərəfindən təşkil edilmiş "Əlaçı" təqaüd proqramının qalibi olublar.***

Onlar üç pilləli seçim mərhələsini uğurla başa vuraraq 2137 nəfər müraciətçi arasından seçiliblər. 2023-2024-cü illəri əhatə edəcək təqaüd proqramı çərçivəsində tələbələr şəxsi və karyera inkişafı üzrə təlim proqramları, karyera məsləhətləri və mentorluq, şəbəkələşmə fəaliyyətlərinə cəlb olunacaqlar.

Tələbələrimizi təbrik edir, uğurlar arzulayırıq!

# BDU-nun TGT üzvləri intellektual yarışda qalib olublar

***Sentyabrın 15-də BDU-nun Tələbə Gənclər Təşkilatının (TGT) üzvləri Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin və Bakı Gənclər Mərkəzinin birgə təşkilatçılığı ilə Bilik Gününə həsr olunmuş "Birlik" intellektual yarışında iştirak ediblər.***

Yasamal rayonunu təmsil edən BDU-nun TGT üzvləri 12 komanda ilə 3 turda davam edən yarışı birinciliklə başa vurublar.

Qaliblər diplom və hədiyyələrlə təltif edilib.



# Xəzərin səviyyəsinin dəyişməsinin oturaq quş populyasiyalarının çoxalmasına təsiri üzrə tədqiqatlar davam edir

***BDU-nun Zoologiya və fiziologiya kafedrasının müdiri, dosent Əbülfəz Tağıyev və kafedranın doktorantı Natəvan Kərimovanın həmmüəllifi olduqları "Xəzər dənizində suyun səviyyəsinin enməsinin Qızılağac körfəzində oturaq quş populyasiyalarının çoxalma davranışına təsiri" (Influence of water level reduction in the Caspian sea on the breeding behaviour of sedentery bird populations in Gızılaghaj bay) adlı məqalə "Web of Science" elmmetrik bazasına daxil olan "Egyptian Journal of Veterinary Sciences" jurnalında dərc olunub.***

Tədqiqatlar zamanı Qızılağac körfəzində reproduksiya dövründə 11 dəstə, 21 fəsilə və 29 cinsə aid 41 növ oturaq quş populyasiyası müxtəlif biotoplarda qeydə alınıb, onların çoxalma davranışlarında baş verən dəyişikliklər öyrənilib.

# "QS QUACQUARELLI SYMONDS" Reytinq Agentliyi BDU-nun əməkdaşları üçün təlim keçirib



***BDU-nun əməkdaşları üçün nüfuzlu "QS QUACQUARELLI SYMONDS" Reytinq Agentliyi tərəfindən təlim təşkil edilib.***

Təlimdə açılış nitqi ilə çıxış edən rektorun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov müxtəlif kateqoriyalar üzrə QS reytinq nəticələrinin BDU üçün əhəmiyyətindən bəhs edib, təlim iştirakçılarına uğurlar arzulayıb.

Təlimdə QS Reytinq Agentliyinin nümayəndələri tərəfindən Agentliyin fəaliyyətinə və "QS Subject Ranking" kateqoriyasına dair geniş məlumat verilib, eləcə də müvafiq kateqoriya üzrə göstəricilər əsasında BDU-nun mövcud vəziyyəti bir sıra xarici ali təhsil müəssisələri ilə müqayisəli təhlil edilib.

Daha sonra Agentliyin nümayəndələri tərəfindən iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# BDU-nun Tələbə Gənclər Təşkilatının üzvləri təltif ediliblər




***Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi və Azərbaycan Tələbə Gənclər İttifaqının təşkilatçılığı ilə "Şuşa tələbələrin gözü ilə" adlı layihə çərçivəsində fərqlənən gənclər təltif ediliblər.***

BDU-nun Tələbə Gənclər Təşkilatının üzvləri Ələkbər Bafadarov, Nahid Xəlilov və Nigar Rəhimli Şuşa şəhərinə səfər zamanı yaranan təəssüratlarla bağlı "Ən yaxşı hal araşdırması", "Ən yaxşı məqalə" və "Ən yaxşı müraciət məktubu" nominasiyaları üzrə təltif ediliblər.

Tələbələrimizi təbrik edir, uğurlar arzulayırıq!

# ABŞ-ın Puerto-Riko Dövlət Universitetinin professoru Biologiya fakültəsində elmi seminar keçirib

***Sentyabrın 30-da ABŞ-ın Puerto-Riko Dövlət Universitetinin Tibb fakültəsinin professoru, Amerika Kardioloqlar Cəmiyyətinin fəxri üzvü Səbzəli Cavadov Biologiya fakültəsinin əməkdaşları, magistrant, tələbə və doktorantlarına "Ürəkdə ferroptotik hüceyrə ölümünün mexanizmləri: mitoxondrinin rolu" mövzusunda elmi seminar keçirib.***

Professor Səbzəli Cavadov təqdimatında insan xəstəliklərində hüceyrə ölümünün əsas mexanizmləri, xüsusən də miokard infarktı və urəyin işemiya-reperfuziyon zədələnmələri haqqında geniş məlumat verib. Məruzəçi çıxışında dəmir növündən asılı olaraq yeni müəyyən edilmiş hüceyrə ölümünə səbəb olan ferroptozun molekulyar və hüceyrə mexanizmlərini izah edib. Eyni zamanda hüceyrədə enerji istehsalında mərkəzi rol oynayan mitoxondrinin ferroptozda rolu və prosesin mexanizmləri barədə danışıb.

Təqdimatın sonunda professor Səbzəli Cavadov rəhbərlik etdiyi işçi qrupun ABŞ-ın Pittsburq Universiteti, Miçiqan Dövlət Universiteti və Pensilvaniya Dövlət Universitetinin alimləri ilə birgə apardığı tədqiqatların nəticələrini auditoriyaya təqdim edib.

Sonda mövzu ilə bağlı müzakirələr aparılıb və seminar iştirakçılarının sualları cavablandırılıb.

# BDU sosial xidmətlər sahəsində beynəlxalq konfransın sərgisində təmsil olunur

***Sentyabrın 7-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Agentliyinin təşəbbüsü ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100, habelə DOST Agentliyinin yaradılmasının 5 illiyi münasibətilə "DOST 2023: çevik, innovativ və davamlı xidmətlərin göstərilməsi üçün vahid platforma" adlı beynəlxalq konfrans keçirilib.*** Konfrans çərçivəsində təşkil edilən sərgidə BDU da təmsil olunub.

Konfrans iştirakçıları tədbir zamanı sərgi ilə tanış olublar. Sərgidə BDU-nun Sosial iş kafedrasının əməkdaşlarının dərslik və dərs vəsaitləri, BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin əməkdaşı, doktorant Orxan Güləhmədovun eşitmə və görmə məhdudiyyətli insanlar üçün ixtira etdiyi texniki qurğu, eləcə də BDU-nun fəaliyyətini əks etdirən broşur və bukletlər nümayiş etdirilib. Həmçinin sərgidə iştirakçılara BDU-da təhsil və



karyera imkanları, Universitetin elmi-tədqiqat yönümlü və sosial layihələri haqqında ətraflı məlumat verilib.

BDU-nun təmsil olunduğu stend konfrans iştirakçılarında böyük maraq doğurub.

# Son 5 ildə BDU əməkdaşları tərəfindən elmi-tədqiqat sahəsində 100-ə yaxın qrant alınıb

***Son 5 ildə Bakı Dövlət Universitetinin (BDU) əməkdaşları tərəfindən yerli və beynəlxalq donorlardan elmi-tədqiqat sahəsində 100-ə yaxın qrant alınıb.***

BDU əməkdaşlarının rəhbərliyi və ya iştirakı ilə 36 beynəlxalq qrant layihəsi yerinə yetirilib. Beynəlxaq qrant layihələrindən 6-sı Avropa Birliyi (FP7, HORIZON-2020, Erasmus+), 5-i Türkiyənin Elmi və Texnoloji Tədqiqat Şurası (TÜBİTAK, AMEA-TÜBİTAK, EİF/AEF TÜBİTAK), 5-i Ukrayna Elm Texnologiya Mərkəzi (STCU) və digərləri tərəfindən maliyyələşdirilib.

Bundan əlavə, Azərbaycan Elm Fondu (AEF) (əvvəlki Elmin İnkişafı Fondu) tərəfindən elan olunmuş Azərbaycan-Belarus və Azərbaycan-Rusiya qrant müsabiqəsinin, Avropa Nüvə Tədqiqatları Mərkəzinin (CERN), Almaniyanın DAAD proqramının, Halle-Vitterberq Universitetinin, TEMPUS proqramının, BMT-nin Əhali Fondunun (UNFPA), Birləşmiş Nüvə Tədqiqatları Mərkəzinin, Abdus Salam adına Beynəlxalq Nəzəri Fizika Mərkəzinin (ICTP) və digərlərinin elan etdikləri qrant müsabiqələrinin qalibləri olmuş layihələr BDU-da yerinə yetirilib.

Son 5 ildə BDU-da ümumilikdə 49 elmi-tədqiqat nəticəsi üzrə patent əldə edilib. Onlardan 3 patent beynəlxalq səviyyəlidir. BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Rəqəmsal araşdırmalar, Ekoloji kimya və ətraf mühit, Sənaye kimyası laboratoriyalarında "BP Azerbaijan", SOCAR kimi iri sənaye şirkətlərinin birbaşa sifarişləri əsasında müqavilə əsaslı layihələr yerinə yetirilir.

BDU-nun əsas məqsədlərindən biri də təkcə beynəlxalq bazalarda dərc olunan məqalələrin sayının artırılması deyil, həmçinin, aparılan elmi-tədqiqatların prioritet istiqamətlərini müəyyən etməklə dünyada elmi meyllərə uyğun problem mövzular üzrə tədqiqatların genişləndirilməsini, tətbiq yönümlü və multidissiplinar tədqiqatlara üstünlük verilməsini, alınan nəticələrin dürüstlüyünün təmin edilməsi və əldə olunmuş nəticələrin kvartil (Q) kateqoriyası yüksək olan jurnalların tələblərinə uyğun hazırlanmasını və s. təmin etməkdir. Keçirilən təlimlər, elmi fəaliyyətin təşkili üzrə aparılmış işlər "Web of Science" bazasında BDU alimləri tərəfindən dərc olunan məqalələrin sayının artması ilə bərabər, onlara istinadların da sayının artmasına gətirib çıxarır. Bu da öz növbəsində həm BDU-nun Hirş indeksinin (hazırda 57-dir), həm də elmi əsər müəlliflərinin Hirş indeksinin artmasına gətirib çıxarıb.

# BDU əməkdaşları "Times Higher Education" reytinq təşkilatının təlimində

***Sentyabrın 14-də Təhsildə Keyfiyyət Təminatı Agentliyinin təşkilatçılığı ilə dünyanın ən nüfuzlu reytinq təşkilatlarından biri olan "Times Higher Education"in nümayəndələri tərəfindən keçirilən onlayn təlimdə BDU da təmsil olunub.***

Təlimin məqsədi "THE 2024 impakt" reytinqində iştirak, metodologiya, tələb olunan məlumatlar və digər müvafiq mövzular barədə Azərbaycanın ali təhsil müəssisələrinin beynəlxalq reytinqlər üzrə məsul əməkdaşlarını məlumatlandırmaqdır. Təlimdə BDU rektorunun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov və Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Rauf Həsənov iştirak ediblər.

Məlumat üçün bildirək ki, BDU Azərbaycanda "Times Higher Education Subject Ranking" reytinq cədvəlinə düşən yeganə universitetdir. Belə ki, BDU Fiziki elmlər (Fizika, Kimya, Geologiya, Astronomiya, Riyaziyyat və s.) və Mühəndislik elmləri (Kimya mühəndisliyi, Geologiya mühəndisliyi, Hidrogeologiya mühəndisliyi, Geofizika mühəndisliyi və s.) üzrə 1001+ mövqelərini tutub.

# BDU tələbələri təmizlik aksiyasında

***Sentyabrın 18-də Ekologiya və torpaqşünaslıq fakültəsinin tələbələri IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Gənclər Fondu, "Təmiz Şəhər" ASC və BMT İnkişaf Proqramının Azərbaycandakı nümayəndəliyinin tərəfdaşlığı ilə "Sahillər təmiz qalsın" şüarı altında keçirilən ənənəvi sahilyanı təmizlik aksiyasında iştirak ediblər.***

Şüvəlan çimərliyi ərazisində baş tutan aksiya zamanı əlcək və kisələr ilə təchiz olunmuş 100-dən çox fəal tələbə çimərlik ərazisini tullantılardan təmizləyib.

Bu il ilk dəfə olaraq dalğıcların iştirakı ilə Xəzər dənizinin sahilyanı ərazisi ilə yanaşı, sualtı hissəsi də tullantılardan təmizlənib.

Günün sonunda toplanan tullantılar Balaxanı bərk məişət tullantılarının çeşidlənməsi zavoduna təhvil verilib.

# Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin əməkdaşları Ankara Universitetində təlim keçiblər

***Türkiyənin Ankara Universiteti tərəfindən BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin əməkdaşları üçün təlim proqramlarına start verilib.***

Təlim proqramları BDU və Ankara Universiteti arasında 2022-ci il 16 avqust tarixində imzalanmış akademik əməkdaşlıq protokolu çərçivəsində həyata keçirilir. Təlimdə iştirak etmək üçün BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin əməkdaşları Ankara Universitetinə ezam olunublar. Onlar Ankara Universitetinin "AgriGenomik" texnokəndində yeni nəsil sekvensləmə metodları ilə tanış olublar.

Qeyd edək ki, BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin nəzdində qurulacaq Sekvensləmə Mərkəzində çalışacaq əməkdaşlar üçün gələcəkdə də intensiv təlim proqramlarının keçirilməsi davam etdiriləcək.

# BDU professorları Ege Universitetində

***Sentyabrın 13-də Biologiya fakültəsinin dekanı, professor Afət Məmmədova, İCESCO-nun Biotibbi materiallar kafedrasının müdiri, professor Ülviyyə Həsənova Türkiyənin Ege Universitetinin "EGEHAYMER" Araşdırma Mərkəzində təşkil olunmuş "Davamlı ətraf mühitin monitorinqi üçün bioloji test modelləri" adlı təlimdə iştirak ediblər.***

Təlimdə ətraf mühitin monitorinqi üçün müxtəlif bioloji obyektlərin istifadəsi ilə bağlı türkiyəli professorların məruzələri dinlənilib. Türkiyəli alimlər elmdə qəbul edilmiş test obyektləri üzərində laborator şəraitdə ustad dərsi keçiblər.

Biologiya fakültəsinin professorları Ege Universitetinin Fənn fakültəsində olub, fakültə dekanı Dinçer Ayaz, Biologiya fakültəsinin bölüm rəhbəri Kerim Çiçek, Molekulyar biologiya laboratoriyasının müdiri, professor İsmayıl Türkan, professor Ferah Sayım, Esra Ömeroğlu və digər alimlərlə görüşüblər. Görüşlərdə BDU ilə Ege Universitetinin birgə beynəlxalq layihələr işləməsi, ikili diplomların, tələbə-müəllim mübadiləsinin həyata keçirilməsi haqqında müzakirələr aparılıb. Ege Universitetində bu istiqamətdə aparılan işlər barədə məlumat verilib. BDU alimləri molekulyar biologiya laboratoriyası ilə də tanış olublar.

Təlim müddətində Özbəkistan, Qırğızıstan və Qaraqalpaq alimləri ilə də görüşlər keçirilib və birgə əməkdaşlıq istiqamətində müzakirələr aparılıb.

# BDU-da Bilik Gününə həsr olunmuş kitab sərgisi

***BDU-nun Elmi Kitabxanası tərəfindən "15 sentyabr - Bilik Günü" adlı kitab sərgisi hazırlanıb. Sərgidə Azərbaycanın təhsil sistemi, təhsil tarixi, təhsilin inkişaf strategiyası və s. mövzularda 40-a yaxın kitab nümayiş olunur.***

Sərgidə BDU-nun tarixi inkişaf yolundan, ölkəmizdə ali təhsil sisteminin qurulmasında və elmin tərəqqisində oynadığı müstəsna rolundan bəhs edən "Bakı Dövlət Universiteti – 100 ilin elm və təhsil məbədi", "Bakı Dövlət Universiteti – elmi fəaliyyət və uğurlar" adlı nəşrlər də nümayiş edilir.

# TGT üzvlərinə VI Robot Olimpiadasında aktiv iştiraka görə sertifikatlar verilib



*1-3 sentyabr tarixlərində Gənclər və İdman, Elm və Təhsil, Rəqəmsal İnkişaf və Nəqliyyat nazirlikləri, Dünya Robot Olimpiadası Assosiasiyası və Azərbaycan Robotexnika Mühəndisliyi Akademiyasının (AREA) birgə təşkilatçılığı ilə Milli Gimnastika Arenasında VI Robot Olimpiadası keçirilib.*

BDU-nun Tələbə Gənclər Təşkilatının (TGT) üzvləri Olimpiadanın təşkilatçılıq prosesində könüllü kimi fəaliyyət göstəriblər.

Olimpiadanın sonunda BDU-nun TGT üzvləri gənclər və idman naziri Fərid Qayıbov tərəfindən sertifikatlarla təltif ediliblər.

# “Fəlsəfə” fənni üzrə doktoranturaya qəbul imtahanlarında 247 iddiaçı iştirak edib

*Sentyabrın 5-6-da BDU-da fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul olmaq üçün “Fəlsəfə” fənnindən qəbul imtahanları keçirilib.*

İmtahanlarda BDU-nun doktoranturasına qəbul olmaq üçün müraciət etmiş 157 iddiaçı, eləcə də ölkənin bir neçə elmi-tədqiqat institutlarının (İdarəetmə Sistemləri İnstitutu, Radiasiya Problemləri İnstitutu, İnformasiya Texnologiyaları İnstitutu, Şamaxı Astrofizika Rəsədxanası, Biofizika İnstitutu, Neft-Kimya Prosesləri İnstitutu, Kataliz və Qeyri-Üzvi Kimya İnstitutu, Aşqarlar Kimyası İnstitutu, Polimer Materialları İnstitutu, Geologiya və Geofizika İnstitutu, Botanika İnstitutu, Mikrobiologiya İnstitutu, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu, İqtisadiyyat İnstitutu, Fizika İnstitutu, Riyaziyyat və Mexanika İnstitutu, Neft və Qaz İnstitutu, Coğrafiya İnstitutu, Fiziologiya İnstitutu, Torpaqşünaslıq və Aqrokimya İnstitutu, Genetik Ehtiyatlar İnstitutu) doktoranturasına qəbul olmaq üçün müraciət etmiş 90 iddiaçı olmaqla, ümumilikdə 247 iddiaçı iştirak edib.

İmtahanlar BDU-nun professor-müəllimlərindən ibarət İmtahan Komissiyası tərəfindən şifahi formada keçirilib.

BDU-nun doktoranturasına qəbul olmaq üçün müraciət etmiş və imtahandan müvəffəqiyyətlə keçmiş 123 iddiaçı növbəti mərhələdə ixtisas fənni üzrə qəbul imtahanında iştirak edəcək.

# BDU-nun beynəlxalq akkreditasiyadan keçən ixtisaslarının ölkədə tanınması barədə qərar qəbul edilib

*BDU-nun magistratura səviyyəsində tədris olunan 6 ixtisaslaşması (Qeyri-üzvi kimya, Fiziki kimya, Analitik kimya, Üzvi kimya, Yüksəkmolekullu birləşmələr kimyası, Neft kimyası) Qazaxıstanın Təhsildə Keyfiyyətin Təminatı üzrə Müstəqil Agentliyi (İQAA) tərəfindən beynəlxalq akkreditasiyadan keçib.* Azərbaycan Respublikasının elm və təhsil nazirinin rəhbərlik etdiyi Akkreditasiya Şurasının 2023-cü il 20 sentyabr tarixli qərarı ilə BDU-nun 6 ixtisaslaşması üzrə beynəlxalq akkreditasiyanın nəticələri dövlət akkreditasiyası üçün nəzərə alınıb.

Qazaxıstanın Təhsildə Keyfiyyət Təminatı üzrə Müstəqil Agentliyi Avropa Ali Təhsil Məkanında Keyfiyyət Təminatı üzrə Assosiasiyanın (ENQA) tam hüquqlu üzvüdür və yuxarıda adları qeyd olunan ixtisaslaşmalar 5 il müddətinə akkreditasiya olunub.

Qeyd edək ki, BDU "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"nın yeni redaksiyada təsdiqindən sonra ölkədə beynəlxalq akkreditasiyaları tanınan yeganə universitetdir.

# BDU-da Milli Musiqi Günü qeyd olunub

*Sentyabrın 18-də BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzi Azərbaycan bəstəkarlıq məktəbinin banisi Üzeyir Hacıbəylinin doğum günü və 18 sentyabr - Milli Musiqi Günü münasibətilə ədəbi-bədii kompozisiya hazırlayıb.*

Əvvəlcə dahi bəstəkarın müəllifi olduğu Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Qeyd olunub ki, 1995-ci ildə Ulu Öndər Heydər Əliyevin Fərmanı ilə dahi




bəstəkarın anadan olmasının 110 illik yubileyi ərəfəsində 18 sentyabrın Milli Musiqi Günü kimi qeyd edilməsi qərara alınıb. Azərbaycan musiqisinin inkişafında əvəzsiz rol oynayan Üzeyir Hacıbəylinin doğum günü ilə əlaqədar hər il ölkəmizdə təntənəli mərasimlər keçirilir.

Kompozisiyada dahi bəstəkarın “Aşıq Cünun” havası, “Arşın mal alan” operasından “Aşiq oldum” ariyası, “Leyli və Məcnun” operasından görüş səhnəsi, “Qaragöz” musiqisi, “Koroğlu” uvertürası təqdim olunub.

# Astrofizika kafedrası: Payız fəsli Azərbaycana sentyabrın 23-ü saat 10:49:56-da daxil olub

*Payız fəsli Azərbaycana sentyabrın 23-ü saat 10:49:56-da daxil olub.*

Fizika fakültəsinin Astrofizika kafedrasından verilən məlumata görə, bu zaman payız gecə-gündüz bərabərliyi qeydə alınıb.

Günəş ekliptika üzrə hərəkət edib, ekvatoru kəsərək Şimal yarımkürəsindən Cənub yarımkürəsinə keçib və həmin andan Şimal yarımkürəsində payız fəsli başlayıb.

Payız fəslinin uzunluğu 89 gün 20 saat 37 dəqiqə 23 saniyə olacaq.

# BDU könüllüləri "KOMANDO" hərbi-vətənpərvərlik düşərgəsində



*Sentyabrın 8-də "BDU könüllüləri" təşkilatının üzvləri Gənclər və İdman Nazirliyi tərəfindən Quba Olimpiya İdman Kompleksində təşkil olunan"KOMANDO" hərbi-vətənpərvərlik düşərgəsində iştirak ediblər.*

"KOMANDO" hərbi-vətənpərvərlik düşərgəsi ehtiyatda olan xüsusi təyinatlı zabitlər tərəfindən keçirilən hərbi-tibbi təlim, oyun və yarışlardan ibarətdir.

Düşərgə sentyabrın 11-dək davam edib.

# BDU tələbəsi gənclər arasında şotokan karate üzrə dünya çempionu olub




*Sentyabrın 15-də BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin III kurs tələbəsi Yavərbəy Abdullayev 8-10 sentyabr tarixlərində Özbəkistanın Daşkənd şəhərində keçirilən Gənclər arasında şotokan karate üzrə XIII Dünya Çempionatının qalibi olub.*

Tələbəmiz 18-21 yaşlı gənclər arasında, 84+ çəkidə mübarizə aparıb və I yerə layiq görülüb.

Qeyd edək ki, Yavərbəy Abdullayev 10 ildir Karate üzrə Azərbaycan millisinin üzvüdür.

Tələbəmizi təbrik edir, uğurlar arzulayırıq!

# BDU-nun "BSU Creativity Workz" komandası "TEKNOFEST - Girişim Yarışması"nın qalibi olub




***BDU-nun "BSU Creativity Workz" komandası "TEKNOFEST - Girişim Yarışması"nın final mərhələsində uğurla çıxış edərək, 3 qalib komandadan biri olub.***

BDU-nun "BSU Creativity Workz" komandası yarışmada "Ağıllı nəqliyyat texnologiyaları" kateqoriyası üzrə bu ilin may ayında İstanbul şəhərində keçirilən "TEKNOFEST-2023" festivalında birinci yerə layiq görülən "Driver's Eye" layihəsi ilə çıxış edib.

Qeyd edək ki, "TEKNOFEST-Girişim Yarışması"nda 10 kateqoriya üzrə 2419 komanda yarışıb. Yarışın məqsədi keçmiş illərdə (2018 - 2023) TEKNOFEST festivalının müxtəlif kateqoriyalarında yarışaraq finalçı və ya qalib olan komandaların hazırladığı prototipləri, biznes ideyalarını istehsalata hazır son məhsula çevirmək, onların beynəlxalq bazara çıxışını, investorlarla görüşünü təmin etməkdir. Keçirildiyi illər ərzində "TEKNOFEST - Girişim Yarışması" vasitəsilə Türkiyədə müxtəlif istiqamətlərdə fəaliyyət göstərən 121 şirkət qurulub.

# Tələbə Gənclər Təşkilatının üzvləri Şuşada




***Sentyabrın 4-də Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi və Azərbaycan Tələbə Gənclər İttifaqının təşkilatçılığı ilə "Şuşa tələbələrin gözü ilə" adlı layihə çərçivəsində ilk səfər baş tutub.***

BDU-nun Tələbə Gənclər Təşkilatının İdarə Heyətinin 15-dək üzvü də Şuşa səfərində fəal iştirak edib və aparılan bərpa-quruculuq işləri ilə yaxından tanış olub.

Layihənin məqsədi Azərbaycanda təhsil alan istedadlı gənclərin Qarabağa qayıdış prosesində aktiv iştirakını təmin etmək, tələbələri Şuşanın tarixi və mədəni irsi ilə bağlı maarifləndirməkdir.

# BDU "QS EUROPE" və "QS WESTERN ASIA" reytinqlərində

***"QS Quacquarelli Symonds" təşkilatı tərəfindən tərtib olunan "QS EUROPE" reytinqi üzrə Avropada yerləşən 42 ölkədən 690 ali təhsil müəssisəsinin nəticələri açıqlanıb.***

BDU fakültə-tələbə (faculty-student ration) nisbətinə görə Avropa üzrə 90-cı, Azərbaycan üzrə isə 1-ci yerdə qərarlaşıb. Beynəlxalq tədqiqat şəbəkəsi (international research network) indikatoru üzrə BDU Azərbaycan ali təhsil müəssisələri arasında 1-ci olaraq müəyyənləşib.

# Kimya fakültəsində qazilərlə görüş

***Sentyabrın 29-da Kimya fakültəsində Vətən müharibəsi iştirakçıları ilə görüş keçirilib.***

Tədbirdə Vətən müharibəsi qaziləri İsmayıl Hacıyev, Elşən Cəbrayılov, Fərid Bağırlı, Cavid Həsənov, Emin Əzimzadə, Şahmurad Baxışəliyev, Təbriz Zöhrablı, Ruslan Şıxıyev, Şahin İbrahimov, Yusif Fərəcov, Səid Kərimov, Namiq Əhmədov, professor-müəllim heyəti və tələbələr iştirak ediblər. Qazilərdən Şahin İbrahimov, Yusif Fərəcov, Səid Kərimov Kimya fakültəsinin məzunu, Namiq Əhmədov isə I kurs tələbəsidir.

Kimya fakültəsinin dekanı Fuad Kərimli bildirib ki, 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz dünya hərb tarixində misli görünməmiş nailiyyətlərə imza atıb. Cəmi 44 günə Prezident-Xalq-Ordu birliyi ilə Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemləri yarılıb, torpaqlarımız azad olunub, tarixi ədalət bərpa edilib.

Dekan müavini Taleh Qəhrəmanov və fakültənin dosenti Elgül Abdullayeva isə çıxışlarında qeyd ediblər ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu təkcə işğal altında olan torpaqlarımızı azad etməyib, xalqımızın döyüş ruhunun, mübarizə əzminin itmədiyini göstərib. 44 günlük Vətən müharibəsi, 19 sentyabr 2023-cü ildə həyata keçirilən antiterror əməliyyatı tariximizin ən parlaq səhifələrindəndir. Hazırda azad edilən torpaqlarımızda üçrəngli bayraqlarımız əzəmətlə dalğalanır və ərazi bütövlüyümüz tam bərpa olunub.

# BDU-ya qəbul olunanların 267 nəfəri 600-dən yuxarı bal toplayıb

***2023/2024-cü tədris ili üzrə Bakı Dövlət Universitetinə (BDU) qəbul olan 5553 nəfərdən 267 nəfəri 600-dən, 839 nəfəri 500-dən yuxarı bal toplayıb.***

Ən yüksək nəticəni isə 677.1 balla Kubra Həsənzadə (Hüquqşünaslıq) və Nuranə Payızova (Riyaziyyat müəllimliyi) göstərib.

# BDU-da qəbul planı 99,33 faiz dolub

***2023/2024-cü tədris ili üzrə Bakı Dövlət Universitetinə ayrılmış 5690 plan yerinin 99,33 faizi dolub.***

Belə ki, BDU-nun bakalavriat səviyyəsinə 5553 nəfər qəbul olub. Onlardan 5280 nəfəri əyani (dövlət sifarişli 3831, ödənişli əsaslarla 1449 nəfər), 273 nəfəri isə qiyabi (dövlət sifarişli 76, ödənişli əsaslarla 197 nəfər) təhsil alacaq. Qəbul üçün ayrılan 5690 plan yerindən 137-si boş qalıb.

# "Gənc istedadlar" liseyinin 64 məzunu ali məktəblərə qəbul olunub

***BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin məzunları builki qəbul imtahanlarında uğurlu nəticələr əldə ediblər.***

Liseyin bu il 65 məzunundan 64-ü respublikamızın, həmçinin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrinə qəbul olunub. "Gənc istedadlar" liseyinin məzunlarından 14-ü təhsilini BDU tələbəsi kimi davam etdirəcək. Liseyin 11 məzunu isə xarici ölkələrin müxtəlif ali təhsil ocaqlarında təhsil alacaq.

# Şəhid məzunun məzarı ziyarət olunub




***Sentyabrın 22-də BDU-nun bir qrup əməkdaşı Vətən müharibəsi şəhidi, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin məzunu Nicat Əhmədovun doğum günündə ailəsi ilə görüşüb, məzarını ziyarət edib.*** Ziyarətdə BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin dekan müavini Kənan Vəkilov, Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Hacıbaba Mustafayev, Tələbə Gənclər Təşkilatının sədri Ələkbər Həsənov və fakültənin fəal tələbələri iştirak ediblər.

Görüşdə çıxış edənlər Nicat Əhmədovun Vətən torpağı uğrunda qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalmasından qürur duyduqlarını bildiriblər. Təhsil aldığı müddətdə nümunəvi tələbə kimi seçilən Nicat Əhmədovun müəllimləri və tələbə yoldaşlarının qəlbində daim yaşayacağı qeyd olunub.

Qeyd edək ki, Nicat Əhmədov 2016-2020-ci illərdə BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində təhsil alıb. 2020-ci il oktyabrın 8-də səhər saatlarında Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalıb.

# BDU-da Bilik Günü qeyd olunub

***Bakı Dövlət Universitetində 15 sentyabr – Bilik Günü münasibətilə tədbir keçirilib.***

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

BDU-nun rektoru Elçin Babayev professor-müəllim heyətini və tələbələri yeni tədris ilinin başlaması münasibətilə təbrik edib, onlara uğurlar arzulayıb. Rektor 2023-cü ilin bütün Azərbaycan xalqı üçün əlamətdar olduğunu vurğulayıb: "Xalqımız Ümummilli Lider, müstəqil Azərbaycanın memarı və qurucusu, BDU-nun dünya şöhrətli məzunu Heydər Əliyevin 100 illik yubileyini sevgi və minnətdarlıqla qeyd edir. Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar BDU-da geniş tədbirlər







planı hazırlanıb və il ərzində müxtəlif tədbirlər keçirilib. Ulu Öndər Heydər Əliyevin ötən əsrin 70-ci illərində müəyyənləşdirdiyi təhsil strategiyası ölkəmizdə bu sahənin davamlı inkişafının əsasını qoyub. Müstəqillik illərində isə təhsillə bağlı daha geniş islahatlar həyata keçirilib, Azərbaycan təhsili yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu gün Ulu Öndərin siyasi xəttini bütün sahələrdə uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin, Birinci vitse-prezidenti Mehriban Əliyevanın diqqət və qayğısı sayəsində təhsilin inkişafı dövlət siyasətinin əsas prioritet istiqaməti kimi müəyyənləşdirilib. Ölkəmizin ilk və ən böyük universiteti olan BDU 104 ildir ki, xalqımızın maariflənməsi, yüksək ixtisaslı kadrların hazırlanması, Azərbaycan elminin inkişafında əvəzsiz rol oynayır. BDU bu müqəddəs missiyasını, elm və təhsilin inkişafı naminə fəaliyyətini əzmlə davam etdirir. Universitetimiz hər zaman Ulu Öndər Heydər Əliyevin diqqət və qayğısı ilə əhatə edilib. Bu gün qürurla söyləyirik ki, Ulu Öndər Heydər Əliyev BDU-nun dünya şöhrətli məzunu olmaqla yanaşı, hər zaman bu ali təhsil müəssisəsinin xeyirxahı və hamisi olub. Hazırda qüdrətlənən Azərbaycanın səsi dünyanın hər yerindən daha da gur eşidilməkdədir. Hamımız bu məsuliyyəti dərk edərək ölkəmizin gələcəyini birlikdə qurmaq üçün daha da əzmlə çalışmalıyıq".

Milli Məclisin üzvləri – BDU-nun Ümumi dilçilik kafedrasının müdiri, akademik Nizami Cəfərov, BDU İctimai Nəzarət Şurasının sədri Arzu Nağıyev çıxışlarında müəllim və tələbələri Bilik Günü münasibətilə təbrik edib, təhsil həyatlarında uğurlar arzulayıblar.

Sonra 2023/2024-cü tədris ili üzrə keçirilən qəbul imtahanlarında 677.1 bal toplayaraq BDU üzrə ən yüksək nəticəni əldə edən Kubra Həsənzadə (Hüquqşünaslıq) və Nuranə Payızova (Riyaziyyat müəllimliyi) çıxış edərək, tələbələrə uğurlar arzu ediblər.

Tədbir C.Naxçıvanski adına Hərbi Liseyin orkestrinin müşayiəti ilə marş sədaları altında başa çatıb.

# "Gənc istedadlar" liseyində, İqtisadiyyat və Humanitar Kollecdə və Qazax filialında Bilik Günü

***Sentyabrın 15-də BDU-nun nəzdində "Gənc istedadlar" liseyində, İqtisadiyyat və Humanitar Kollecdə və Qazax filialında 15 sentyabr – Bilik Günü münasibətilə tədbirlər keçirilib.***

Tədbirlər müstəqil Azərbaycanın xilaskarı və qurucusu, Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

"Gənc istedadlar" liseyində keçirilən tədbirdə çıxış edən liseyin direktoru Arif Bağırov müəllim və şagirdləri yeni dərs ili münasibətilə təbrik edib, onlara uğurlar arzulayıb.

Sonra liseyə yeni qəbul olunan V sinif şagirdləri vətənpərvərlik ruhunda şeirlər söyləyiblər. Tədbir ilk zəng sədaları ilə başa çatıb.

BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecdə keçirilən tədbirdə çıxış edən Kollecin direktoru Səhər Orucova yeni tədris ilinin başlaması münasibətilə müəllim və tələbələri təbrik edib. Bildirib ki, bu il Kollecə 284 nəfər (204 nəfər Azərbaycan, 80 nəfər rus bölməsi) ümumi orta təhsil bazasından, 333 nəfər (216 nəfər Azərbaycan, 40 nəfər rus bölməsi) isə tam orta təhsil bazasından qəbul olunub: "Kollecdə ümumi orta təhsil bazasında 8 ixtisas - Mühasibat uçotu, Bank işi, Maliyyə işi, Ailə və ev təhsili, Kargüzarlıq və arxiv işi, Məktəbəqədər təhsil, Kitabxana işi, Ətraf mühitin qorunması və təbii ehtiyatlardan səmərəli istifadə, tam orta təhsil bazasında 6 ixtisas - Mühasibat uçotu, Bank işi, Maliyyə işi, Ailə və ev təhsili, Məktəbəqədər təhsil, Kitabxana işi üzrə qruplar mövcuddur. Keçən ildən kollecdə açılan rus bölmələrinin ixtisasları bu il daha da artırılıb. Bu il ümumi təhsil bazasından rus bölməsində Mühasibat uçotu, Bank işi, Maliyyə işi, Ailə və ev təhsili, Məktəbəqədər təhsil, Kitabxana işi ixtisasları üzrə qəbul aparılıb. Bu ii ilk dəfə olaraq ümumi təhsil bazasında ixtisasların qiyabi şöbələri açılıb. Yuxarı kurslarda İqtisadiyyat şöbəsi üzrə 502, Humanitar şöbə üzrə 420 tələbə təhsil alır".

Kollecin direktoru onu da vurğulayıb ki, Kollecdə 2023/2024-cü tədris ilində ümumilikdə 1539 tələbə təhsil alacaq.

Sonra tədbir bədii hissə ilə davam edib.

Universitetin Qazax filialında keçirilən tədbirdə Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, Filialın direktoru Arif Rüstəmov, rayon ictimaiyyəti, müəllim və tələbələr iştirak ediblər. Filialın direktoru müəllim və tələbələri yeni dərs ilinin başlaması münasibətilə təbrik edib, uğurlar arzulayıb.

Filialın Riyaziyyat və informatika kafedrasının müdiri, professor Hüseyn Xəlilov, Dil, ədəbiyyat və onların tədrisi metodikası kafedrasının müəllimi Türkan Məmmədova, valideyn, şəhid atası İlham Quliyev, 522 balla BDU-nun Qazax filialının Tarix ixtisasına qəbul olmuş Nuray Sanılı çıxışlarında tələbə adını qazanmış gəncləri təbrik edib, təhsil uğurları arzulayıblar.

**Buraxılışa məsul:**
Afaq Sadıqova

**Redaksiya heyəti:**
Əliş Ağamirzəyev
Vüqar Əliyev
Cahangir Məmmədli
Qulu Məhərrəmli
Xatirə Hüseynova
Samir Mirzəyev
Günel Orucəliyeva

**Dizayn - tərtibat:**
Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.
**Çapa imzalanıb:**
29.09..2023
**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.
**Əlaqə nömrəsi:**
(+994 12) 538 42 08